**XƏZƏR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**XƏYALƏ AKİF QIZI MƏMMƏDOVA**

# AZƏRBAYCAN CƏMİYYƏTİNİN SOSİAL-MƏDƏNİ İNKİŞAFININ GENDER ASPEKTLƏRİ

İxtisas: 7207.01– “Sosial fəlsəfə”

Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş

**DİSSERTASİYA**

Elmi rəhbər: f. e. d., A.B.Rüstəmova

**BAKI - 2013**

**Mündəricat**


GİRİŞ ..........................................................................................................3

I FƏSİL. SOSIAL FƏLSƏFƏDƏ GENDER PROBLEMİNİN NƏZƏRİ-
METODOLOJİ XÜSUSİYYƏTLƏRİ

1.1. Feminizm və gender tədqiqatlarının nəzəri-metodoloji prinsipləri .... 12

1.2. Gender linqvistikasının sosial fəlsəfi problemləri .................................. 33

II FƏSİL. AZƏRBAYCANIN SOSİAL İNKİŞAFININ GENDER ASPEKTLƏRİ

2.1. Sosiallaşma prosesində gender meyarları..........................................44

2.2. Ailə institutunun sosial dinamikasının gender təhlili..........................74

III FƏSİL. AZƏRBAYCANIN MƏDƏNİ-MƏNƏVİ HƏYATININ
GENDER ASPEKTLƏRİ

3.1. Elm və təhsil sahəsinin inkişafında gender amili ...............................90

3.2. Kütləvi informasiya vasitələrinin (KİV) gender təhlili.......................101

3.3. Dini-sosial münasibətlər sistemində gender mütənasibliyi ................112

NƏTİCƏ.............................................................................................................. 123

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYATIN SİYAHISI………................... ...... ....130

ƏLAVƏLƏR...........................................................................................................144

# GİRİŞ

**Mövzunun aktuallığı:** XX əsrin 90-cı illərindən başlayaraq Sovet İttifaqının süqutu ilə sosial, mədəni, iqtisadi və siyasi sahələrdə böhranla üzləşən postsovet cəmiyyətləri yerli ənənəvi sosial-mədəni institutların və Qərb ölkələrindən gələn qeyri-ənənəvi liberal düşüncələrin münaqişə meydanına çevrildilər. Bu cür düşüncə istiqamətlərindən biri də sosial elmlər üçün yeni olan postneoklassik gender nəzəriyyələri idi. Sovet dövlətinin süqutu ilə meydana çıxan müstəqil dövlətlərin daxili qanunauyğunları və üzləşdikləri problemlər arasında oxşar və fərqli cəhətlər olduğu üçün, yaranan gender problemləri arasında da oxşar və fərqli cəhətlər meydana çıxdı. Bu problemlərin aradan qaldırılması sahəsində görülən nəzəri-praktiki işlər, postsovet məkanında vətəndaş cəmiyyətini təmsil edən qeyri-dövlət sektorlarının meydana çıxmasına və eyni zamanda liberal gender təsəvvürlərinin genişlənməsinə şərait yaratdı. Avropa dillərindən edilən tərcümələrə və yerli şəraitə yad olan əsərlərə istinad edən ilk gender maarifçiliyinin müsbət tərəfləri ilə yanaşı, mənfi tərəfləri də vardır. Müsbət tərəfləri Azərbaycanda gender bərabərliyinə qismən nail olmaqdan və bu sahədə olan stereotiplərin tədricən ortadan qaldırılmasından ibarət idisə, mənfi tərəfləri Qərbdən gələn bu ideyaların yerli şəraitə uyğun gəlməməsi idi. Lakin son on ildə bir çox QHT-lər, tədqiqat mərkəzləri və müstəqil tədqiqatçılar Azərbaycan şəraitində gender problemlərini araşdırmağa başlamışlar. Azərbaycanda gender bərabərliyinin müxtəlif aspektlərdə araşdırılması, konkret olaraq müxtəlif sahələrdə ortaya çıxan gender problemlərinin mənşəyini, onların həlli yollarını müəyyənləşdirməyə şərait yaradır. Bu məsələlərin öyrənilməsi dövlətin strateji inkişafının müəyyənləşməsi baxımından əhəmiyyətlidir. Çünki Azərbaycan dövləti beynəlxalq təşkilatlar qarşısında üzərinə götürdüyü ən böyük öhdəliklərdən biri də Azərbaycanda gender bərabərliyinə nail olmaqdır. Beynəlxalq təşkilatlar gender simmetrasiyasının təmin olunması üçün bir çox ölkələr qarşısında öhdəliklər qoymuşlar. 1995-ci ildə Pekində keçirilən BMT-nin qadınların vəziyyəti haqqında IV Ümumdünya konfransı yeni qlobal dünya nizamının təməl prinsiplərini müəyyənləşdirdi. Bu sənəddə qadın problemlərinin həlli üzrə fəaliyyətin 12 ən

mühüm istiqaməti müəyyən edilib. Belə istiqamətlər sırasında qadınlar arasında yoxsulluq və dilənçilik, təhsil və səhiyyə sahəsində ayrı-seçkilik hallarına qarşı mübarizə, hakimiyyət strukturlarında qadınların qeyri-bərabər təmsil olunması probleminin həlli və başqa məsələlər vardır. Yeni qlobal dünyanın prinsiplərinə görə cinsi mənsubiyyətinə nəzərən ayrıseçkiliyə məruz qalan cəmiyyətlərdə nəinki insan hüquqları, demokratiya və davamlı inkişaf, hətta qlobal xarakter alan bir çox ekoloji problemlərin belə həlli mümkün deyildir. Çünki dünyada ekoloji (ekofeminizm nəzəriyyəsi), hüquqi və siyasi məsələlərin həlli, qadın məsələsinin həllindən və gender maarifçiliyindən keçir. Bu beynəlxalq tədbirlərin nəticələrinə görə dünya dövlətləri insan hüquqlarına hörmət edərək öz xarici və daxili siyasətlərinə gender ölçüsündən yanaşmalı və onun əsas prinsiplərini yerinə yetirməlidirlər. Pekin forumunda Azərbaycan hökuməti "Qadınlara münasibətdə bütün ayrıseçkilik formalarının ləğvi haqqında" (CEDAW) BMT Konvensiyasını təsdiq etdi. 1995-ci ildə qəbul olunmuş ilk dövlət konstitusiyası da bu siyasətin gerçəkləşməsinə şərait yaratdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Qürur hissi ilə qeyd etmək istəyirəm ki, Şərq qadınları arasında mədəniyyətin və incəsənətin, elmin və texnikanın ayrı-ayrı sahələrində ilk addımlar da bizim ölkənin qadınları tərəfindən atılmışdır".

Azərbaycanda gender problemlərinin sosioloji və sosial-fəlsəfi aspektlərdən öyrənilməsi problemlərin səviyyəsini və onları doğuran səbəblərin müəyyən edilməsini təmin edir. Bu kimi tədqiqatların nəticələri dövlət tərəfindən müəyyən tədbirlərin həyata keçirilməsinə şərait yaradır. Bu tədqiqiatlar dolayı yolla ölkədə vətəndaş cəmiyyətinin qurulmasına və demokratiyanın inkişafına təsir göstərir.

Azərbaycanda ən böyük dəyərlərdən biri ailə institutudur. Feminizmin ailəni inkar edən nəzəriyyələri milli dövlətçiliyin inkişafına tərs mütənasibdir. Lakin gender tədqiqatlarında ailə məsuliyyətinin bərabər bölüşdürülməsi ideyası ailənin və cəmiyyətin inkişafına müsbət təsir edən amillərdəndir. Bizim bu sahədə apardığımız tədqiqatlar milli dəyərlərlə gender meyarları arasında otra məxrəcin tapılmasına

xidmət etmişdir. Bu ölkədə həm ailə institutunun, həm də gender meyarlarının qarşılıqlı şəkildə inkişafına şərait yaradır.

Azərbaycanda qadınların bir çox sahələrdə az təmsil olunmasına təsir edən bir çox stereotiplərin, sosial-iqtisadi problemlərin müəyyənləşdirilməsi və onların aradan qaldırılma yolları barədə müəyyən tövsiyələrin verilməsi, cəmiyyətdə gender bərabərliyinin təmin olunmasına və ölkənin dünya mədəniyyətinə inteqrasiyasına yardım edir. Çünki gender bərabərliyi hər bir ölkənin vətəndaş cəmiyyəti, demokratiya və multikulturalizm istiqamətində inkişafının göstəricisidir. Bu sahədə aparılan tədqiqatlar cəmiyyətin müvafiq istiqamətlərdə inkişafına təsir göstərir.

Dövrün tələblərinə uyğun olaraq müasir təhsil və tərbiyə problemlərinin araşdırılması və tətbiqi milli inkişafın zəruri məsələlərindəndir. Xüsusilə, müasir təhsil və tərbiyənin gender meyarları çərçivəsində reallaşdığını nəzərə alsaq, bu sahədə aparılan tədqiqatların nə qədər önəmli olduğunu anlaya bilərik. Şəxsiyyəti formalaşdıran təlim-tərbiyə məsələlərində gender meyarlarının nəzərə alınmaması, müasir şəxsiyyətin yetişdirilməsində böyük problemlər yaradır. Onların aradan qaldırılması üçün postneoklassik gender sosiallaşması və pedaqogikası məsələlərinin araşdırılması zəruridir. Çünki bu sahəni araşdırmadan təhsil və tərbiyə sahəsində, həmçinin cəmiyyətdə gender bərabərliyini təmin etmək mümkün deyildir.

İslam dəyərləri Azərbaycan xalqının həyat tərzində və ictimai şüurunda öz əksini tapmışdır. Lakin dini maarifçiliyin aşağı səviyyədə olması bəzən gender ideyalarının yayılmasına maneçilik törədir. Bu stereotiplərin aradan qaldırılması üçün hər iki istiqamətdə biliyi olan tədqiqatçılar din və gender münasibətləri sahəsində tədqiqatlar aparmalı və bu sahədə kəsişən məqamları ortaya qoymalıdırlar. Bu tədqiqatlar cəmiyyətin daxilində yaranan sosial münaqişələrin azalmasına və cəmiyyətin inkişafını təmin edən mənəvi birliyin əldə olunmasına şərait yaradar.

Bü gün KİV ictimai şüuru yönləndirən əsas təsir vasitəsidir. Lakin araşdırmalar göstərir ki, KİV-də həyata keçirilən gender layihələri, televiziya verilişləri, reklamlar əksər hallarda gender bərabərliyini təhrif edirlər. Bu isə cəmiyyətdə gender barədə yanlış təsəvvürlərin yaranmasına və ona qarşı əks təsirin formalaşmasına şərait yaradır. KİV-də gender məsələlərinin araşdırılması və əldə olunan nəzəri biliklərin

praktikada tətbiqi mövcud problemlərin aradan qaldırılmasına yardım edə bilər. Bu isə, öz növbəsində cəmiyyətdə gender meyarlarının rellaşmasına mane olan müəyyən stereotiplərin aradan qaldırılmasına və cəmiyyətin demokratik inkişafına müsbət təsir göstərər.

**Problemin işlənmə dərəcəsi.** Qərb ölkələrində feminizm və gender tədqiqatları XX əsrin ortalarından başlayaraq əsas postneoklassik nəzəriyyələrdən biri kimi meydana çıxdı. Qərbdə feminizm nəzəriyyəsinin və genderşünaslığın elmi-fəlsəfi əsasları formalaşdı. Bu sahədə görkəmli tədqiqatçılara Robert Stoller, Ann Oakley, Adrienna Riç, Marqaret Etvud, Karen Xorni, Klara Tompson, Betti Fridan, Keyt Millet, Culiet Mitçel, Nensi Çodorou, Ursula Kinq, Haidi Hartman, Elis Rossi, Canet Riçards, Süzan Okin, Natali Blüston, Kristina Delfi, Sulamif Fayerston, Meri Deyli, Katerin Makkinnon, Simon de Bovuar, Toril Moy, Monika Plaza, Monika Vittiq, Alisa Jardin, Yuliy Kristeva, Elen Siksu, Lüsi İriqarey, Rozi Braydotti, Cudit Batler və başqalarını aid etmək olar. Tədqiqat işimizdə (xüsusilə, birinci fəsildə) bu müəlliflərin əsərlərinə, fikirlərinə istinad olunmuş və onların fikirləri təhlil olunaraq münasibət bildirilmişdir.

Feminizm nəzəriyyələri postsovet ölkələrinə, həmçinin Azərbaycana əsasən sovet dövlətinin süqutundan sonra ayaq açdı. 1997-1998-ci illərdən başlayaraq Azərbaycanda liberal gender tədqiqatlarının və feminizm ideyalarının yayılması beynəlxalq donor təşkilatlarının maddi və mənəvi mənafeyinə uyğun gəlirdi. Buna görə də, əsasən, xarici fondların yardımı ilə Azərbaycanda 68 QHT genderlə bağlı 262 layihə həyata keçirdi [177]. Çünki 1998-ci ildə Azərbaycanda ilk dəfə QHT-nın fəaliyyətini rəsmiləşdirən "Qrantlar haqqında" qanun qəbul edilmişdi. Azərbaycanda gender maarifçiliyi xüsusilə, "Açıq Cəmiyyət" İnstitutunun (Soros Fondu), həmçinin BMT-nın İnkişaf Proqramı (UNDP), Uşaq Fondu (UNİCEF) Qadınlar üçün İnkişaf Fondu (UNIFEM), ISAR, «Avroasiya» kimi beynəlxalq fondların maliyyə yardımı ilə inkişaf etdirilməyə başladı. Lakin sonrakı illərdə (2007-2008) Azərbaycanda QHT-lərə dövlət dəstəyi genişlənmişdir.

XX əsrin sonunda dünyada gender məsələləri ilə məşğul olan ciddi tədqiqat mərkəzləri artıq formalaşmışdı. Azərbaycanda da 1998-ci ildən sonra beynəlxalq və

yerli layihələrin gerçəkləşməsi praktikası əsasında belə nəzəri-praktiki tədqiqat mərkəzləri tədricən formalaşırdı. Qadınlar üçün İnkişaf Fondunun (UNİFEM) Cənubi Qafqazın hər üç ölkəsində 2001-2006 illərdə Gülşən Paşayevanın rəhbərliyi ilə "Qadınlar Cənubi Qafqazda münaqişələrin qarşısının alınması və sülh yaradılması uğrunda" adlı ikinci regional proqramı, 1997-ci ildən Azərbaycanda BMT-nin "Gender inkişafda" proqramı çərçivəsində bir çox gender layihələri həyata keçirilmişdir (koordinator R.İbrahimbəyova). Həmçinin bu və ya digər proqramlar çərçivəsində 40-dan çox QHT və mərkəzlər, partiyalar yanında qadın problemləri üzrə yaradılan komissiyalar müxtəlif layihələrin gerçəkləşməsi sahəsində fəaliyyət göstərmişlər [9, s.47].

1998-ci ildən AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun "Müasir fəlsəfi problemlər" (şöbənin əvvəlki adı: "Fəlsəfədə ən yeni istiqamətlər və gender tədqiqatları") şöbəsi Azərbaycanda genderşünaslığın yayılmasında ilk məktəb rolunu oynamışdır. Bu məktəbin yaranmasında Əli Abasov, Zümrüd Quluzadə, İlham Məmmədzadə, Rəna İbrahimbəyova, Rəna Mirzəzadə, Lalə Mövsümova və başqaları xüsusi rol oynamışlar.[1] "Müasir fəlsəfi problemlər" şöbəsinin M.Mahmudov, R.Məmmədov, H.Abdallı, M.Nəcəfli, Z. Şabanov, N. Salmanova kimi əməkdaşlarının səyi nəticəsində Azərbaycanda qadın problemləri və gender mövzusunda bir çox konfranslar təşkil olunmuş, "Genderşünaslıq" jurnalı (2000-ci il ərzində) və "Gender kitabxanası" adlı seriyadan 20-dən çox kitab nəşr olunmuş, gender təhsili və maarifçiliyi istiqamətində bir sıra nəzəri-praktik gender layihələri həyata keçirilmişdir. AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun əksər şöbələrində

[1] Z.Quluzadənin "Azərbaycanda gender" (2003) monoqrafiyası, Ə.Abasov, R. Mirzəzadənin "Gender tədqiqatları" (dərs vəsaiti 1999), "Genderə giriş" (dərs vəsaiti 2004) və "Azərbaycanın gender xəritələri" (2007), R. Mirzəzadənin "Gender və Feminizm" (2002) və başqa əsərləri. İlk dəfə Azərbaycanda Z.Quluzadə tərəfindən gender tədqiqinin metodologiyası və metodikası işlənib hazırlanmışdır. Z.Quluzadə "Azərbaycanda gender" (2003-cü il) monoqrafiyasında Azərbaycan ictimai fikir tarixində gender mədəniyyətinin mərhələli inkişafını fundamental şəkildə tədqiq edir. Ə.Abasov R.Mirzəzadə ilə birlikdə genderin nəzəri əsaslarını tədqiq edən "Gender tədqiqatları", "Genderə giriş" və Azərbaycanda gender problemlərinin bölgə, şəhər və kəndlərə görə öyrənilməsini təmin edən "Azərbaycanın gender xəritələri" əsərlərinin və onlarla dəyərli elmi məqalələrin müəllifidir. Ə.Abasov əsərlərində İslam dininin, XX əsrin əvvəllərində neft sənayesinin inkişafı ilə Bakı şəhərinin beynəlmiləl olmasının, sovet mədəniyyətinin, həm də Azərbaycanın polietnik, polikonfesional xarakterli olmasının təsiri ilə Azərbaycanda ənənəvi gender stereotiplərinin formalaşdığını qeyd edir və cəmiyyətdəki, mədəniyyətdəki fərqlilikləri cinslərin bioloji fərqliliyi ilə əlaqələndirməyə qarşı çıxır [1,s. 27-28].

gender tədqiqatlarının müxtəlif aspektlərində tədqiqat işləri aparılır. Görülən bu işlər Azərbaycanda gender maarifçiliyinin inkişafına öz töhvəsini vermişdir.

Adları çəkilən bu və ya digər tədqiqatçıların gender təhsili sahəsində də böyük xidmətləri olmuşdur. Bir çox universitetlərdə (BDU, "Qərb" və "Azərbaycan" Universitetləri) gender məsələləri ilə bağlı kafedralar açılmış (BDU "Gender və psixologiya" kafedrası) və gender üzrə ümumi kurs, gender iqtisadiyyatı, gender siyasəti, gender fəlsəfəsi, gender sosiologiyası, gender psixologiyası bir fənn kimi tədris olunmuş və gender üzrə ilk tədris proqramı R.İbrahimbəyova (psixologiya və gender), Z.Quluzadə, R.Mirzəzadə, Ə.Abasov, S.Adıgözəlova və sonralar Qərb Universitetinin "Gender Tədqiqatları Mərkəzi" tərəfindən hazırlanaraq dərc edilmişdir.[2]

İndi AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun əksər şöbələrində gender tədqiqatlarının müxtəlif aspektlərində tədqiqat işləri aparılır. Görülən bu işlər Azərbaycanda gender maarifçiliyinin inkişafına öz töhvəsini vermişdir. Cəmiyyətdə baş verən sosial-mədəni və iqtisadi dəyişikliklərlə yanaşı, gender maarifçiliyi sahəsində həyata keçirilən nəzəri-praktiki işlər ölkədə liberalizm dəyərlərinin inkişafına və vətəndaş cəmiyyətinin formalaşmasına tədricən öz təsirini göstərmiş və göstərməkdədir.

Azərbaycanda gender sahəsində yerli mütəxəssislərin meydana çıxmasına və yerli şəraitə uyğun olan tədqiqatların aparılmasına ehtiyac vardır. Bu gün bu sahədə nəzəri-praktik fəaliyyət göstərən təşkilatlar və şəxslər az deyildir. Lakin ciddi tədqiqatlara çox az təsadüf olunur. Çünki adətən bu sahədə ortaya çıxan bəzi məqalələr, əsərlər Avropa və rus dillərindən edilən tərcümə və ümumiləşdirmələr nəticəsində ortaya çıxmışdır. Bu əsərlər cəmiyyətin öz daxili sosiomədəni problemlərindən irəli gələn gender problemlərini əks etdirmək əvəzinə, başqa cəmiyyətlərdə mövcud olan gender problemlərini təqdim edirlər. Buna görə də, onlar özünü həmişə doğrultmurlar. Lakin bunlarla yanaşı Azərbaycanda gender problemlərinin sosial-mədəni mənşəyini, tarix, milli şüur, etnokonfesional əsaslarını

---

[2] Bax: jurnal "Genderologiya". 2002-ci ildə Qərb Universitetinin Gender Araşdırmaları Mərkəzi "Gender: tarix, cəmiyyət, mədəniyyət" gender təlimi üzrə metodiki vəsaitini nəşr etdirmişdir.

əks etdirən tədqiqatlar da mövcuddur. Biz bu tədqiqat və tədqiqatçıların adlarını artıq qismən qeyd etdik. İndi bu tədqiqatların əsas mahiyyətinin nədən ibarət olduğunu da təhlil etməyə çalışacağıq.

Azərbaycanda feminizmin nəzəri-ideoloji konsepsiyalarını sosial-fəlsəfi, fəlsəfə-tarixi, siyasi-hüquqi aspektlərdən tədqiq edən və bu sahədə ilk doktorluq dissertasiyasını yazan R.Mirzəzadə radikal feminizmin Qərb cəmiyyətində meydana çıxmasının səbəbini Qərb ictimai fikir tarixindəki ifrat patriarxal gender stereotiplərinin təbii nəticəsi kimi dəyərləndirir və belə nəticəyə gəlir ki, müsəlman-türk patriarxal mədəniyyətində və İslam dinində mülayim patriarxal gender stereotiplərinin mövcudluğu, radikal feminizmin meydana çıxmasına şərait yaratmamış, xüsusilə Azərbaycan mədəniyyətinin sovet dövrü, ənənəvi patriarxal dəyərlərin mülayim xarakter almasına səbəb olmuşdur. R.Mirzəzadə "Gender və Feminizm" əsərində Qərb-Şərq və Azərbaycan ictimai fikir tarixində gender ideyalarını müqayisəli şəkildə təhlil edərək, Azərbaycan xalqının özünəməxsus gender stereotiplərinin olduğunu ortaya qoymuş və problemin həlli ilə bağlı maraqlı təkliflər, tövsiyələr irəli sürmüşdür. Həmçinin Azərbaycanda qadın və gender tədqiqatları ilə əlaqədar dəyərli məqalə və əsərlər yazan müəlliflərdən N. Mehdi, L.Mövsümova, R.Əzimova və başqalarının adlarını çəkə bilərik.

**Tədqiqatın obyekti və predmeti.** Müasir dövrdə Azərbaycanın sosial-mədəni həyatının gender aspektləri tədqiqatın obyekti, predmeti isə nəzəri və praktiki məsələləridir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın əsas məqsədi Azərbaycanın müasir sosial-mədəni həyatını gender sosiologiyası və sosial-fəlsəfi kontekstdə sistemli şəkildə tədqiq etmək, tədqiqat nəticəsində meydana çıxan problemlərin səbəblərini müəyyənləşdirmək və onların həlli yollarını göstərməkdir. Bu məqsədin həyata keçirilməsi bir sıra vəzifələrin yerinə yetirilməsini tələb edir:

- Azərbaycanın sosial-mədəni həyatının gender aspektlərinin sosial-fəlsəfi mahiyyətinin əsas prinsiplərini təhlil etmək;

•müasir dövrdə Azərbaycanın sosial-mədəni həyatının gender aspektlərinin metodoloji mahiyyətini və tarixi-metodoloji əsaslarını araşdırmaq;

•cəmiyyətin sosial-mədəni həyatının bütün sahələrini gender bərabərliyi prinsipindən təhlil etmək və problemin sosial-fəlsəfi mahiyyətini ortaya qoymaq;

•Azərbaycanın sosial-mədəni həyatının gender aspektlərinin sosial-fəlsəfi tədqiqinə aid alternativ nəzəriyyələrin müqayisəli təhlili əsasında ümumi nəticənin əldə olunmasına səy göstərmək.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya Azərbaycanın müasir sosial-mədəni həyatının nəzəri-praktiki sahələrini gender sosiologiyası və sosial-fəlsəfi baxımından sistemli şəkildə tədqiq edən elmi-tədqiqat işi hesab edilə bilər. Problemin elmi yeniliyi aşağıdakı müddəalarda öz əksini tapmışdır:

- Postneoklassik feminizm və gender nəzəriyyələri ilə Azərbaycanın milli-mənəvi dəyərləri müqayisəli təhlil metodu əsasında araşdırılmış, gender bərabərsizliyinə yanlız sosiomədəni stereotiplərin deyil, həmçinin sosiobioloji amilllərin də təsir etdiyi əsaslandırılmış və gender sosiallaşması və təhsili məsələlərinin bəzi müddəalarına tənqidi münasibət bildirilmiş, bu sahədə ənənə ilə müasirliyin pozitiv dəyərlərinin sinkretik formalarının münasibliyi irəli sürülmüşdür.
- Azərbaycan dili gender linqivistikası metodları əsasında araşdırılmış və gender bərabərsizliyinin dilimizin qrammatik strukturunda deyil, əsasən semantikasında əks olunduğu üzə çıxarılmışdır.
- Postneoklassik feminizm ilə İslam feminizminin ideyaları arasında müqayisəli təhlil aparılaraq, onların Azərbaycan cəmiyyətinə təsir edən müsbət və mənfi siyasi-ideoloji istiqamətlərinin olduğu müəyyənləşdirilmiş eyni zamanda Azərbaycanın KİV-i gender aspektindən araşdırılmışdır.
- Azərbaycanda ailə institutu müasir feminizm və gender nəzəriyyələri baxımından tədqiq olunmuş, həmçinin bütün sosial fəaliyyət sahələri gender sosiologiyası metodları ilə araşdırılmış və ortaya çıxan gender

asimmmetriyası hallarının həm stereotiplərlə, həm də sosial-iqtisadi problemlərlə bağlılığı ortaya çıxmışdır.

**Tədqiqatın ideya-nəzəri və metodoloji mənbələri** sosioloq, genderşünas, filosof, psixoloq, ictimai fikir nümayəndələrinin əsərləridir. Dissertasiyada müqayisəli təhlil, tarixilik, hermenevtika, deduksiya, induksiya, sistemli yanaşma metodlarından istifadə olunmuşdur. Dissertasiyada ənənəvi klassik və müasir postneoklassik yanaşmalara tənqidi münasibət bildirilmişdir.

**İşin abrobasiyası**. Dissertasiya Xəzər Universitetində yerinə yetirilmişdir.

Tədqiqatın əsas məzmunu müəllifin elmi məqalələrində (o cümlədən, xaricdə çap olunmuş məqalələrin sayı), habelə respublika və beynəlxalq səviyyəli elmi-nəzəri konfranslardakı çıxışlarda öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Tədqiqat işi giriş, üç fəsil, yeddi yarımfəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavədən ibarətdir.

# I FƏSİL. SOSIAL FƏLSƏFƏDƏ GENDER PROBLEMİNİN NƏZƏRİ-METODOLOJİ XÜSUSİYYƏTLƏRİ

## 1.1. Feminizm və gender tədqiqatlarının nəzəri-metodoloji prinsipləri

1968-ci ildə ABŞ-da Robert Stollerin ‘Sex and Gender’ (Cinsiyyət və Gender) əsərində qadın və kişinin sosial durumlarını bir-birindən fərqləndirmək üçün ilk dəfə gender anlayışı ortaya qoyuldu. İngiltərədə Ann Oakley 1972-ci ildə ‘Sex, Gender and Society’ (Cinsiyyət, gender və cəmiyyət) adlı əsərində isə cinsiyyət və şəxsiyyət, cinsiyyət və zəka arasında əlaqələri araşdıraraq gender rollarının öyrənilməsi metodlarını müəyyənləşdirdi [67, s.33].

Gender terminoloji kontekstdə deyil, ideya kimi ilk dəfə 1949-cu ildə Simon de Bovuarın “İkinci cins” əsərində səslənən “Qadın doğulmurlar, qadın olurlar” şüarında səsləndi. Gender anlayışının ortaya çıxması cinslərə biodetermenist yanaşmanı kölgədə qoydu və feminist tədqiqatçılara öz fikirlərini daha aydın şəkildə ifadə etməyə imkan verdi. [70,s.55]. Çünki cinslərin sosial rol və funksiyalarını ifadə edən gender anlayışı, artıq bioloji cinsləri bildirən cinsiyyət (sex) anlayışından ayrıldı. Bu elmə gətirilən yeni terminalogiya olmaqla yanaşı, həm də feminist nəzəriyyələrin ideyalarını əks etdirən yeni bir metod və yeni sosial elm sahəsi oldu.

Gender nəzəriyyələrinin təməlində Qərb feminizminin uzun müddət qadın hüquqlarının təmin olunması istiqamətində apardığı sosial-siyasi hərəkatlar və ideya-nəzəri araşdırmalar (sosial-fəlsəfi, kulturoloji, sosioloji, psixoloji) dayanırsa, onların ideya bazası da ictimai fikir tarixində qadın və kişilərə həsr olunan sosial-fəlsəfi ideyalar təşkil edir. İctimai fikir tarixində (fəlsəfi, sosioloji və psixoloji tədqiqatlarda) qadın və kişi münasibətləri, onların cəmiyyətdə yeri və rolları barədə irəli sürülən fikirlərə və cəmiyyətdə qadınlara qarşı tarixi ayrıseçkilik münasibətlərinə cavab olaraq feminizmin nəzəri əsasları və ictimai strukturları formalaşmışdır.

Ənənəvi patriarxal dünyagörüşü sistemində mövcud olan anlayış, norma, simvol və prinsiplərə tənqidi münasibət üzərində yaranan feminizm nəzəriyyələri yeni postmodernist dünyagörüşünün, postneoklassik nəzəriyyələrin formalaşmasına təsir göstərmişdir. Çünki feminizm cəmiyyətin, mədəniyyətin, ailənin tədqiqinə

metodoloji olaraq cinslərin (qadın və kişi) tənqidi təhlilindən başlayır. Buna görə də müasir feminizmin ənənələrə münasibəti əvvəlki yanaşmalardan fərqlidir.

Lakin feminizm cərəyanlarının öz aralarında da problemlərə fərqli yanaşmalar müşahidə olunur. Feministlər özlərinin radikal, mülayim, siyasi-ideoloji, elmi-nəzəri yanaşmalarına görə fərqli cəbhələrə bölünmüş (radikal feminizm, psixoanalitik feminizm, liberal feminizm, sosialist-marksist feminizm, postmodern feminizm və s.) və vahid bir cəbhədə birləşə bilməmişlər [76,s. 233].

Ənənəvi cəmiyyətdə və ənənəvi sosial elmlər çərçivəsində aksioma kimi dəyərləndirilən bir çox anlayışlara yeni məna gətirən feminizm nəzəriyyələri əksər sosial elm sahələrini düşünməyə vadar edən bir çox sual və problemlər ortaya qoydular. Kişilər və qadınlar arasındakı fərqlər onların fiziobioloji təbiətindən, yoxsa yaşadıqları cəmiyyətin sosiomədəni dəyərlərindən irəli gəlir? Qadınların dərzi, müəllimə, şəfqət bacısı, dayə olmaları doğrudanmı onların təbiətindən və ya öz təbii seçimlərindən irəli gəlir? Onların qayğıkeş, fədakar, həssas, mərhəmətli olmaları təbiətlərindənmi irəli gəlir? Kişilərin siyasətçi, döyüşçü, idarəçi, fəal, ağıllı, davakar olmaları doğrudanmı onların təbiətindən irəli gəlir? Kişilər daşıdıqları keyfiyyətlərə görəmi cəmiyyəti idarə edirlər? Kişilərin işləyib pul qazanması, qadınların isə ev işləri və uşaqlara baxmaqla məşğul olmaları onların təbiətlərindənmi irəli gəlir, yoxsa bunlar təbiətin deyil, cəmiyyət və ailənin onlara mədəni ənənələr vasitəsilə təlqin etdiyi dəyər və normalardır?

Feministlərin ortaya qoyduğu bu fəlsəfi suallara müasir sosial elmlər tutarlı dəlillərlə cavab verməli idilər. Çünki ənənəvi klassik və neoklassik sosial elm sahələrində çalışan alimlər bu cür sualları qarşılarına tədqiqat obyekti kimi qoymamış və birbaşa qadınların sosial durumu ilə bağlı tədqiqat işləri aparmamışlar. Buna görə də ənənəvi bilik sahələri, xüsusilə ifrat rasionalizm və intellektual ayrıseçkiliyi mütləqləşdirən pozitivizm fəlsəfəsi qeyri-obyektivlikdə ittiham olunaraq feministlər tərəfindən ciddi tənqidə məruz qalmışdır [87,s.133]. Onlar elmdə olan qeyri-obyektivliyi, onun siyasi hakimiyyətə tabe olmasından daha çox, elmin sosial hadisələri qiymətləndirmədə ənənəvi patriarxal şüurdan xilas ola bilməməsi ilə əlaqələndirirlər. Yəni kişi alimlərin qadın məsələsinə münasibəti, onların patriarxal

şüur səviyyəsi ilə müəyyənləşir. Buna görə də, feministlər qadın məsələsi ilə bağlı tədqiqat işi aparanların və bu işlərə qiymət verənlərin qadın olmasını zəruri hesab edir və qadınların bu sahədə uğur əldə etməsini, onların şüurunun ənənəvi patriarxal stereotiplərdən azad olmasında görürlər [122,s.121].

Feminizm nəzəriyyələri qadının cəmiyyətdə daima kölə durumuna salınmasının və ayrıseçkiliyə məruz qalmasının əsas səbəbini patriarxal sosial-mədəni institutların varlığı və qadınların biopsixoloji təbiəti ilə əlaqələndirirlər [142,s.123]. Bunu təsdiq edən nəzəriyyələrin tezislərini aşağıdakı kimi səciyyələndirmək olar:

1. Qadının köləliyi bioloji varlığına bağlıdır.
2. Qadın bioloji olaraq yüksək mənəvi keyfiyyətlərə malik olan varlıqdır.
3. Cinslərin sosial rol və funksiyaları onların sərbəst seçiminə bağlıdır (gender).
4. Ailə qadını istismar edən ilk patriarxal sosial institutdur.
5. Cəmiyyətin ənənəvi sosial-mədəni institutları qadınları ayrıseçkiliyə məruz qoymuş və dövlət patriarxal hakimiyyət forması kimi qadınları kölə durumuna salmışdır.
6. Din patriarxal institut kimi kişilərin qadınlar üzərində hakimiyyətini müdafiə edir.
7. Dil patriarxal mədəniyyətin amili kimi, qadının özünü ifadə etmək imkanlarını məhdudlaşdırır.

Qadının kölə durumuna düşmə səbəbləri isə əsas nəzəri mübahisələrə səbəb olmuşdur. Bununla bağlı bir çox fərqli nəzəriyyələr ortaya çıxmışdır. Qadının köləliyinin əsasən ailə, cəmiyyət, dövlət, din kimi sosial-mədəni patriarxal institutlardan irəli gəlməsi ilə bağlı nəzəriyyələr onları birləşdirən ümumi cəhətdir. Lakin köləliyin qadının bioloji varlığından və ya sosial varlıqdan irəli gəlməsini ilə bağlı nəzəriyyələr bir-birindən fərqlidir.

Cinslərin biopsixoloji fərqliliklərinin, onların sosial rol və statuslarının, həmçinin gender rolları vasitəsilə formalaşan hakimiyyət və üstünlüklərinin müəyyənləşməsindən ibarət olan genderin nəzəri-metodoloji əsasları üç əsas meyarı ehtiva edir: fərdi (gender kimliyi); sosial struktur (cinslərin müxtəlif sosial sahələrdə

tutduqları mövqelər) və simvolik (qadın və kişilərin tarixi-mədəni obrazları). Genderin bu meyarları üç yanaşmanı ortaya qoymuşdur:

1. Gender təhlilində mədəni metafora
2. Gender təhlilində biodetermenist nəzəriyyələr
3. Sosial konsruksiya nəzəriyyələri və gender stratifikasiyası [68,s.16-17].

*1. Gender təhlilində mədəni metafora*

Bu yanaşmalarda qadın və kişi başlanğıcları mədəni-simvolik elementlər kimi qəbul olunur. Cinslərin sosial xüsusiyyət və fərqləri tarixi-mədəni, etnomədəni amillərlə, gender rolları da mədəni stereotip və simvollarla müəyyənləşir. Onlar qadınları patriarxal mədəniyyətə itaətə dəvət edir və onların bioloji təbiətini mədəni metafora ilə dəyişikliyə məruz qoyur. Yəni müxtəlif obrazlar, adət-ənənələr, davranışlar, ideologiyalar, dəyərlər və normalar bu mədəni metaforanın yaranmasına təsir edir [143,s.122].

Feministlərin ənənəvi sosial nəzəriyyələrə tənqidi münasibəti nəticəsində gender nəzəriyyələri meydana çıxdı. Gender tədqiqatları öncə Qərb mədəniyyətinin və xristianlığın tənqidi üzərində inkişaf etməyə başladı. Feministlərin “insan” məfhumu barədə Qərb mədəniyyəti tarixində formalaşan stereotipləri dağıtması sosial elmlər sahəsində ən böyük hadisə olmuşdur. Feminist araşdırmaların nəticəsi göstərmişdir ki, Qərb mədəniyyətində “insan” məfhumu (man) adı altında daima “kişi” cinsi (man) nəzərdə tutulmuş, qadın (woman) isə kişinin mənfi tərəflərini əks etdirən bir hissə kimi tanınmışdır [72,s.780]. Antik mədəniyyətin, yunan miflərinin, orta və yeni dövr Qərb dünyagörüşünün araşdırılması bir daha bunun gerçək olduğunu təsdiq etmişdir. Məlum olmuşdur ki, Qərbin tarixi-mədəni dünyagörüşündə kişi – insan, işıq, qanun, ədalət, ağıl, ruh və başqa bu kimi müsbət qiymətləndirilən anlayışlarla eyniləşdirildiyi halda, qadın – zülmət, xaos, duyğu, nəfs və başqa bu kimi mənfi qiymətləndirilən anlayışlarla eyniləşdirilmişdir. Məhz bu cür yanaşma Qərb təfəkkürünün “mən – qeyri-mən”, “biz-onlar” dualizmi üzərində formalaşmasına səbəb olmuşdur. Feminizmin Qərbdə ortaya çıxmasının əsas səbəblərindən biri də bu olmuşdur.

Həkim psixiatrlar arasında “sağlam qadın”, “sağlam kişi” və “sağlam insan” mental əlamətlərini müəyyənləşdirməklə bağlı sosial-psixoloji araşdırma aparılmış və belə bir nəticə ortaya çıxmışdır:

- Sağlam qadın - həyəcanlılıq, asılılıq, passivlik, kişilərin xoşuna gəlmək, ailə və uşağa bağlılıq, fədakarlıq və s.
- Sağlam kişi - fəallıq, müstəqillik, ağıllılıq, fərdilik, sosial məqsədyönlülük və s.
- Sağlam insan-fəallıq, müstəqillik, ağıllılıq, fərdilik, sosial məqsədyönlülük və s [77,s. 233].

Göründüyü kimi “sağlam kişi” və “sağlam insan” mental əlamətləri üst-üstə düşmüş, qadın isə “sağlam insan” mental əlamətlərindən kənarda qalmışdır. Buna əsasən Sulamif Fayerston demişdir: “Təbiət qadını kişidən, cəmiyyət isə onu insandan fərqli etmişdir” [40,s.184]. Genderşünas Əli Abasov haqlı olaraq qeyd edir ki, “Gender – yanlız yeni metodologiya deyil, həmçinin yeni dünyagörüşü, daha dəqiq desək, mücərrəd insan məfhumundan imtina edən yeni, daha dolğun və obyektiv fəlsəfədir” [21,s.21].

Feminist tədqiqatçılar sonralar gender metodları ilə Şərq mədəniyyətlərini də araşdırmış və eyni halların digər mədəniyyətlərdə də mövcud olduğunu müəyyənləşdirmişlər. Lakin Şərq təfəkkürü Qərbdə olduğu qədər kəskin dixotomiya üzərində qurulmamışdır. Araşdırmalar belə bir ümumi nəticəyə gəlməyə əsas vermişdir ki, ilk quldarlıq dövlətlərinin yaranması dövründən bu günə qədər bütün sosial-mədəni sistemlər bu və ya digər dərəcədə cinslərin dixotomiyası üzərində formalaşmışdır. Məhz bu sistemlərdə ən çox əzilən və kölə vəziyyətinə gətirilən qadınlar olmuşlar. Gender tədqiqatçıları bu sistemləri yaradan və başında dayananların kişilər olduğunu əsas götürərək onları *patriarxal sistemlər* adlandırmış və onu qadın hüquqlarının təmin olunmasında ən başlıca maneə hesab etmişlər [81,s. 233].

P*atriarxal sistem* həm şüuraltı səviyyədə, həm də sosial-mədəni institutlarda əks olunan stereotiplər vasitəsilə öz varlığını davam etdirir. Gender problemlərinin həlli isə, həm psixoloji, həm də sosial-mədəni institutlarda olan maneələri aradan

qaldırmaqdan asılıdır. Bu isə həm nəzəri, həm də praktiki fəaliyyətin qarşılıqlı əlaqədə aparılmasını zəruri edir.

Mədəni feminizm tərəfdarlarından bir qismi cinsi fərqliliklərin yaradılışdan (bioloji) meydana çıxdığını, digərləri cəmiyyətin özünəməxsus tarixi inkişafından irəli gəldiyini, qadın xarakter və mədəniyyətinin kişilər tərəfindən istismar edilməsi nəticəsində yarandığını iddia edirlər. Bu fərqli yanaşmalar mədəni feministlərin fərqli qruplara bölünməsinə şərait yaratmışdır. Mədəni feminizm tərəfdarları daha çox qadını mənəvi bir varlıq kimi mədəniyyət tarixində və dinlərdə araşdırmağa üstünlük verirlər. Onlar xüsusilə ənənəvi patriarxal dinlər arasında daha çox xristianlıq və yəhudiliyi tənqid edirlər [145,s.233]. Onlar arasında qadın mənəviyyatına yüksək dəyər verən ekofeministlər də vardır. Bu qruplar arasında qadını ifadə edən yeni bir düşüncə və dil formalaşdırılmış, bütün dünya qadınlarını ortaq xüsusiyyətlərdə birləşdirən universal mədəniyyət ideyası ortaya qoyulmuşdur [165,s.101].

Gender rol və normaları universal xarakter daşımırlar. Yəni sosial baxımdan kişi və qadın olmaq onların təbii keyfiyyətləri ilə deyil, mədəni standartlara müvafiq olan gender rolları ilə bağlıdır. Gender mədəni metafora kimi sosial konstruksiyadır. Bu cinslərin biososial fərqlərini inkar etmir. Çünki burada əsas məsələ cinslərin fərqləri deyil, onların sosial və mədəni baxımdan qiymətləndirilməsidir.

*2. Gender təhlilində biodetermenist nəzəriyyələr*

Ənənəvi sosial elmlərdə cinslərin sosial rol və funksiyalarının bütün tarixi dövrlərdə onların fiziobioloji təbiətləri ilə birbaşa bağlı olduğu bir çox bioloji, genetik, psixoloji dəlillərlə əsaslandırılmışdır. Nəticədə, qadın və kişinin sosial bərabərsizliyini onların bioloji varlıqları ilə əlaqələndirən biodetermenist konsepsiyalar (U.Q.Spenser, Ç.Lombrozo, E. Dürkqeym, Z.Freyd, T.Parsons) meydana çıxmışdır. Bu konsepsiyalarda qadının ana, kişinin isə ailə təminatçısı rollarından imtina olunması qeyri-təbii hal kimi kimi dəyərləndirilir. Bu nəzəriyyələrdə bildirilir ki, kişi fiziki baxımdan güclü olduğu üçün evdən kənarda ailənin təminatı məsələsi ilə məşğul olmuş, qadın isə fiziki zəif olduğu üçün ev işlərinə təhkim olunmuşdur. Bu əmək bölgüsü özünü intellektual səviyyədə də göstərir. Bunun oğlan uşaqlarının riyaziyyat, fizika, kimya kimi elm sahələrində,

qızların isə ədəbiyyat, dil sahələrində uğur qazanmaları ilə təsdiq edildiyini vurğulamışlar. Feministlər isə bu biodetermenist konsepsiyalara qarşı çıxaraq, onları patriarxal düşüncə tərzinin məhsulu olduğunu irəli sürmüş və alternativ konsepsiyalar ortaya qoymuşlar [56,s.4-5].

Biodetermenist konsepsiyalar arasında Z.Freydin təhtəlşüur nəzəriyyəsi xüsusi yer tuturdu. Feminizmin nəzəri əsaslarına marksizm nəzəriyyəsi ilə yanaşı, Z. Freydin şüuraltı psixologiya təlimi də güclü təsir etmişdir. Feminist tədqiqatçıların bir qismi məhz bu nəzəriyyədə patriarxal sistemin mənşəyi ilə bağlı fikirləri qəbul edir (psixoanalitik feminizm), digərləri isə onun bir çox müddəaları ilə razılaşmırdılar [93,s. 122]. Feministlər bu nəzəriyyənin qadın və kişilərin intim təsəvvürlərinin formalaşması barədəki müddəalarına əsaslanaraq feminizmin yeni nəzəri cərəyanını (psixoanalitik feminizm) formalaşdırmışlar.

Qadın və kişinin sosial-mədəni rollarının bioloji təbiətlərindən (anatomiya insanın taleyidir) irəli gəldiyini sübut etməyə çalışan Z. Freyd, qadının sosial passivliyini, kişinin isə sosial aktivliyini cinsi mənsubiyyətlərinə bağlı olan qaçınılmaz bir hal kimi dəyərləndirir [141,s.383-385]. Feministlər arasında (radikal feministlər) Freydin biodetermenist yanaşmasını əsas prinsip kimi qəbul edərək, çıxış yolunu öz cinsi rol və funksiyalarından imtina etməkdə görürlər [140,s.122]. Sulamif Fayerston “bioloji inqilabın” həyata keçirilməsinin zəruri olduğunu irəli sürür. O, bioloji təkrar istehsal vasitələri üzərində nəzarətin qadınların əlinə keçməsi, cinsi rolların tədricən dəyişməsi (insanların süni yolla dünyaya gətirilməsi texnologiyasının inkişafı) nəticəsində patriarxal sinfi sistemin və reproduktiv-iqtisadi ittifaq olan bioloji ailənin ortadan qaldırılmasını, kişi və qadınların produktiv-reproduktiv rolları arasında fərqlərin silinməsini və nəhayət qadınların məzlum, kölə vəziyyətindən çıxmasını mümkün hesab edir. Onun fikrinə görə təsəvvür edilən utopik cəmiyyətdə kişilərin texnoloji və qadınların estetik mədəniyyətləri vəhdət tapacaqdır [138,s. 44-45].

Müəllifin tədqiqatları çoxlu mübahisələrə və elmdə artan bu diskussiyalar isə gender nəzəriyyələrinin meydana çıxmasına şərait yaratdı. Bir çox feministlər Sulamif Fayerstonun fikirlərini tənqid edərək bildirdilər ki, kişilər öz övladlarına nəzarət etmək və övlad dünyaya gətirmək prosesində iştirak etmək üçün qadınların

bədəninə nəzarət etməyə çalışırlar ki, bu da patriarxal müqavilənin ortaya çıxmasına səbəb olur (Meri Obreyn) və kişilərin yeni texnologiyalar vasitəsilə övlad dünyaya gətirmək prosesindən kənarlaşdırılması isə problemin həllinə deyil, yenidən qadın və onun bədəni üzərində yeni və daha neqativ patriarxal nəzarət formalarının ortaya çıxmasına, həmçinin qız uşaqlarının nəslinin kəsilməsinə şərait yaradar (Adrienna Riç, Andrea Dvorkin, Marqaret Etvud) [139,s. 67-68].

Qadının yumurta hüceyrələrinin xüsusi labaratoriyalarda dondurulub, sonradan şüşə borucuqlarda süni şəkildə mayalandırılmasına şərait yaradan yeni texnologiyalar, əslində, qadını öz övladına daha da yadlaşdıran bir texniki alətə çevirir. Son dövrlərin təcrübəsi göstərir ki, bu hallar cəmiyyət üçün ağır fəsadlarla nəticələnir. Azərbaycan statistikasında doğuşa qədərki mərhələdə cinsləri müəyyənləşdirən uzi aparatlarının cinslərarası balansı pozması, yəni qız övladlarının dünyaya gəlişinin qarşısını alması müəyyən olunmuşdur [190].

Feminizmdə psixoanalizə münasibət birmənalı deyildir. Betti Fridan, Keyt Millet, Culiet Mitçel qadının passiv bir başlanğıc kimi köləliyə məhkum olduğunu əsaslandırmağa çalışan Freydin mütləq biodetermenizmi ilə qəti razılaşmırlar. Lakin Freydin nəzəriyyəsini insan psixikasını və patriarxal mədəniyyəti təhlil etmək baxımından dəyərli olduğunu qəbul edirlər [131,s. 22]. Bütün kişilərin ana obrazına və qadının reproduktiv qabiliyyətinə münasibətdə qorxu konsepsiyasının dayandığını və bu qorxunun kişi patriarxal hakimiyyətinə, qadın köləliyinə şərait yaradan mədəni şüuru formalaşdırdığını irəli sürən psixoanalitik feminizm tədqiqatçıları (Alfred Adler, Karen Xorni, Klara Tompson) Freydin fatal biodetermenizmini təkzib edirlər və eyni zamanda cinsindən asılı olmayaraq şəxsiyyətin fəallıq, yaradıcılıq və mənlik şüurunun təbiət və mədəniyyətlə qarşılıqlı əlaqədə özünü göstərən gender ölçülərinə bağlı olduğunu sübut etməyə çalışırlar [108,s 34]. Bəzi tədqiqatçılar psixoanalitik feminizm tədqiqatçılarını həddən artıq psixi problemlərə aludəçilikdə və problemin sosial tərəflərini nəzərdən qaçırmaqda ittiham edərək, müəyyən sosial konstruksiyaların meydana çıxmasında ailə tipləri və gender təsəvvürlərinin rolu olduğunu, ailənin cəmiyyət tərəfindən formalaşdığını bildirirlər [169].

Göründüyü kimi, biodetermenizm konsepsiyaları qadını ya fatal köləliyə məhkum edir, ya da onun çıxış yolunu qadınlığın gender rollarının tamamilə ortadan qaldırılmasında görürlər (radikal feministlər). Radikal feministlərin ifrat biodetermenizm, essensializm, separatçılıq, avromərkəzçilik, universalizm, konservatizm və müstəmləkəçiliyə (kölə doğulan xalqlar kölə qalmalıdır) meylləri, onların qadın-kişi qarşıdurmasını mütləqləşdirməsi və çıxış yolunu fərqli separativ qadın mədəniyyəti sisteminin təşəkkülündə görməsi, onları siyasi baxımdan təhlükəli edir. Çünki onlar qadının bioloji baxımdan kölə olmağa məhkum olunduğunu əsas götürərək, hərdən onun azadlıq hüquqlarının təmin olunmasına, həmçinin sinfi, irqi, cinsi və mədəni fərqlərə qarşı çıxırlar [111,s. 22]. Lakin onların dedikləri kimi patriarxal mədəniyyət total xarakter daşısaydı, ümumiyyətlə onların mövcudiyyəti və azad fəaliyyəti sual altında qalardı.

Sulamif Fayerston "Cinslərin dialektikası" (1970) əsərində qadının tarixi məzlumluğunu bioloji qeyri-bərabərliyə bağlayır. O, marksizmin tarixi materializminin əsasında iqtisadi sinif deyil, cinsi sinif anlayışını bazis kimi qəbul edir, tarixi təkamülün təməlində istehsal deyil, qadınlar vasitəsilə həyata keçirilən təkrar istehsalın durduğunu və ilk əmək bölgüsü əsasında cəmiyyətin iki cinsi iqtisadi-mədəni sinifə bölündüyünü iddia edir. O, bu məsələlərə aydınlıq gətirmək üçün iqtisadi deyil, cinslərin bioloji təhlilini aparmağın, məsələlərin həlli üçün isə "bioloji inqilabın" həyata keçirilməsinin zəruri olduğunu irəli sürür [42,s. 183-184].

Qadınların sosial rolları ilə onun bioloji varlığı arasında təbii əlaqənin olduğunu irəli sürən feminist nəzəriyyələr də vardır. Qadınların kişilərlə fərqli mənəvi-əxlaqi keyfiyyətlərə malik olduğunu və ya onların kişilərdən üstün keyfiyyətlərə sahib olduğunu irəli sürən nəzəriyyələr də mövcuddur.

Qadınla bağlı insani xüsusiyyətlərə üstünlük verən, analıq, mənəviyyat və dil məsələlərinə yeni baxış gətirən "mədəni feminizm nəzəriyyəsi" (Nensi Çodorou, Ursula Kinq, Meri Deli) qadınların özünəməxsus müsbət mənəvi dəyərlərlə müşayiət olunan fərqli mədəniyyət sisteminin olduğunu, essensialistlər (Kerol Qilliqan) isə, bu mədəniyyətin kişilərin mədəniyyətindən daha mənəviyyatlı və daha humanist olduğunu irəli sürürlər (onlar fərqli qadın klubları, klinikaları, kooperativləri və s.

olmasını təklif edirlər), qadınların fəaliyyət sahələrinin özünəməxsus olduğunu və cəmiyyətin kökündən dəyişməsini əsas götürürlər [ 161,s.329]. Çünki onlar gender fərqliliklərinin dəyişməsinə inanmır və qadınlarla kişilərin fərqli olmasını müdafiə edirlər. Onlar arasında siyasi mübarizədə birgə iştirak edən xüsusi lezbiyan qruplar da mövcuddur ki, onlar məhz öz tutduqları yolun feminizmin ideyalarının yeganə gerçəkləşməsi yolu hesab edirlər.

Eko-feministlər qadınların təbii-bioloji keyfiyyətlərinn kişilərdən üstün olduğunu, onların təbiətlə sıx bağlı olduğunu və bundan irəli gələrək cəmiyyətin idarə olunmasında xüsusi rola malik olmalarını müdafiə edirlər (Mary Dally, Susan Griffin). Onlara görə qadına məxsus olan mərhəmət, fədakarlıq kimi xüsusiyyətlər patriarxal cəmiyyət tərəfindən mənfi qiymətləndirilmişdir. Məsələn, belə bir cəmiyyətdə hər hansı bir kişinin mərhəmətli olması, onun qadın təbiətli olmasına işarə verir [165,s.106].

Eko-feministler qadınların təbiətinin sosial olaraq formalaşdığını iddia edirlər (K.Gilligan). Qız uşaqları və qadınların emosional insani münasibətlərə daha çox önəm verdikləri, kişilərin isə ağıla, məntiq qaydalarına meyl etdikləri üçün insani münasibətlər qura bilməmələri, təcavüzə yönəlmələri qeyd olunur. Bu baxımdan kişilərin qurduğu mədəniyyətdə münaqişələrə səbəb olan nizamsızlıq, məhz qadın mədəniyyətinin vasitəsilə nizama qoyula bilər. Buna görə də, onlar müxtəlif ölkələrdə ekoloji problemlərin həllinə xüsusi diqqət yetirirlər [109,s. 66]. Ekologiya problemləri isə siyasi problemlərə münasibət bildirməyə vadar edir. Çünki təbii resursların istismarı və müstəmləkə ölkələrində bununla bağlı yaradılan ekoloji problemlər ekofeministlərin hərəkatına siyasi aktuallıq gətirir. Onlar antroposentrist (insanmərkəzli) dünya modelini ekoloji problemlərin əsas səbəbi hesab edirlər. Əgər bu modeldəki insanın kişi olduğu nəzərə alınsa, onda patriarxal düşüncənin dünya üçün təhlükəli olduğu üzə çıxar [152, s. 33].

Lakin bu cür mübahisələr bu günə qədər davam edir və öz həllini birmənalı şəkildə tapmamışdır. Feministlərin ortaya qoyduqları bu suallara ən doğru cavabı verən də yenə feminist tədqiqatçıları olmuşdur. Onlara görə bioloji cins ilə sosial cins arasında fərq cüzidir. Qadın bu gün, əsasən, uşaq dünyaya gətirməklə kişidən

fərqlənir. Çünki bu gün texnologiyanın inkişafı onlara (həm qadınlara, həm də kişilərə) fiziki baxımdan əksər işlərin öhdəsindən gəlməyə imkan verir. Əslində bizim davranışlarımız, yaşadığımız cəmiyyətin sosial-mədəni dəyərlərinin şüurumuzda və şüuraltı aləmimizdə yer alan stereotiplərin varlığından asılıdır. Ann Oakley öz əsərində cinslərin ailə və məktəbdə geyim, rəng, oyunlar, ixtisas seçimi, davranış və başqa məsələlərlə əlaqədar fərqləndirildiklərini araşdırır [157,s. 92-93]. Araşdırmalar cinslərin bioloji fərqlərinin onların sosial fərqliliklərinə və sosial bərabərsizliklərinə heç bir əsas vermədiyini göstərir. Bunun digər bir sübutu da fərqli mədəniyyət və cəmiyyətlərdə, hətta bir cəmiyyətin tarixində kişi və qadınların fərqli davrandıqları ilə bağlı dəlillərdir. Fərqliliklərin səbəbi bioloji olsaydı, onda onlar arasında coğrafi və tarixi fərqliliklər olmamalı idi. Bu əgər belədirsə, onda cəmiyyətin dəyişməsi və patriarxal dəyərlərin ortadan qalxması, ən azı insan hüquqları baxımından zərurətə çevrilir [56,s. 4-5].

### 3. *Sosial konsruksiya nəzəriyyələri və gender stratifikasiya kateqoriyası kimi*

Liberal feminizm və sosialist-marksist feminizm tədqiqatçılarının problemin mahiyyətini deyil, təmsil etdikləri kapitalist və sosialist sistemlərin nəzəriyyələrini müdafiə etmələri, onların əksər hallarda siyasi alətə çevrilmələrinə şərait yaratmışdır. Çünki feminizmin Qərb cəmiyyətində böyük sosial-siyasi inqilabların təməlində dayanan nəhəng siyasi qüvvə olduğu məlum məsələ idi. Belə bir sosial-siyasi qüvvənin özbaşına buraxılması, müəyyən mənada patriarxal sistemləri idarə edən güclərin mənafeyinə ziddir. Dünyanı sosialist və kapitalist bloklarına bölən qüvvələr, eynilə feministləri də liberal və sosialist-marksist qollara parçalamışlar.

Lakin sosialist feministlərin yanaşmalarında bir çox çatışmayan cəhətlər vardır:

- Birincisi, sosial siniflər anlayışı qadınların deyil, daha çox kişilərin sosial durumunu əks etdirir. Çünki qadınlar sosial-tarixi proseslərdə kişilərlə müqayisədə sinfi identiklikdən çox kənarda qalmışlar. Buna görə də, sinfi identiklik qadınların tarixi durumunu müəyyənləşdirən bir sosial kateqoriya kimi dəyərləndirilə bilməz.

- İkincisi, müxtəlif etnoqrafik araşdırmalar sübut edir ki, xüsusi mülkiyyət və cinslərin sosial statusu arasında birbaşa əlaqə yoxdur. Buna görə də xüsusi mülkiyyət, qadınların kölə vəziyyətinə düşməsini izah edən əsas sosial kateqoriya kimi qiymətləndirilə bilməz.
- Üçüncüsü, marksizmin problemə sinfi baxımdan yanaşması, problemin genderoloji tərəflərini kölgədə qoyur. Sosialist feministlər bu nəzəriyyəni inkişaf etdirərək, onun genderoloji əsaslarını yarada bilmədikləri üçün, bir çox feministlər tərəfindən tənqid olunmuşlar.

Sosialist feministlərin gender problemlərindən yayınaraq kapitalizmin sinfi strukturunu məhv etməyə dəvət etmələri, radikal (həm də psixoanalitik) feministlərin isə cəmiyyətdə cinsi separatçılıqla bağlı ifrat həll yollarına meyl etmələri, ortaq bir məxrəcin tapılmasını zəruri etmişdir. Nəticədə, *ikili sistem nəzəriyyəsi və unifikasiya olunmuş sistemlər nəzəriyyəsi* ilə bağlı iki yanaşma (dual sistem) ortaya qoyulmuşdur. Bu yeni yanaşma tərəfdarları (Haidi Hartman, Culiet Mitçel) fərqli sistemlərdə ortaya çıxan oxşar problemlərə istinad edərək, kapitalizmin və qadını kölə vəziyyətinə salan patriarxatın fərqli istismar vasitələri olduğunu və onların fərqli yollarla aradan qaldırmağın zəruri olduğunu irəli sürürlər [156,s. 44].

Dünyanın siyasi-ideoloji baxımdan sosialist və kapitalizm bloklarına bölünməsi, öz hüquq və azadlıqlarını demokratiyanın inkişafında görən liberal feminizm ideyalarının gerçəkləşməsinə mane oldu. Tərəflər arasında mövcud olan bu tarixi qarşıdurma liberal feminizmin qadının özünü dəyişdirməsi ilə bağlı yeni radikal strategiya seçməsinə gətirib çıxardı. Bu strategiya patriarxal cəmiyyəti və onun dəyərlərini kökündən inqilabi yolla dəyişməkdən ibarət idi. Cinslərin fərqliliklərinin əsasında bioloji deyil, sosiallaşma prosesində sosial-mədəni stereotiplərin dayandığını əsas götürən liberal feministlər (Betti Fridan, Elis Rossi, Canet Riçards, Süzan Okin, Natali Blüston) iyerarhik patriarxal sosial təbəqələşmədə cinslərin bərabərliyinə və bərabər imkanlar əldə etmələrinə nail olmağın yolunu sosial-iqtisadi və hüquqi islahatların keçirilməsində görürdülər. Lakin bu islahatların nəzəri əsaslarının olmaması, bütün qadınların kişilərə bənzəmək iqtidarında olması və bunu könüllü və ya məcburi olaraq istəməsi iddiasına birmənalı şəkildə inanması, hərəkatın

fəaliyyətinə ağır zərbələr vurdu. Sovet rəhbərliyi liberal feminizmin radikal inqilabi mübarizəsini mürtəce burjua təmayülü kimi rədd etdi və sovet qadınlarının savadlanmasını, sosiallaşmasını təmin edən sosialist qadın hərəkatının təkamül yolunu seçdi. Digər sovet respublikaları ilə birlikdə Azərbaycan Respublikası da bu sahədə təkamül yolu ilə irəlilədi.

Liberal feministlər cinslərarası münaqişə ideyasını müdafiə etmir və radikal feministlər kimi bütün resursların kişilərin əlindən alınması deyil, onların bərabər bölüşdürülməsi, bərabərhüquqluluğun təmin olunması sahəsində islahatların aparılmasını tələb edirlər. Onlar qadınların ənənəvi olaraq qeyri-ciddi sahələrdə təmsil olunmasını, onlardan bir həzz obyekti kimi istifadə olunmasını, onların sosiallaşmasına və şəxsiyyət kimi formalaşmasına mənfi təsir etdiyini söyləyirlər. Qadının mühakimə qabiliyyətinin zəifliyi, onun təhsil səviyyəsinin aşağı olması və əksər vaxtını ailə işlərinə sərf etməsi ilə bağlıdır. Qadının təhsili, peşəkarlığı onun iqtisadi müstəqilliyini artırmaqla yanaşı, onun potensial imkanlarının da açılmasına şərait yaradacaqdır. Lakin kişilər buna qarşı çıxaraq, qadınları ev işlərinə təhkim edirlər. Çünki onlar güclü, müstəqil, bərabər imkanlara malik qadınlara qarşı dözümsüzdürlər. Buna görə də, qadınlar öz haqlarını əldə etmək üçün birlikdə mübarizə aparmalıdırlar [58,s. 122].

Sosialist feminizmin ideyaları 90-cı illərin əvvəllində süquta uğradı. Çünki sosialist ölkələrdə qadınların ayrıseçkiliyə məruz qalması ilə bağlı kifayət qədər faktlar ortaya çıxdı və bu məsələlərin nəzəri əsaslarının olmadığı müəyyən olundu. Sosialist feministlərdən bəziləri (Mitçell) cinsi fərqliliklərin insanın şüuraltı aləmindən qaynaqlandığını iddia edən psixoanalizə və digər feminist cərəyanlarına yönəldilər [76,s. 56-57].

Levi Stross Freydin “ailədaxili seksual yasaq” ideyasına əsaslanaraq, məhz bu normanın və qadının bioloji təkrar istehsal prosesində bir vasitə kimi mübadilə olunmasının (qız alıb-vermək adəti) cəmiyyəti formalaşdırdığını və bu normaya əməl olunmadığı təqdirdə ailənin öz daxilindən kənara genişlənməyəcəyi (digər ailələrlə əlaqə yaratmayacağı) və cəmiyyətin məhv olacağı barədə fikir irəli sürür [138, s. 50-51]. Lakin müasir iqtisadi inkişaf etmiş cəmiyyətlərdə belə mübadiləyə sosial ehtiyac

olmadığı üçün patriarxal dəyərlərə də ehtiyacın qismən azaldığını göstərən Mitçell, sosial-siyasi islahatlarla cinsi bərabərliyə nail olmaq istəyən liberal feministlərə qarşı çıxaraq bildirir ki, qadının köləliyi patriarxal sosial-mədəni həyatda deyil, məhz qadın və kişilərin şüuraltı aləmindəki komplekslərdə (kastrasiya, Edip) kök salmışdır. O, buna görə də radikal feministlərin reproduktiv texnologiyalar vasitəsilə qadının azad olması iddiasını rədd edərək bildirir ki, bioloji problemin həlli psixoloji problemləri həll etmir. O, eyni zamanda ənənəvi marksist feministlərə qarşı çıxaraq bildirir ki, kapitalizmə qarşı yönələn iqtisadi inqilab kişi və qadınları əməkdaşlığa cəlb edəcək, lakin şüuraltı kompleksləri ortadan qaldırmayacaqdır. O, marksist strategiyanın kapitalizmi, psixoanalitikanın isə patriarxatı məhv etmək üçün ən mükəmməl vasitə olduğunu bildirir [63,s.17-18]. Lakin Mitçell, Freyd, Levi-Stross və başqa mütəfəkkirlər qadının mübadilə əşyasına çevrilməsinin və atanın ailədə hakim olmasının səbəbini göstərə bilməmişlər.

Qadınların sosial rol və funksiyalarının biodetermenist mənşəli olduğunu sübut etməyə çalışan Z.Freyd nəzəriyyəsi, sonrakı dövrlərin sosioloji tədqiqatları (sociology of sex) tərəfindən də əsaslandırılmağa çalışılırdı. Lakin keçən əsrin 60-70-ci illərindən başlayaraq bəzi sosioloqlar qadının sosial rol və funksiyalarının biodetermenist mənşəli deyil, dəyərlər sistemi kompleksindən (U.Qud), mədəni sistemdən (R.Terner), sosiallaşma modellərindən (İ.Çayld, Q.Berri, M. Bekon), cəmiyyətin elmi-texniki inkişafından (M.Counq, P.Uilmot) asılı olduğunu irəli sürdülər. Cinsi rolların ideal modelləri ilə bağlı fərqli fikirlər meydana çıxdı [71,s. 123-125]:

- Simmetrik rollar modeli (R. Rappoport, B.Fridan) – ər-qadın öz karyeralarını qurur və ailə məsuliyyətini bərabər şəkildə bölüşdürürlər.
- Cinsi rollların transendent konsepsiyası (R.Xefneer, V. Nordin) – bütün insani keyfiyyətləri bir araya gətirən fərdi, şəraitə uyğunlaşdırılmış, cinsi rolların stereotiplərindən azad davranış seçimi.
- Üçfazalı model (A.Mürdal, V. Kleyn) – qadın işləyir, övlad dünyaya gətirir və onu böyüdür, sonra yenidən işləyir.

- Radikal feminist model (C. Bernard, K.Safilios-Rotşild) – qadın ənənəvi rollardan intina etməli və bu funksiyanı cəmiyyətə təqdim etməlidir.
- Yeni ənənəni model (F.Merinq, P. Terner) – qadın evdən kənarda maaş almaq üçün çalışsa da, onun əsas fəaliyyət sahəsi yenə də ailədir.
- Androqin (S. Bem), monocinsli modellər (E.Rossi, B. Forişa) – hər kəs həm kişi, həm də qadın keyfiyyətlərinə malik olmalıdır.
- İdentik rollar modeli (N. Vaisstain, C. Tribilkot) - onların identiklik rolları azadlıq, ədalət və bərabər imkanlar kimi mücərrəd anlamların üzərində formalaşır.

Bu nəzəriyyələr ümumiyyətlə cinsi rolların qəti bölgüsünə qarşı çıxaraq, onların həyata keçirilməsində sərbəst olmağı təlqin edirlər. Yəni cəmiyyətdə kişilər qadın, qadınlar da kişi rollarını müxtəlif vaxtlarda əvəz etməklə, yaxud onları birləşdirməklə (androqin varlıq kimi) biodetermenist məhdudiyyətlərdən xilas ola bilərlər. Lakin bu fikirləri irəli sürən tədqiqatçılar göründüyü kimi ənənəvi patriarxal mədəniyyət çərçivəsində formalaşdırılan süni dixotomiyadan yaxa qurtarmaq əvəzinə bəzən qeyri-real səslənən fikirlərə əl atırlar. Biodetermenizm prinsipial olaraq bütün ənənəvi düşüncələri öz əhatə dairəsindən kənara buraxmamışdır. Lakin bu ənənələr feminizmin yeni baxışları nəticəsində tədricən ortadan qalxır və diskusiyaların yaranmasına səbəb olurdu.

Nəzəri və ideoloji baxımdan daha təsiredici olan radikal feministlər (Keyt Millett, Andrey Dvorkin, Kristina Delfi, Sulamif Fayerston, Meri Deyli) XX əsrin 70-ci illərindən başlayaraq qadın köləliyini ənənəvi mədəniyyətdə, elmdə, sosiomədəni ənənələrdə əks olunan patriarxatda (kişilərin qadınlar üzərində hakimiyyətində) görürlər və patriarxal mədəniyyət tarixinə tənqidi münasibətlə araşdırmalar aparırlar. Bu yanaşma ilk dəfə 1949-cu ildə Simona de Bovuarın "İkinci cins" əsərində qoyulmuş və bu əsər radikal feminizmin klassik əsərinə çevrilmişdir. Qərb kommunistləri bu cərəyanın ortaya çıxmasını cəmiyyəti kapitalizmə qarşı sinfi mübarizədən yayındırmaq məqsədi daşıdığını irəli sürürdülər. Radikal feministlər qadını hər bir cəmiyyətdə və hər bir dövrdə ən məzlum varlıq hesab edir və mövcud patriarxal sosial-mədəni sistemlərin kökündən dəyişməsi ilə bağlı əksmədəniyyət

nəzəriyyəsinin (contrculture theory) tətbiqini yeganə çıxış yolu kimi dəyərləndirirlər. Onlar qadın ədəbiyyatı, musiqisi, incəsənət növləri və başqa sahələri fərqləndirməklə yanaşı, kişinin qadın bədənini bir əşya, bir intim vasitə kimi istismarına (abortun qadağan olunması, zorakılıq növləri, intim istismar) daha çox nəzər yetirir və bu istismardan qurtulmağı öz hüquq və azadlıqları hesab edirlər [79,s. 56].

Qadın məsələsi ilə bağlı elmə bir çox yeni anlayışlar (seksizm – qadınların bioloji cins kimi ayrıseçkiliyə məruz qalması; maskulinlik – cəmiyyətdə kişinin hakimiyyətinə haqq qazandırılması; androsentrizm – insan deyəndə əsasən kişinin nəzərdə tutulması) gətirən radikal feministlər (Katerin Makkinnon, Keyt Millet) intim münasibətlərdə qadının tabeçilik rolunda olmasını təmin edən patriarxal heteroseksuallıq institutunun qadının cəmiyyətdə ümumi (dövlət, ailə) tabeçiliyinin təməlində dayandığını və bunun məqsədyönlü seksual siyasət olduğunu irəli sürürlər. Onlar dövlətin bir patriarxal institut kimi qadınları istismar etməsini (aborta qadağa, çox uşaqlılığa təhrik, qadınlara qarşı psixi və fiziki zorakılıq, qadından imtim obyekt kimi istifadə və təhqir edilməsi və s) həmin siyasətin davamı hesab edirlər [97s.179-180].

Bu gün feminizm hərəkatlarının yayıldığı ərazilər, əsasən, ingilisdilli ABŞ, Böyük Britaniya və Avstraliya (əsasən, sosialist feministlər) ölkələridir. ABŞ bütün feminizm hərəkatlarını özündə cəmləşdirdiyi üçün, bəzən onu feminizmin vətəni hesab edirlər. Fransada isə ingilisdilli feministlərdən fərqli olaraq dil və seksual mövzulara istiqamətlənən feministlər vardır (Simon de Bovuar, Toril Moy, Kristina Delfi, Monika Plaza, Monika Vittiq, Alisa Jardin). Lakin bəzi feminist tədqiqatçıları (Yuliy Kristeva, Elen Siksu, Lüsi İriqarey, Rozi Braydotti, Cudit Batler) öz əsərləri ilə fransız feminizminin postmodernist feminizm cərəyanı kimi tanınmasına şərait yaratdı. Bu istiqamətin formalaşmasında Derrida, Fuko və Liotarın, radikal feminizm nəzəriyyələrinin, poststrukturalizmin, Lakan psixoanalizinin təsiri olmuşdur. Postmodernist feministlər ümumi bir vahid bir metodologiyada deyil, oxşar mövzular (dil, hakimiyyət, "qadın" anlayışı) ətrafında birləşirlər. Lakin bu tədqiqatçılar özlərini feminist deyil, postfeminist (feminizmdən sonrakı) adlandırırlar [138,s. 55].

Feministlər qadını köləlikdən xilas edən vahid bir nəzəriyyənin qurulması ideyasını və postmodernizmin prinsiplərindən çıxış edərək həqiqət və reallıq barədəki ənənəvi fikirləri inkar edirlər. Bu baxından feminizmin ənənəvi total xarakterli bir çox anlayışlar, yanaşmalar və qadın hüquqları uğrunda mübarizələri onlar tərəfindən təkzib olunur. Buna görə də, əksər feministlər postmodernist feministləri patriarxal sistemin qadınları susdurmaq vasitəsi hesab edərək, onlara mənfi münasibət bəsləyirlər [102,s.158].

Dualist və ifrat rasionalizmə əsaslanan Qərb təfəkkürünü təkzib edən postmodern düşüncə modernizmdən fərqli olaraq feministlərin mövqeyi ilə bu və ya digər dərəcədə uyğun gəlir. Bu zahiri uyğunluq bir çox feministlərin postmodernizmə meylini artırmış və onların postmodernist kimi tanınmasına səbəb olmuşdur. Postmodernist feministlər cinsiyyətin təbii olduğunu irəli sürən digər feministlərdən fərqli olaraq, həm cinsiyyətin, həm də genderin cəmiyyət tərəfindən yaradıldığını bildirirlər. Yəni onlara görə cəmiyyət insanların təbii ünsürlərinə (dəri rəngi, qadın, kişi) müxtəlif mənalar yükləyir. Brisona görə postmodernist cəmiyyətdə qadın və kişilərə müəyyən cinsiyyət və gender anlayışlarının yüklənməsinə ehtiyac yoxdur. Hər kəs digər sahələrdə olduğu kimi, burada da öz seçimini etməli, cinsiyyət və gender rollarını dəyişdirmək imkanlarına malik olmalıdır. Belə bir cəmiyyətdə müxtəlif gender kimlikləri sərbəst seçimə bağlı olar və cəmiyyəti idarə edən qayda və normalar ortadan qalxar [148, s. 41].

Diana Fuss ve Eve Kosoftski fərdlərin öncədən cəmiyyət tərəfindən müəyyənləşmiş kateqoriyalara aid etməyə qarşı çıxaraq, ikili kimlik (qadın-kişi) məsələsini şübhə altına aldılar. Queer heteroseksuallığın əsaslandığı ikili gender kimliyində digərlərinin (gey, lezbiyen, travesti, biseksual, transseksual, interseksual) hüquqlarının diqqətdən yayındığını irəli sürdü. Onun adı qeyri-ənənəvi kimliklərin mübarizə hərəkatının (queer) adına çevrildi. Bu hərəkat sanki heteroseksuallığa qarşı yönələn qeyri-heteroseksuallıq hərəkatı oldu [138,s. 56].

Queer hərəkatı cinsiyətin sabit olmadığını, kimlik bağı ilə formalaşdığını və tarix boyunca müəyyən şərtlərə görə tanındığını müdafiə edirlər. Queer hərəkatının yaradıcısı hesab olunan Butler, “Cinsiyyət bəlası: feminizm və kimliyin alt-üst

edilməsi” əsərində feminist hərəkatında olan heteroseksual ikili kimliyini və onların ortak xüsusiyyətlər əsasında bir araya gətirilərək ümumiləşdirilməsini rədd edir və sabit kimliklərə qarşı çıxır [98,s.181].

Beləliklə, feminizm bu hərəkatların meydana çıxması ilə öz total xarakterini itirməyə və müxtəlif kimliklər arasında kiçilməyə başladı. Bu hərəkat bütün kimlikləri özündə birləşdirən kimliksizlər birliyi və ya cəmiyyət modeli oldu. Belə bir cəmiyyətdə artıq feministlərin kimlik mübarizəsi mümkün deyildir. Çünki hər kəs öz sərbəst seçimi ilə seçdiyi kimliyinə görə yaşayar və istənilən vaxt onu digər kimliklə əvəzləndirə bilər [54,s. 148].

Postmodernizmdə patriarxallığa münasibət birmənalı olmadığı və qadın-kişi qarşıdurmasının qarşısını aldığı üçün, feministlər tərəfindən tənqidə məruz qalmışdır. Bir çox feministlər öz məqsədlərinə sosial-siyasi baxımdan yaxınlaşdıqları bir ərəfədə postmodernizmin ortaya çıxmasını siyasi bir manevra kimi dəyərləndirirlər. Brison buna görə postmodernizmi separatçı və siyasi baxımdan təhlükəli hesab edir.

Lakin feministlər 80-ci illərin ortalarından başlayaraq postmodernist, poststrukturalist nəzəriyyələrin ənənələrə tənqidi münasibətindən öz mənfəətləri istiqamətində yararlanmağa çalışırlar. Linda Nikolson, Nensi Frezerə görə postmodernizm və feminizm “təbii müttəfiqlər” kimi bir çox məsələlərdə (maskulin konstruksiyalar olan elmi rasionalizmin və obyektivliyin tənqidi) ortaq məxrəcə gəlir və feminizmin tam mənada postmodern xarakter alması, onun qadınlar arasında fərq qoyan tarixilik, qeyri-universallıq və qeyri-essensialist nəzəriyyələrə istiqamətlənmə səviyyəsindən asılıdır. Andreas Haysen isə mədəniyyətə və gender barədə müzakirələrə səbəb olan feminizmin qismən postmodernizmin yaranmasına təsirini vurğulayır [163, s. 56].

Postmodernist feminizm tərəfdarları Simon de Bovuarın əzilən məzlum qadınla əlaqələndirdiyi “ikinci cins” anlayışını əsas müzakirə obyekti kimi götürərək, dominant patriarxal mədəniyyəti, onun norma və dəyərlərini, dil və dinləri tənqid etməyə imkan verir. Elen Siksu bir tərəfi (kişini) mütləqləşdirən, digər tərəfi (qadını) isə alçaldan kişi təfəkkürünün binar müxalif xarakter daşıdığını (fəallıq-passivlik; gündüz-gecə; işıq-zülmət) və bunun özünü nitqdə biruzə verdiyini bildirir. O, bundan

çıxış yolunu kişilərin süni şəkildə yaratdığı simvolik aləmdən azad olmaqda görür. Lüsi İriqarey isə, Derrida və Lakanı tənqid edərək, feminizmin maskulin çərçivədən çıxaraq müstəqil şəkildə feminizmin dil və fəlsəfəsini yaratmasının zəruri olduğunu irəli sürdü [63,s. 20-21].

Anqlo-amerikan feminizmi ilə postmodernizm birgə qadını əzən və kişiləri dominant edən patriarxat, hakimiyyət, maarifçilik, reallıq, obyektivlik, həqiqət, iyerarhiya və başqa məsələləri tənqid edirlər. Bir çoxları postmodernist feminizmi mübarizədən əl çəkərək, intellektual aləmə aludə olmaqda ittiham edirlər və bildirirlər ki, "onlar dil və ideyanı elə özünəməxsus şəkildə istifadə edirlər ki, onların nə etmək istədiklərini heç kəs dərk edə bilmir" [163,s.63]. Digərləri isə, postmodernist feminizmin sosial-siyasi həyatdan uzaq individual, elit xarakter daşıdığını, onun azad olmaqla bağlı irəli sürdüyü fikir və istəklərin isə hər kəsin dərk edə bilməyəcəyini bildirirlər. Lakin onların qadın cəmiyyəti və dilinin yaratmaq istəməsi, yaxud öz fəlsəfəsi ilə xaosa sürükləndiyini söyləyənlər də vardır. Postmodernist feminizm ilk dəfə təfəkkürün binar xarakter daşımasına, dünyanın çoxluqdan təşkil olunduğuna diqqət çəkdilər [94,s. 64].

Hal-hazırda bəhs etdiyimiz feminizm istiqamətləri keçən əsrin 60-70-ci illərdə olan aktuallığını itirmişdir. Onların yerini indi zənci-amerikan, latınamerikan, afrika, müsəlman və başqa feminizm hərəkatları əvəz etmişdir. Bu yeni feminizm hərəkatlarında qadınların durumu yanlız cinsə görə deyil, həmçinin irqə, milliyyətə, dinə görə müəyyən edilir və onlar arasında sərhəd qoyulmur. Bunlarla yanaşı həm də yeni psixoanalitik və postmodernist feminizm hərəkatları meydana çıxmışdır.

Liberal feminizmin yeni fundamental və radikal mövqeyi həm özü, həm də Qərb cəmiyyətinə təhlükə təşkil etdiyi üçün qurum öz içindən bir-biri ilə uzlaşmayan müxtəlif siyasi-ideoloji separatçı qruplara bölündü və Qərb cəmiyyətini daxili parçalanmadan, cinslərarası gərginlikdən qorumaq istiqamətində atılan siyasi-mədəni addımlar cinslərarası harmoniyanı, davamlı inkişafı, insan hüquqlarını, demokratiyanı təmin edən gender tədqiqatlarının meydana çıxmasına şərait yaratdı. Feminizmi radikal siyasi-ideoloji səviyyədən yeni mülayim nəzəri-fəlsəfi gender tədqiqatları səviyyəsinə keçidini təmin edən amil, postklassik elmi paradiqmaların süqutunu və

yeni postneoklassik təlimlərin inkişafını sürətləndirən, eyni zamanda qloballaşan dünya nizamını tənzimləyən “seksual inqilab” və postmodernist düşüncə forması idi.

Yeni postneoklassik elmi paradiqmanın yaranmasına təsir edən gender nəzəriyyələri və metodologiyaları üsyankar və intelektual feminizmin fərqli ideyalarının, özünəməxsus yanaşmalarının nəticəsi kimi meydana çıxan sosiomədəni inkişafın alternativ fəlsəfi konsepsiyası oldu.

Qərbdə feminizmin sosial-inqilabi ideyaları ənənəvi patriarxal sosial-mədəni sistemləri (ənənəvi dinləri və idarəetmə formalarını) tədricən inkar edərək qadının (kişilərdən) tam azadlığına (feminizm) və ya cinslərin bərabərliyi prinsipinə (gender) əsaslanan yeni postmodernist, demokratik, multikultiralist, sekulyar, qlobal dünya nizamının əsasını qoydu. Çünki müxtəlif millət və dindən olan qadınları milli-dini maraqlarının fövqündə bir araya gətirən transmilli beynəlxalq qadın təşkilatları artıq qloballaşma prosesinin əsas təkanverici qüvvəsinə çevrildilər. Çünki feminizmin separatçı ideyaları və gender tədqiqatlarının unifikisiya xarakteri, ənənəvi dünya mədəniyyətlərinin (dinlərin, milli dövlətlərin, konservativ siyasi sistemlərin) bir tərəfdən parçalanmasına, digər tərəfdən yeni prinsiplər əsasında (gender, demokratiya, bazar iqtisadiyyatı, multikultiralizm) unifikasiya olunmasına şərait yaradır. Buna görə də transmilli təşkilatların, Qərb dövlətlərinin bu sahədə həyata keçirdikləri hərtərəfli layihələr anlaşılandır.

Biz feminizm və gender ideyalarının genişlənməsini birmənalı şəkildə transmilli təşkilatların maraqları ilə əlaqələndirə bilmərik. Həqiqətən, feminizm hərəkatları bəşəriyyətin ənənəvi sosiomədəni inkişafında kifayət qədər insan (xüsusilə, qadın) hüquqlarına və sosial ədalətə zidd olan məqamları üzə çıxarmışlar ki, onlarla hesablaşmamaq mümkün deyildir. Sadəcə, böyük siyasi qüvvələr feminizmin bu ideyalarından dünya siyasətində öz mənafeləri istiqamətində istifadə etməyə çalışırlar. Buna görə də R.Mirzəzadə bildirir ki, “Gender – müəyyən norma və ölçülərə əsaslanan hüquqi dövlətdə cinsi diskriminasiyanın əleyhinə vətəndaş cəmiyyətində stabil münasibətlərin gerçəkləşməsini tələb edir. Bu nöqteyi-nəzərdən gender demokratik prinsiplərin əsas meyarı sayılmalıdır.”[40, s. 256].

Lakin bioloji fərqləri inkar etməyən feminist düşüncə və onun üzərində formalaşan gender şüuru bu fərqlərin üzərində qurulan sosiomədəni dəyərlərin və hakimiyyət sisteminin qiymətləndirilməsinə və şərh olunmasına daha çox qiymət verir və buna görə öz fərqli yanaşması və metodologiyası ilə digər ənənəvi sosial elmlərdən seçilir. Bu sahədə feministlərin rolu böyük olmuşdur. Feministlər müxtəlif istiqamətlərdə fəaliyyət göstərmələrindən və dövrün bir çox məşhur nəzəriyyələrinə istinad etmələrindən asılı olmayaraq, onlar mövcud nəzəriyyələrə tənqidi yanaşmağı bacarmış və sosial elmlərdə olan ənənəvi stereotipləri sındırmağa nail olmuşlar.

Yeni gender metodları vasitəsilə cəmiyyətdə cinslərin qeyri-bərabərliyi prinsipinin hökm sürdüyü və bu prinsipin təməlində dayanan siyasi idarəetmənin yanlış olduğu ortaya qoyuldu. Müxtəlif sosial elm sahələri tərəfindən tətbiq olunan gender metodologiyası fənlərarası bir sahəyə çevrildi. Gender yanlız nəzəri deyil, həm də insan hüquqlarının qorunması istiqamətində praktiki bir fəaliyyət sahəsi kimi, cəmiyyətin sosial-iqtisadi həyatında qadınların ayrıseçkiliyə məruz qaldığını və onun aradan qaldırılması yollarını göstərdi.

Artıq dünya birliyi məhz gender müstəvisində feminizmin onillərlə davam edən mübarizəsinin nəticələri ilə hesablaşmağa məcbur olmuşdur. BMT-nın 1992-ci ildə Rio de Janeyroda keçirilən "Ətraf mühit və davamlı inkiaf" konfransı, 1993-cü ildə Vena şəhərində keçirilən konfrans və "Qadınlara qarşı zorakılığın aradan qaldırılması haqqında deklarasiya", 1995-ci ildə Pekində keçirilən BMT-nin qadınların vəziyyəti haqqında V Ümumdünya konfransı dünyada liberal qadın və ilk dəfə gender prinsiplərinə əsaslanan yeni qlobal dünya nizamının başlanğıcını qoydu. Yeni qlobal dünyanın prinsiplərinə görə cinsi mənsubiyyətinə nəzərən ayrıseçkiliyə məruz qalan cəmiyyətlərdə nəinki insan hüquqları, demokratiya və davamlı inkişaf, hətta qlobal xarakter alan bir çox ekoloji problemlərin həlli mümkün deyildir. Çünki dünyada ekoloji (ekofeminizm nəzəriyyəsi), hüquqi və siyasi məsələlərin həlli, qadın məsələsinin həllindən və gender maarifçiliyindən keçir. Bu beynəlxalq tədbirlərin nəticələrinə görə dünya dövlətləri insan hüquqlarına hörmət edərək öz xarici və daxili siyasətlərinə gender ölçüsündən yanaşmalı və onun əsas prinsiplərini yerinə yetirməlidirlər.

## 1.2. Gender linqvistikasının sosial fəlsəfi problemləri

Dünyada müxtəlif mədəniyyətlər mövcuddur. Hər bir mədəniyyətin tarixi inkişaf nəticəsində formalaşan özünəməxsus gender stereotipləri vardır. Mədəniyyətlər daxilində inkişaf edən stereotiplər insanların təfəkkürünə və oradan da dillə
rə sirayət edərək müəyyən gender balansını yaradırlar. Çünki dil insanın ən yaxın əhatəsi və əsil həqiqətidir [49,s. 56].

Feminist tədqiqatçılar patriarxal mədəniyyətin tədricən dil normalarına təsir etdiyini və eyni zamanda həmin dillərin cəmiyyətdə patriarxal şüuru formalaşdırdığını irəli sürürlər. Onlar belə bir nəticəyə gəliblər ki, patriarxal mədəniyyətdən qurtuluşun yolu dilin qrammatik quruluşunda, semantikasında, ədəbi ənənələrdə köklü dəyişikliklərin həyata keçirilməsindən asılıdır[106, s. 8].

Qərb feministləri Avropa dillərinin strukturuna ciddi tənqidi mövqedən yanaşaraq bu sahədə bir çox yeniliklər həyata keçirirlər. Lakin bu kimi tədqiqatlar Şərq dillərinə münasibətdə zəif işlənmiş və ciddi tədqiqatlar aparılmamışdır. Bu dillər siyahısına Azərbaycan və digər türk dillərini aid etmək olar.

Hər hansı bir xalqın dili, onun tarixi gender ölçülərinin ən bariz göstəricisidir. Gender stereotipləri dil strukturunun analizinə əsasən «hesablana bilər». Bu baxımdan yeni postneoklassik paradiqma üzərində formalaşan və postmodernist fəlsəfənin təsirinə məruz qalan gender linqvistikası sahəsi (yaxud feminist linqvistika) müxtəlif dillərdə gender asimmetriyasını tədqiq edərək dilçilik elminə və qadın hüquqlarına yeni tövhələr vermişdir [85,s. 65].

Dil strukturunun təhlili müstəvisində gender tədqiqatları ilə qarşılıqlı əlaqədə olan *sosiolinqvistika* (cins, yaş, peşə, şəhər, kənd həyat tərzi və s. üzrə dilin təhlili), *dilin feminist tənqidi, maskulinliyin tədqiqi, cinsi azlıqların nitq təcrübəsinin öyrənilməsi* (sosial cins ilə bioloji cinsin arasındakı uyğunluğun linqivistik təhlili), *kimlik diaqnostikası* (şifahi və yazılı müəllif (anonim) mətnlərinin təhlili əsasında cinsin müəyyənləşməsi), *psixolinqvistika* (uşaqlıqdan cinsi rəftarın dilə təsirinin

gender tədqiqi), *linqvomədəni və krossmədəni* (mədəniyyətdə gender ölçülərinin dil materialları əsasında tədqiqi) kimi istiqamətləri vardır [78, s. 44].

Gender linqvistikası – cinslərin dildə tarixini, dildə onlara yüklənən semantik məzmunu, mədəni stereotip və rəmzləri müəyyənləşdirmək üçün dilin tərkibindəki leksika, sintaksis, cins kateqoriyasını və cinslərin müxtəlif sahələrdəki (KİV, internet) ünsiyyətini tədqiq edir. Bu araşdırmalar əksər dillərin tarixi inkişafında gender simmetriyasının ciddi şəkildə pozulduğunu və dildə androsentrizm elementlərinin üstünlük təşkil etdiyini üzə çıxarmışdır. Gender asimmetriyası hadisəsi ən çox böyük sivilizasiya yolu keçən Qərb dillərində və Qərb ədəbi düşüncə tarixində özünü biruzə vermişdir [82,s. 280].

Dilin feminist tənqidini təmsil edən tədqiqatçılar (S.Tremel-Plets, L.Puşun, Y.Kristevoy) xüsusi linqvistik metodologiyaların işlənməsini, dilin tərkibindəki cins qarşıdurmasının və kişi üstünlüyünün ləğv edilməsini, yeni dil siyasəti ilə əlaqədar islahatların həyata keçirilməsini nəzərdə tutur və dildə qadınların təqdim olunduğu semantik sahələri, anlayışlarda təmsil olunan qadın obrazlarını və kişi cinsinin ifadə etdiyi mənaları təhlil edirlər. Bu araşdırmaların nəticəsi əksər dillərin patriarxal mənşəli olduğunu üzə çıxarır. Onlar şəxsin cinsinin qeyd olunmasının aradan qaldırılmasıyla bağlı bir çox tövsiyələr irəli sürmüşlər [176].

Lakin feminist linqivistikanın yaranmasına və inkişafına postneoklassik filosofların dil konsepsiyaları daha çox təsir etmişdir. Məhz onların irəli sürdüyü ideyalar əsasında feminizmin bu yeni istiqaməti formalaşmışdır. Ba sahədə J. Derridanın gender dekonstruksiyası metodu həm feminizm, həm də gender tədqiqiatlarında geniş istifadə olunur.

J. Derrida ənənəvi fəlsəfi düşüncənin əksliklər üzərində formalaşdığını və bu əksliklərdən yanlız birinin həqiqətəuyğun olduğunu və bütün təfəkkür sisteminin kişi meyarına əsaslanan bir mərkəzdən idarə olunduğunu bildirir. Bu dixotomik mərkəzin dekonstruksiyası (pozulması) onun sabit olmadığını və konstruktiv xarakter daşıdığını ortaya qoyur [89,s.48-49]. Yəni əks anlayışlar kimi formalaşan qadın-kişi konstruksiyasından biri əsas və tam kimi, digəri isə ikinci dərəcəli və əlavə kimi qəbul olunur. Əslində, əsas və tam olan termin, digər əksliyə nisbətdə formalaşır.

Yəni kişi konstruksiyası burada əksi olan "qeyri-qadın" konstruksiyası kimi ortaya çıxır. J. Derrida bunu Lakanın psixoanalizi ilə əlaqələndirərək bildirir ki, subyekt (kişi) özünü digərindən (anadan) ayırmaqla və (atanın müəyyənləşdirdiyi) ənənəvi qanun çərçivəsinə daxil olmaqla müəyyənləşir [86,**s**. 28].

Feminist linqivistikanın (E. Siks, L. İriqare, C. Kristeva) yaranmasına Lakanın dil konsepsiyası böyük təsir göstərmişdir. Lakan dili təhtəlşüuru tədqiq etməyin yeganə yolu hesab etmişdir. Çünki təhtəlşüuru strukturlaşdıran amil dildir. Dil mədəniyyəti müəyyənləşdirən məna sistemi və rəmzi nizamdır. Yeni sosiallaşan uşaq bu rəmzi aləmə daxil olanda özünü ananın varlığından kənarda bir şəxsiyyət kimi dərk edir[149,s. 161]. Subyekt öz hiss və davranışlarının alətinə çevrilərək onu yaşadır və dil qanunları insan iradəsinin fövqünə çıxdığı üçün insanı özünə tabe edir. Əks təqdirdə, subyektin sosiallaşması və mədəniyyətin daşıyıcısına çevrilməsi mümkün deyildir. Beləliklə, subyekt dil vasitəsilə mədəni stereotipləri mənimsəyir və onların vasitəsilə özünü yaradır. J. Lakan yazır: "Biz doğulduğumuz andan rəmzi nizam aləminə düşürük. Biz cəmiyyətin üzvlüyünə və rəmzlərin ifadə etdiyi mənalara daxil olandan sonra dünyanı mövcud rəmzlərə uyğun şəkildə qurmağa başlayırıq. Beləliklə, biz patriarxal nizama daxil olaraq onun mövcudiyyətinə və gerçəkləşməsinə şərait yaradırıq" [86,s. 25]  Lakana görə, kişi və qadınlar dil rəmzlərini mənimsəməklə, onlar üçün müəyyənləşdirilən mədəni normalarla özlərini eyniləşdirirlər. Nəticədə, onlar mövcud dil məkanında öz yerlərini müəyyənləşdirirlər [151,s. 398]. Buna görə də dil fenomeninə Lakan məntiqi və gender metodları ilə yanaşaraq gender asimmetriyası barədə maraqlı tədqiqatların ortaya çıxmasına şərait yaratmışdır.

Antropoloqlar ilk dəfə Amerika hindu tayfaları arasında apardıqları təcrübələr əsasında müəyyənləşdirmişlər ki, qadın və kişilər eyni əşya və anlayışla əlaqədar fərqli sözlər, terminlər işlədir və ya fərqli tələffüzlər nümayiş etdirirlər [160]. Məsələn,  Vircinya adalarında yaşayan karip tayfalarında qadınların kişilərin istifadə etdiyi sözləri təkrarlaması uğursuzluq əlaməti hesab olunur. E. Sepir bunu cinsin danışıq kodu kimi qiymətləndirmişdir [105,s.23] Bu təcrübə və araşdırmalar dildə gender amillərinin araşdırılmasına təkan vermişdir.

Danimarkalı linqivist Otto Jespersen ilk dəfə 1924-cü ildə qadın və kişinin fərqli dillərdə danışdıqlarını irəli sürdü və onların fərqli xüsusiyyətlərini ortaya qoydu. O, 25 nəfər universitet tələbəsi arasında bir təcrübə həyata keçirmişdir. Hər bir tələbə fikirləşmədən 100 söz yazmalı idi. Qızlar əsasən geyim və parçalarla, oğlanlar isə daha çox təbiət və heyvanlarla əlaqədar sözlər yazmışlar. Müəllif bu təcrübəyə əsasən belə qənaətə gəlmişdir ki, qızların söz ehtiyatı oğlanlarınkından azdır. Otto Jespersen tədqiqatlarında qeyd etmişdir ki, qadınlar kişilərdən fərqli olaraq daha məntiqsiz və sürətlə danışırlar [60, s.87-106].

XX əsrin 70-ci illərindən Senta Tromel-Plotz və Robin Lakoff adlı feminist linqivistlər müvafiq məsələ ilə bağlı tədqiqatlara başladılar və cinslərin danışıq tərzində sosial fərqlərin olduğunu qeyd etdilər. Onlara görə, qadınlar danışdıqları zaman kişilərin təsirinə və onların patriarxal dil təcavüzünə məruz qalırlar [121,s. 259]. Robin Lakoff və Mary Ritchi Key ilk dəfə qadınların nitq qüsurlarını bioloji mənsubiyyətlərinə bağlayan Otto Jespersenin fikirlərinə qarşı çıxaraq bildirdilər ki, qadınların dil problemi onların sosial statusu, cəmiyyətdəki zəif mövqeləri, kişilərdən asılılığı ilə bağlıdır. Robin Lakoff qadınların özünəməxsus danışıq tərzinin əsas xüsusiyyətlərini qeyd edərkən bildirir ki, qadınlar öz maraq dairələrinə aid sahələr barədə zəngin söz ehtiyatlarına (xüsusilə sifətlərə) və qüsursuz nitqə, düzgün söz və ifadə seçiminə malikdirlər. Onlar güclü duyğularını, iddialarını yumşaltmaq və ya gizlətmək məqsədilə sual intonasiyasından, sual ədatlarından, vurğulardan, jestlərdən istifadə edərlər [154, s. 56].

XX əsrin 90-ci illərindən gender tədqiqatlarının genişlənməsi nəticəsində dil probleminə bioloji cinslərin mövqeyindən deyil, "sosial cins" yəni gender mövqeyindən yanaşılması məqsədəuyğun hesab olundu. Araşdırmalar göstərir ki, qadınlar öz incə təbiətlərindən irəli gələrək, kişilərdən daha zərif, tərbiyəli, kübar və nəzakətli şəkildə danışırlar [147,s. 137-138]. İctimai yerdə bağıraraq və nə danışdığına əhəmiyyət vermədən danışan qadın, kişilərdən fərqli olaraq daha çox ictimai qınaq obyektinə çevrilir. Azərbaycanda xalq arasında belə bir deyim var ki, "qadın özünü ağır aparar və başı aşağı gəzər." Lakin dünyanın əksər mədəniyyətlərində qadınların ictimai yerlərdə diqqəti cəlb etməmələri müşahidə

olunmuşdur. Bütün dünya qadınlarını birləşdirən əsas cəhət, onların ev, ailə, qohumluq məsələlərini həddən artıq müzakirə etmələri və kişilərə məlum olmayan şifrəli dil vasitəsinə malik olmalarıdır [55,s. 8].

Müxtəlif elmlərin (sosiologiya, psixologiya, tarix, etnoqrafiya, antropologiya və s.) sinkretik nəticəsi kimi ortaya çıxan feminist linqvistikasında özünəməxsus polemika və diskussiya imkanları çoxdur. Feminist linqvistikasında poststrukturalizmin dil aktları və mətnlərin rolunun müəyyən edilməsində sətirlərarası mənaların əhəmiyyəti, həmçinin dilin insan şüuru ilə qarşılıqlı əlaqələrinin struktur xüsusiyyətləri önə çəkilir [148,s.123-124].

M. Fuko, digər anlayışlar kimi cinsiyyət anlayışının da diskursun nəticəsi kimi dil vasitəsilə formalaşdığını bildirir. Qadının dildə reproduktiv funksiya ilə eyniləşdirilməsi onun sosial rolunu müəyyənləşdirir. M. Fukoya görə, dil hakimiyyəti yaradan, onu qoruyan və həm də parçalayan əsas vasitədir. Dil şüuraltı şəkildə cəmiyyətdə gender (həmçinin irqi, etnik) münasibətlərini dixotomik şəkildə tənzimləyir və patriarxal hakimiyyətin qorunub güclənməsinə şərait yaradır. Fukonun bu ideyası dilçilik sahəsində yeni tənqidi istiqamətlərin yaranmasına səbəb oldu.

Amerikan sosiolinqvisti Debor Tannen cinslərin nitq üslublarındakı ünsiyyət problemlərini təhlil edərək, onların zidd mədəniyyət ünsürü olduğunu irəli sürür. Çünki ona görə, onlar cəmiyyətdə iki müxtəlif cinsi tərbiyə mühitində dilə yiyələnir və fərqli dil üslubları da buradan qaynaqlanır. Burada dinin də öz təsiri vardır. M.Ariel dil şüurunun dindən asılılığını praktiki şəkildə sübut etmişdir. O, 140 məktəbli arasında keçirdiyi araşdırmaya əsasən, məktəblilər şərti olaraq, Adəm adlı ulu əcdadına istənilən ad seçməli idilər. Onlardan yalnız biri əcdadına qadın adı qoymuşdur [158,s.135]. Yaxud orta əsr katolik kilsəsində və onu təmsil edən rahiblərin əsərlərində qadının insan statusundan məhrum edilməsi ilə bağlı formalaşan bəzi anlayış və terminlər öz əksini Avropa dillərində tapmışdır. Biz bu prosesin daha əvvəlki antik dövrlərdən başladığını nəzərə alsaq, dini-mifik dünyagörüşün dilin formalaşmasındakı nəhəng rolunu müşahidə edə bilərik. Eynilə, müsəlman mədəniyyətində qadının örtünməsi ilə əlaqədar övrət (xalq arasında

“arvad” yəni “tam örtünən” kimi tələffüz olunur) kimi tanınmasını misal göstərə bilərik.

Dildə gender asimmetriyasının yaranmasına şərait yaradan kişi təsiridir (androsentrizm). Cins kateqoriyası hind-Avropa, sami və dravid dilləri üçün daha çox xarakterikdir. Bu dillərdə “insan” və “kişi” anlayışları eyniləşdirilir: ingiliscə «man», fransıza «homme», almanca «mann», farsca “mərd” və s. Bir çox dillərdə bir-birindən kəmiyyət və keyfiyyət baxımından kəskin şəkildə fərqləndirilən kişi və qadın cinslər kateqoriyası vardır. Adətən, ismin qadın cinsi kişi cinsindən törəyir (ərəbcədə “katib-katibə, müəllim-müəlimə”, студент-студентка). Lakin bu isimlər cəm formasında işlənəndə qadın deyil, kişi cinsinin söz kökündən formalaşırlar (müəllimlər, студенты). Yaxud kişiyə “müəllimə” deyərək müraciət etmək təhqirdirsə, qadına “müəllim” demək təhqir hesab olunmur. Bu dillərin sintaksisində uzlaşma obyektin real cinsinə görə deyil, qrammatik cinsin nitq hissələrinə uyğun formasında ortaya çıxır. Bir çox Avropa dillərində qadın obrazı frazeoloji birləşmələrdə mənfi xüsusiyyətlərlə ifadə olunur [112,s.120-145].

Kişi cinsi ilə əlaqədar pozitiv və avtoritar xarakter daşıyan sözlərdən mürəkkəb sözlər və söz birləşmələri (irishman, sjotsman, spokesman, manpower, manmade və s.) yaradılmışdır. Bu qadınların ənənəvi olaraq müxtəlif sosial sahələrdən (idman, siyasət və s) təcrid olunmasına işarədir. Yaxud peşə və titullar kişilərlə birbaşa, qadınlarla isə dolayı şəkildə əlaqəlidir (doctor-lady doctor, professor- women professor) [104,s.25-26].

Feministlər cinsi ayrıseçkiliyə yol verən reklamları, elanları ciddi şəkildə tənqid edir və dildə cinsi ayrıseçkiliyi ortadan qaldıran neytral sözlərə (Məsələn, «God» sözünü “Goddess” və ya “Creatrix” kimi) üstünlük verirlər. Onlar hətta dilə neologizmlər gətirməyə çalışırlar. Məsələn, feministlər “kişi tarixi” mənasını ifadə edən his+story sözünü “qadın tarixi” mənasını ifadə edən her+story sözü ilə əvəz etməyi təklif edirlər. Onlar irəli sürdükləri neologizmləri öz internet səhifələrində, ədəbiyyatlarında geniş istifadə edirlər. Bu isə müvafiq terminlərin tədricən cəmiyyətdə özünə yer tapmasına şərait yaradır [84,s.537].

Gender konstruksiyasının yaranmasında bir çox koqnitiv mexanizmlər vardr. Postneoklassik və feminist dil fəlsəfəsində onların bir neçə növü müəyyənləşdirilmişdir. Onlara kateqoriyalaşdırmaq, avtomatizm, inferensiya (mühakimə), fiqura-fon perseptiv quruluş, metafora və empirizm, mental obrazlılıq və konstruksiyalaşdırmaq, konseptual arxetiplər aiddir.

Kateqoriyalaşma – dildə tarixən formalaşan gender stereotiplərinin söz, termin, frazeoloji birləşmə və ifadə formalarında aksioma halına düşməsidir. Bu kateqoriyaların qorunub saxlanması patriarxal sistemin mənafeyinə uyğun gəlir. Dil bu funksiyanı mədəniyyətdə təhtəlşüur səviyyəsində yerinə yetirir [153,s. 44].

Avtomatizm – fəaliyyəti qeyri-ixtiyari şəkildə nəzarətdə saxlayan xüsusi neyro-koqnitiv mexanizmdir. Bu mexanizm dildə avtomatik gender stereotipləri ilə müəyyənləşən mürəkkəb ifadələr və sözlər yaradır. Bununla bağlı bir çox təcrübələr aparılmışdır. Məsələn, biz "moda, rəqs, mətbəx" deyəndə avtomatik olaraq qadını, "güc, qəhrəman, pilot" deyəndə avtomatik olaraq kişini nəzərdə tuturuq. Yaxud virtual olaraq biz bəzəkli tovuz quşunu və ya bəzəkli dekorativ balığı (kuppi növünü) dişi hesab edirik (Halbuki onlar erkək cinsinə aiddirlər). Yəni ifadələrlə bağlı avtomatik reaksiya həm kişilərə, həm də qadınlara aiddir. Çünki onlardan artıq düşünmədən dildə formalaşan koqnitiv mexanizmlərdən qeyri-ixtiyari şəkildə istifadə olunur[166,s.123].

Fiqura-fon perseptiv quruluş mexanizmində diqqət hər hansı bir fonda olan fiqura üzərinə yönəlir. Bu fiqur, əslində, öncədən nəzərdə tutulan fiqurdur. Sadəcə o, ətrafdakıların diqqətini çəkməsi üçün, xüsusi fonda təqdim olunur. Məsələn, qəzet başlığında yazılır ki, "Anası restoranda olduğu ərəfədə 7 yaşlı qızı qətl edilmişdir." Burada fonda cinayətkar deyil, öncədən nəzərdə tutulan ana ittiham fiquru seçilmişdir [150,s. 187].

Metafora və empirizm mexanizmində metafora mücərrəd təcrübəni cismani təcrübə terminləri ilə konstruksiyalaşdırır. Yəni cismani metaforanın dildə təcəssümü, dilin bütün sahələrinə sirayət edir. İki cinsin mövcudluğu qadın və kişi kateqoriyasının fəlsəfi fikir tarixində meydana çıxmasına səbəb oldu və eyni zamanda məişət şüurunu müəyyənləşdirən metaforalar üçün müqayisə bazası yaratdı. Bu cür

metaforalar yanlız cinslərə deyil, həmçinin onlarla əlaqələndirilən əşyalara da aid edildi (məsələn, kişi və ya qadın avtomobili, kişi və ya qadın rəngi və s.) [176].

İnferensiya (mühakimə) mexanizmi hər hansı bir fikir yaratmaq üçün istifadə olunan fraqmentar ifadə və terminlərdir. Bu fraqmentar məlumatı qəbul edən şəxs sillogizm əqli nəticəsinə əsaslanan mühakiməsi ilə onu tamamlayacaqdır. Əslində, dil vasitəsilə ötürülən gizli məlumatın mahiyyəti bu şəkildə idrak prosesinin fövqündə qalacaqdır [127,s. 123]. Məsələn, "qız qızdır" taftalogiyasını hərfi mənada şərh etmək mümkün deyildir. Bu ifadəni dinləyən insan onun mahiyyətinə varmaq üçün, şüurunda qız ilə eyniyyət təşkil edən anlayışlar və təsəvvürləri vahid bir sistemdə konstruksiyalaşdıracaqdır. Bu prosesdə ona yenə də yardım edən dildə kateqoriyalaşmış stereotiplər olacaqdır. Bu baxımdan dil fenomeni idrak prosesində fəlsəfi mahiyyətin dərk olunmasına mane olur. Buna görə də dilə gender metodları vasitəsilə tənqidi yanaşma elmi-fəlsəfi zərurətdən irəli gəlir.

Konseptual arxetiplər mexanizminə görə, dillər bir-birindən fərqlənsə də, onlar arasında ümumi oxşar abstraksiyalar (yəni konseptual arxetiplər) mövcuddur. Məsələn, qədim çin miflərində (sonralar fəlsəfi düşüncəsində) "in" və "yan" əks başlanğıcları daima paralel şəkildə kişi və qadın başlanğıclarının konseptual arxetiplərini təşkil etmişlər. Yaxud dildə cansız əşyaların qadın və ya kişi cinsində təqdim olunması buna işarədir [155, s. 9].

Biz türk dillərini, o cümlədən  Azərbaycan dilini, feminist və ya gender linqivistikası metodları ilə araşdırsaq maraqlı nəticələr əldə edə bilərik. Türk dillərində cins kateqoriyasının olmaması (bu hal bir çox dillərdə vardır), söz və söz birləşmələrinin mütləq cinsi mənada işlənməməsi və ümumiyyətlə qrammatik normaların cinsi ayrıseçkilik prinsiplərinə əsaslanmaması, türk dillərində cinsi ayrıseçkilik hallarının olmamasını və gender stereotiplərinin mövcud olmadığını göstərmir. Bu sahədə hələ tədqiqatlar aparılmamışdır. Lakin türk dilinin qrammatik quruluşunda gender simmetrasiyasının qorunduğu müşahidə olunsa da, bunu bəzi sözlər, frazeoloji birləşmələr, deyimlər və ifadə formaları barədə söyləmək mümkün deyildir. Azərbaycan və Türkiyə türkcəsində (başqa türk dillərində də) əksər

frazeoloji birləşmələr, deyimlər və ifadə formaları eynidir. Onların araşdırılması göstərir ki, türk dillərində də gender asimmetrasiyası mövcuddur.

Türk dillərində "adam" ifadəsi hər iki cinsin nümayəndəsinə münasibətdə işlənmişdir. Digər dillərdən fərqli olaraq türk dillərində "adam" ismi ilə "qadın, qız" isimləri arasında kəskin hədd qoyulmamışdır. Yəni bu sözlər qadınlara münasibətdə də istifadə olunmuşdur. Lakin araşdırmalar göstərir ki, "adam olmaq", "adam kimi", "adam yerinə qoymaq", "özünü adam kimi aparmaq" daha çox kişiyə münasibətdə istifadə olunur. Çünki bu ifadələr daha çox kişinin sosial funksiyalarını ifadə edən termin olmuşdur. "Adam olmaq" və ya "kişi olmaq" çox vaxt eyni mənada istifadə olunmuşdur. Kişilik və ya adamlıq ev, sosial status və ailə sahibi olmaqla eyniləşdirilir. Qadın ənənəvi olaraq bu funksiyalardan birbaşa məhrum olduğu üçün "adam olmaq" imkanlarını itirmişdir.

Kişilərin sosial funksiyalarına sahib çıxan qadınlar cəmiyyətdə "kişi kimi qadındır" ifadəsi ilə dəyərləndirilir. Deməli, qadın cəmiyyətin ona verdiyi gender ölçüləri çərçivəsində öz fəaliyyətini məhdudlaşdırmğa məcbur qalır. O, bu çərçivədən kənara çıxanda "sosial kişi" statusu qazanır. Bu sosial statusu qoruya bilməyən kişilər isə, cəmiyyətdə "qız kimi olmaq", "arvad olmaq" ifadələri ilə qınanırlar. Onların bütün davranış və sözləri cəmiyyət tərəfindən "arvad kimi gülmə!", "arvad kimi danışma!", "qız kimi ağlama!", "qadın kimi boşboğazlıq etmə!" kimi ifadələrlə məzəmmət olunur. Lakin kişilərə münasibətdə bu cür anlayış və ifadələr ortaya çıxmamışdır. Əslində, bu söz və ifadələr vasitəsilə qadının varlığı məzəmmət olunur.

Türk dillərində elə söz və ifadələr vardır ki, onlarda qadının iştirakı minimuma endirilmişdir. Məsələn, "atalar sözü", "kişi sözü", "sözünün ağası olmaq" "kişinin sözü bir olar" kimi ifadələrdə qadının söz sahibi olmaq funksiyası inkar olunur. Yəni "analar sözü", "qadın sözü" ifadələrinə nə milli ədəbiyyatda, nə də danışıq dilində təsadüf etmək mümkün deyildir. Bunlar ənənəvi cəmiyyət və ailədə qadının söz demək hüququndan məhrum olduğunu göstərir. Buna görə də, bir çox başqa dillərdə (ingilis, fars və s) olduğu kimi, cinsləri ifadə edən qrammatik normaların olmadığı türk dillərində "o" şəxs əvəzliyi çox vaxt birbaşa kişini, dolayı olaraq qadını ifadə edir. Çünki qadın və qızlara müraciət olunanda əksər hallarda "o qız" və ya "o qadın"

söylənilir. Lakin ingilis dilində "o" şəxs əvəzliyində cinsləri ifadə edən terminlər (he, she) vardır.

Qızlar tarixən evlilik məsələlərində nəsillərarası münasibətlərin tənzimlənməsində bir ticarət vasitəsi kimi alınıb satılmışlar. Hətta qızlar beşikdə olduqları zaman onlara köbəkkəsdi etmiş və evlilik üçün behləmişlər. Türk dillərində qızların ərə verilməsi və ya gəlin gətirilməsi ilə əlaqədar "qız almaq", "qız vermək" və ya "qız qaçırmaq" ifadələri işlənmişdir. Lakin oğlanların evləndirilməsi ilə əlaqədar buna bənzər ifadələr olmamışdır. Bu sosial ənənələrə sadiq qalan qadınlar ərə getdikdən sonra "xatın" və ya "qadın", övlad dünyaya gətirəndən sonra isə "ana" sosial statusuna layiq görülmüşlər. Lakin ərə getməyən qızlar "qarımış qız", "evdə qalmış" kimi, övladı olmayan isə "qısır" kimi terminlərlə ifadə olunmuşlar. Əslində qadına münasibət, əsasən, onun övlad dünyaya gətirməsi və övlad yetişdirməsi funksiyası ilə müəyyənləşmişdir.

Türk dillərində işlənən bəzi antonimlərin mahiyyətində cinsi ayrıseçkilik elementləri müşahidə olunur. Biz bunları türk xalqlarının deyimlərində, atalar sözlərində və ümumiyyətlə, folklor nümunələrində müşahidə edirik. Məsələn, "qız acı, oğlan baş tacı", "qız ağılı, qaz ağılı" "oğul tikər, qız sökər" kimi deyimlərdə qız və oğlan arasında olan dixotomik münasibət, birinin müsbət, digərinin isə mənfi mənalarda işləndiyini göstərir. Bu cür qarşıdurma türk dillərində universal xarakter daşımadığı üçün qrammatik normaya çevrilməmişdir. Lakin cinslərin kateqoriyalara görə bölümünü əks etdirən dillərdə qadın-kişi başlanğıcları arasında bölgü dixotomik mədəniyyət vasitəsilə dilə, dildən isə şüura sirayət etmişdir. Biz bunun bariz nümunəsini türk və Avropa, türk və ərəb mədəniyyətləri tarixinin müqayisəli araşdırılması nəticəsində müşahidə edə bilərik. Türk mədəniyyətində digərlərinə nisbətən gender simmetrasiyasının qorunması, öz təsdiqini qədim türk dastanlarında və şifahi xalq yaradıcılığında tapır. Türk dillərində cinsləri bildirən xüsusi isimlər arasında kəskin hədd qoyulmamışdır. Həm kişi, həm də qadın adlarını ifadə edən onlarla xüsusi adlar vardır: Arzu, Almaz, Fikrət, Tərlan, İsmət, İzzət və s.

Lakin bu sahədə geniş tədqiqatlara ehtiyac vardır. Çünki mədəniyyətin müasir feminist linqvistikası metodları vasitəsilə öyrənilməsi, məlum olmayan bir çox yeniliklərin əldə olunmasına şərait yaratmış olar.

# II FƏSİL. AZƏRBAYCANIN SOSİAL İNKİŞAFININ GENDER ASPEKTLƏRİ

## 2.1. Sosiallaşma prosesində gender meyarları

Gender sosiallaşması - cinslərin cəmiyyətdə özünəməxsus davranış və fəaliyyətlərində meydana çıxan sosial təcrübə, psixoseksual xarakter və dəyərlər sisteminin, həmçinin cinsi kimliyin əldə olunması və özünü əks cinsin nümayəndəsindən emosional şəkildə fərqləndirməyə imkan verən cinsi özünüdərk prosesidir. Son dövrlərdə bir çox inkişaf etmiş Avropa ölkələrində, qismən Bakı şəhərində ənənəvi gender kimliyinin tədricən zəifləməsi gender sosiallaşması məsələsini aktuallaşdırmışdır.

Gender sosiallaşmasına hər hansı bir cəmiyyətdə olan mədəniyyət təsir göstərir. Müxtəlif mədəniyyətlərdə yetişən insanların gender sosiallaşması prosesi də fərqli şəkildə inkişaf edir. Aparılan araşdırmalar göstərir ki, orta Azərbaycan qadınının səadəti üçün birinci yerdə övlad və ailə, ikinci yerdə ər, maddi şərait və məhəbbət, üçüncü yerdə ailə maraqları ilə uzlaşan iş həyatı və sonda karyera dayanırsa, orta amerikan qadınının səadəti üçün bu ardıcıllıq demək olar ki tərsinədir. Azərbaycan qadını öz övladının və ərinin uğurları ilə sevinir və ailəsinin gələcəyi onun üçün hər şeydən üstün tutulur [6,s. 38-40]. Orta amerikanlı qadın üçün fəxr mənbəyi olan şəxsi karyera hər şeydən əvvəl gəlir və bu işdə ailəsi, övladları ona maneçilik təşkil etmirlər [69,s. 46]. Bu qadınlar bioloji baxımdan fərqli olmasalar da, baxış aşısından bir-birindən çox fərqlənirlər. Çünki onlar fərqli mədəniyyətlərdə sosiallaşaraq fərqli gender stereotiplərinə malik olmuşlar.

Bu fərqliliklər bir mədəniyyət daxilində şəhər və kəndə görə də fərqlənir. Məsələn, Azərbaycanın bəzi kəndlərində qadınlar kişilərin gözü önündə bulaqdan ağır su qablarını və ya başı üzərində ağır qabları daşıyırlar. Kişilər isə bunu norma kimi qəbul edirlər. Şəhərdə isə qadınların ağır yük daşıması anormal hal kimi qəbul edilir. Kənd yerlərində qadınların kişilərlə bütün təsərrüfat işlərində bərabər çalışması normaldırsa, şəhərdə qadınların bir çox işlərdə (polis, ictimai nəqliyyat sürücüsü) kişilərlə birgə çalışması anormaldır. Bəziləri bunu qısqanclıqla bağlamağa çalışırlar.

Əslində, kişilər qadınların iqtisadi müstəqil və güclü olmasından qorxduqları üçün, onların bir çox sahələrdə çalışmasına mane olurlar. Məsələn, adətən kənd təsərrüfatı ilə məşğul olan əhali arasında qadınların sosial-iqtisadi rolu daima güclü olmuşdur. Kənd təsərrüfatı ailə həyatının tərkib hissəsi olduğu üçün, qadının rolu bütün sahələrdə kişilərlə müqayisədə üstünlük təşkil edirdi. Bu gün başqa yerlərdə olduğu kimi Azərbaycanda da kənd təsərrüfatı sahəsində qadınlar fəaldırlar [167].

Qədim dövrlərdə oturaq kənd təsərrüfatı ilə məşğul olan cəmiyyətlərdə qadın kultları geniş yayılmışdır. Lakin əksər köçəri əhali arasında qadınların sosial-iqtisadi rolu zəif olmuşdur. Məsələn, bədəvi ərəbləri buna görə qız uşaqlarını diri-diri məhv edirdilər. Lakin bəzi köçəri türk tayfalarında qadınlar kişilərlə bərabər döyüşlərdə iştirak etdikləri üçün, öz sosial-iqtisadi əhəmiyyətlərini artırırdılar. Yaponlar isə XX əsrin əvvələrinə kimi oğlan uşaqlarını körpəlikdən məhv edirdilər. Çünki onları qız uşaqları kimi satıb ərə verə bilmirdilər. Göründüyü kimi, gender stereotiplərinin formalaşmasında mədəni amillərlə yanaşı, sosial-iqtisadi amillər də böyük təsir gücünə malikdirlər [80,s. 50-51].

Gender rolları tarixi baxımdan dəyişikliyə məruz qalır. Məsələn, biz 100 il əvvəlki Azərbaycan qadını və ya kişisi ilə müasir Azərbaycan qadını və kişisini müqayisə etsək, böyük dəyişikliklərin baş verdiyini görə bilərik. Çünki bu dövr ərzində Azərbaycan mədəniyyəti dərin konstruktiv dəyişikliklərə məruz qalmışdır. Bir vaxtlar norma kimi qəbul olunan dəyərlər bu gün anormal, bir vaxtlar anormal kimi qəbul edilən dəyərlər isə bu gün normal hesab olunur. Çünki nəsillər fərqli mədəniyyətlər və mədəni dəyişikliklər çərçivəsində sosiallaşırlar. Bu təkcə Azərbaycanda deyil, bütün dünya xalqlarının mədəni tarixində baş verən hadisədir.

Gender sosiallaşmasının üç aspekti mövcuddur:

1. Koqnitiv – uşaq erkən olaraq özünü bir cinsə aid edir və mənsub olduğu cinsin rol və davranışları barədə təsəvvürləri mənimsəyir (V.E.Kaqan, İ.S. Kon, D. N.İsaev).
2. Emosional – maskulinlik və feminlik xüsusiyyətlərinin formalaşması ilə bağlı cinsi rolun seçilməsi, maraqların müəyyənləşməsi, dəyərlərin seçimi,

qiymətləndirməyə münasibətin yaranması, emosiyaların üzə çıxması və s. (T.Xrizman, A. Olşannikova)

3. Davranış – tipik cinsə aid olan davranış modelini mənimsəmək (İ.Kon, T. Repina, N. Plisenko) [124,s. 8].

Sosiallaşmanın əsas mexanizmləri – yamsılamaq, özünətəlqin, əminlik və identiklikdir. Uşaq kiçik yaşlarından öz cinsindən olan valideynini daha çox yamsılayır və özünü onunla identikləşdirir. Yaxud uşaq sonralar hər hansı bir filmdəki qəhrəmanla özünü identikləşdirə bilər. Təlqin və əminlik mexanizmi vasitəsilə valideynlər uşaqların hisslərinə təsir etməyə çalışırlar. Onlar cəmiyyətdə formalaşan müəyyən qadağalar və stereotiplər vasitəsilə uşağı gender sosiallaşması istiqamətində yönləndirməyə çalışırlar [168]. Məsələn, "qız özünü ağır aparar", "qız anasına kömək edər", "kişi dediyi sözə əməl edər", "kişi adını batırmaz" və başqa bu kimi yüzlərlə ifadələr cinslərin davranış normalarını tənzimləyir. Halbuki bu deyilənlərdə heç bir məntiq yoxdur. Qadın dediyi sözə əməl etməməli, yaxud adını batırmalıdır? Yaxud kişi anasına nəyə görə kömək etməməlidir? Göründüyü kimi, ənənəvi gender sosiallaşmasını təmin edən bu qadağa və stereotiplər, əslində, cinslərin özünü obyektiv şəkildə dərkinə maneçilik törədir.

Gender sosiallaşmasına təsir edən amillərdən biri də cəmiyyətdə ənənəvi şəkildə qəbul edilən normalardır. Bu normalar valideynlər, yaşlı insanlar tərəfindən şüuraltı şəkildə həyata keçirilir və uşaqlar da onları tədricən böyüklərdən mənimsəyirlər. Məsələn, müəyyən bir cəmiyyətdə kişilərin və qadınların saç düzümü, xarici görkəmi və geyim tərzləri müəyyən ənənələrə söykənir. Hamı bu ənənələri davam etdirərkən, bunun ona yaraşıb-yaraşmadığı barədə düşünmür. Uşaqlar da bu ənənələri valideynlərindən mənimsəyərək, onu təftiş etmədən davam etdirirlər. Tədqiqatçı A.Rüstəmova stereotiplərin müsbət tənzimləyici funksiyasını vurğulayaraq qeyd edir ki, "Stereotiplər cəmiyyətdə güclü tənzimləyici xüsusiyyətə malikdirlər. Stereotiplər sistemi ənənənin məğzini əhatə edə bilir, fərdə cəmiyyətdə mövqeyini müdafiə etmək imkanları yaradır və s. Dünyanın stereotip mənzərəsi bizim vərdiş etdiyimiz mühitdir, bu mühitdə biz özümüzü "evimizdə" hiss edirik. Görünür, elə bu səbəbdəndir ki, stereotiplərdə hər hansı bir dəyişiklik dünyaya müdaxilə kimi qarşılanır." [56,s.51].

Bəzən gender sosiallaşması prosesində rol münaqişəsi baş verir. Yəni valideynlər qız və ya oğlanlarını istəklərinin əksinə olaraq müəyyən peşə və ya ixtisaslara yönləndirir, yaxud onlardan ənənəvi ana və ya ata rollarını ifa etmələrini tələb edirlər. Lakin bəzi hallarda övladlar bunu yerinə yetirsələr də, daxilən ifa etdikləri rol ilə barışmırlar. Bu zaman onun öz daxili aləmi ilə ətrafındakı sosial normalar arasında toqquşma baş verir [132, s. 131-138].

C. Kondri və S. Kondri maraqlı bir təcrübə həyata keçirmişlər. Onlar iki qrup təşkil etmiş və onların diqqətinə yeddi aylıq uşağın davranışlarını əks etdirən video görüntü təqdim etmişlər. Qruplardan birinə onun oğlan, digərinə isə qız olduğunu bildirmişlər. Qrupdakı insanlar uşağın davranışlarını qiymətləndirməli idilər. Uşağın oğlan kimi təqdim olunduğu qrup, digər qrupdan fərqli olaraq, uşağın davranışlarını fəal, cəsarətli, canlı olduğunu bildirmişlər. Oğlan uşağının mənfi emosiyaları qəzəb, qız uşağında isə qorxu kimi dəyərləndirilmişdir. Bu təcrübə göstərmişdir ki, cəmiyyət qız və oğlanlara artıq doğulduğu gündən öz ənənəvi qiymətini verir [171].

Kişi və qadınlar yaşadıqları cəmiyyətdə olan sosial-mədəni obrazları seçir və tədricən onlara yiyələnirlər. Bu psixoloji amilləri cəmiyyət bioloji amillər kimi qələmə verməklə problemin mahiyyətindən uzaqlaşır. Lakin transseksual, tranvestis kimliklərin varlığı sübut edir ki, gender rollarının məzmunu bioloji deyil, gender kimliyi ilə bağlıdır [97, s. 21].

Adətən, şəxsiyyətin psixoloji strukturu öncə ailədə və sonra təhsildə formalaşır. Müasir dövrdə KİV də bu sahədə əsas yerlərdən birini tutur. Ailə, təhsil və KİV vasitəsilə təlqin olunan məlumatlar şəxsiyyətin gender kimliyini və onun sosiomədəni davranışlarını müəyyənləşdirir. Beləliklə, cinslərin sosiallaşması prosesi ilk əmək bölgüsü forması hesab olunan gender rollarını ortaya qoyur. Lakin mədəniyyətlər fərqli olduqları üçün, onlarda sosiallaşan insanların gender meyarları da fərqlidir.

XX əsrin 70-ci illərində Qərbdə formalaşan "cinsin yeni psixologiyası" istiqaməti (C.Stokkard, M. Conson, E. Makkobi, K. Ceklin, C. Mani, S.Bem) tərəfindən aparılan təcrübə və araşdırmalar nəticəsində gender rollarının mədəniyyətdəki sosial stereotiplər vasitəsilə ortaya çıxdığı təsdiq olundu [183].

Uşaqların təlim-tərbiyə yolu ilə mənimsədiyi gender kimliyi onların dünyaya baxışlarını və sosial davranışlarını müəyyənləşdirir. Çünki onların bioloji fərqləri mövcud sosial fərqlərin yaranmasına çox cüzi təsir göstərə bilər. İlkin gender sosiallaşması prosesi ailədə valideynlərin emosional münasibətlərinin, onların digər insanlarla əlaqələrinin təsiri ilə ortaya çıxır. Yəni uşaqlar bu münasibətlər sistemi əhatəsində kişi və qadının kim olduğunu tədricən kəşf edirlər. Bu isə onlarda tədricən özünüdərk prosesi ilə inkişaf etməyə başlayır.

Gender sosiallaşması prosesində gender simmetriyasının da rolu çox böyükdür. Ailədə ata və ananın övladların tərbiyəsində bərabər şəkildə əmək bölgüsü aparması, övladların gender dünyagörüşünün düzgün formalaşmasına təsir göstərir. Lakin ənənəvi cəmiyyətlərdə qadının səhərdən axşama qədər ev-məişət işləri ilə məşğul olması və uşaqların tərbiyəsində əsas rol oynaması, kişinin isə bütün gün ərzində evdə olmaması və ailədaxili əmək bölgüsündə iştirak etməməsi uşaqlarda belə təsəvvür yaradır ki, qadın ev işlərinə təhkim olunan, kişi isə bu prosesdə iştirak etməyən sosial varlıqlardır. Belə ailələrdə tərbiyə olunan uşaqlar tədricən öz analarına və atalarına mənimsədikləri baxışlar çərçivəsində qiymət verməyə başlayırlar. Buna görə də övladların tərbiyəsində valideynlərin birgə fəaliyyəti ailədə gender simmetrasiyasının təmin olunmasında əsas şərtdir.

Ailədəki vəziyyət uşaqların gender sosiallaşmasına təsir göstərir. Boşanmış ailələrdə qız uşaqları atalarına qarşı olan nifrəti ümumən bütün kişilərə olan münasibət formasına keçir. Yəni onlar bununla bağlı stress keçirirlər. Yaxud atasız böyüyən və ana və nənəsinin himayəsində olan oğlan uşaqları cinsi identiklik problemləri ilə üzləşirlər. Atanın ailədə həm oğlanın, həm də qızın cinsi identikliyinin formalaşmasında rolu böyükdür. Əgər ata övladların 5-6 yaşında evi tərk edib ailəsini başlı-başına buraxarsa, bu həm qızın, həm də oğlanın cinsi tərbiyəsinə mənfi təsir göstərər. Bu bəzən atanın öz övladları ilə gərgin münasibətlərində də meydana çıxır. Bu baxımdan ananın onların cinsi sosiallaşmasında rolu zəifdir. Yəni ailədə kişinin varlığı oğlanın kişiyə aid xüsusiyyətləri mənimsəməyə, qızların isə ona nəzərən özlərini qız kimi dərk etməyə, qadınlığı mənimsəməyə yardım edir. Gender sosiallaşması və gender identikliyi prosesi ana bətnindən başlayır. Valideynlər qız

övladının olacağını düşünərək, öz təsəvvürlərində müəyyən arzular yaradırlar. Lakin bu arzu və istəklər gələcəkdə doğulan oğlan uşağının formalaşmasına mənfi təsir göstərə bilər. Yaxud uşaq uzun müddət bir cinsin himayəsi altında tərbiyə aldıqda da bu baş verə bilər. Gender identikliyi cinsi identikliyi itirən uniform geyimlərdə, davranışlarda da təhrif oluna bilər. Bu özünü uşaqların davranışlarının əks cinsə meylində biruzə verir [189].

Uşaqların 3 yaşından sonra psixoloji olaraq oğlan və qız kimi formalaşmaları elmdə qəbul olunmuş faktdır. Yəni bu dövrdə uşaqlarda cinsi identiklik hissi zəif olur. Onlar gördüyü və eşitdikləri vasitəsilə cinsi özünüdərk mərhələsinə qədəm qoyurlar. Belə bir mərhələdə ailə və məktəbəqədər təhsildə onların yanlış stereotiplərlə tərbiyə olunması gələcəkdə onların cinsi identikliklərində böyük problemlər yaradır. Son dövrdə bir çox Avropa ölkələrində eynicinslilərin evlənməsi və belə ailələrin uşaqları himayəyə götürməklə bağlı qəbul edilmiş qanunlar cinslərin genderoloji sosiallaşmasına zərər vuran amildir[188].

Oğlan uşağı uç yaşdan sonra ana identikliyi çərçivəsindən çıxaraq ata identikliyi mərhələsinə qədəm qoyur. Lakin kapitalizm şəraitində atanın işlə bağlı evdən uzaqlaşması nəticəsində ailələrdə maskulin başlanğıc zəifləmiş və feminlik artmışdır. Bu, natamam ailələrin artmasına səbəb olmuşdur. Azərbaycanın bölgələrində kişilərin iş dalınca şəhərlərə əmək miqrasiyası etməsi, regionlarda bu kimi halların artmasına şərait yaratmışdır. Bu hallar uşaqlarda maskulin başlanğıc barədə qeyri-real və yanlış təsəvvürlərin formalaşmasına şərait yaradır. Nəticədə, uşaqların psixologiyasında maskulinlik qadının əlaqədar olmadığı hər şeylə eyniləşdirilir və özündə qadınla bağlı olan bütün başlanğıcların şüuraltına keçidinə şərait yaradır. Bu isə, cəmiyyətdə qadına qarşı mənfi hissləri formalaşdıran mexanizmə çevrilir. Beləliklə, kişinin üstünlüyü, tamlığı qadının əzilməsi, natamamlığı hesabına baş verir. Artıq oğlan uşaqları yanlış düşüncələr əsasında qızlara özlərindən zəif bir məxluq kimi baxmağa başlayırlar [74,s. 168-181].

Qız uşaqları isə oğlanlardan fərqli olaraq öz ilkin identiklərini davam etdirirlər. Buna görə ana-qız bağlılığı dərin köklərə malikdir. Oğlanlar isə bu bağlılıqdan 3 yaşından sonra tədricən ayrılmağa doğru üz tuturlar. Bu özünü daha çox evdən

kənarda öz həmyaşıdları ilə keçirdiyi vaxtlarda biruzə verir. Qız uşaqları isə adətən evdə ananın yanında ev işlərinə təhkim olunur. Çünki qızların bayırda öz rəfiqələri ilə vaxt keçirməsinə nə ailədə, nə də cəmiyyətdə müsbət baxırlar [174]. Lakin oğlanın bayırda öz dostları ilə sərbəst hərəkətlərinə haqq qazandırır və bunun onların "qız kimi olmamaq üçün" olduğunu iddia edirlər. Deməli, cəmiyyətin gender şüurunda "qız və ya arvad kimi olmaq" bir təhqir elementi kimi qəbul olunur. Yəni oğlan bir uğur, qız isə uğursuzluq əlaməti kimi dəyərləndirilir. Qadın ətrafdakıların münasibətindən kənarda özünü dərk edə bilmir. Çünki gender sosiallaşması onun şüurunu elə yönləndirir ki, o, öz əliylə öz imkanlarını məhdudlaşdırır və özünü reallaşdırmaq barədə təsəvvürlərdən məhrum qalır. Buna görə də qadının statusu dəyişməz olaraq qalır.

Ənənəvi Azərbaycan ailəsində keçmişdə olduğu kimi bu gün də oğlan uşaqlarına daha çox önəm verilir. Uşaqların doğulduğu gündən onlara münasibət fərqli olur. Bu dünyanın hər yerində belədir. Məsələn, qız uşaqları üçün adətən cəhrayı, oğlan uşaqları üçün mavi-göy rəngli paltarlar alınır. Həmçinin onlar üçün alınan oyuncaqlar, seçilən otaqlar da bir-birindən həm rənginə, həm də formasına görə fərqlənir. Adətən oğlanlara alınan oyuncaqlar avtomobil, silah, heyvan, mexaniki oyuncaqlardan ibarət olursa, qızlara alınan oyuncaqlar gəlincik, məişət əşyaları və mətbəx əşyalarından ibarət olur. Oğlan uşaqları avtomobil, ev, təyyarə, gəmi və döyüş səhnələrini rəsmə almaqla, qızlar isə qız, güllər, gül baxçaları, analar və körpə rəsmləri çəkməklə fərqlənirlər. Bunlar tədricən psixoloq Lorens Kolberqin tədqiqatlarında göstərildiyi kimi, 1-3 yaş arasında "oğlan" və "qızın" gender kimliyini müəyyənləşdirir. Bu kimlik statusunu qazanan cinslər özlərini reallaşdırmaq üçün, hələ bərkiməmiş gender rollarını davranış normalarına tətbiq etməyə cəhd göstərirlər. Bu da uşaqların özlərini böyüklərə bənzətmək istəyində aşkar olur [110,s. 233].

Valideynlər qızlardan fərqli olaraq oğlan uşaqlarına daha çox müstəqillik verir və onları öz hisslərini cilovlamaq, iradə əzmini sındırmamaq, gələcəkdə iqtisadi baxımdan müstəqil olmaq istiqamətində tərbiyə edirlər. Yəni oğlan uşaqlarının üzərində böyük tələblər və məsuliyyətlər qoyulur. Qız övladları isə ailənin ciddi

nəzarəti, himayəsi altında saxlanılır və qohum-qonşuların diqqət mərkəzində olur. Valideynlərin qız və oğlan övladlarına verdiyi fərqli tərbiyənin nəticəsində və cəmiyyətin onlara qarşı formalaşan ənənəvi münasibətləri zəminində qızlar adətən itaətkar, qeyri-fəal, nəzakətli, utancaq, qorxaq, mülayim, əxlaqlı, ənənəvi, oğlan uşaqları isə çox vaxt bu keyfiyyətlərin əksini mənimsəyirlər. Bu tərbiyə tədricən uşaqların psixofizioloji varlığında, onların hiss və davranışlarında əks olunaraq onları proqramlaşdırır. Beləliklə, cəmiyyətdə patriarxal düşüncə tərəfindən ənənəvi şəkildə qorunan gender stereotipləri formalaşır. Bu stereotiplər cəmiyyətdə ideal kişi və ideal qadın obrazları yaradır və cinslərin həmin obrazlara bənzəməyə dəvət edir. Bu ənənəvi obrazlara uymayan oğlan və xüsusilə qızlar valideynlər tərəfindən fiziki-psixoloji şəkildə cəzalandırılır və ictimai qınaq obyektinə çevrilirlər. Nəticədə, ailədə və sonra məktəbdə təlqin olunan bu stereotiplər normaya çevrilir və onların daşıyıcıları artıq digərlərindən bu normalara uymağı tələb edirlər. Biz bunu cəmiyyətdə gender sosiallaşması adlandırırıq [133,s. 56].

Z. Freydə görə qadının və kişinin ilk soisal-mədəni funksiyaları cinsi mənsubiyyətlərini dərk etdikləri dövrdən (3-4 yaş) ayrılaraq fərqli şəkildə inkişaf etməyə başlayır. Edip kompleksi oğulu ataya rəqib edirsə, ananın cinsi mənsubiyyəti isə övladlar tərəfindən kastrasiya cəzasının nəticəsi kimi dəyərləndirilir. Bu qorxu şüuraltı şəkildə inkişaf edərək, cəmiyyətdə qadının günahkar, kişinin isə xilaskar obrazını formalaşdırır. Bu nəzəriyyə obyektiv bioloji səbəbdən qadının günahkar və kişiyə qibtə edən passiv, qeyri-yaradıcı, asosial bir varlıq kimi qiymətləndirir və onun köləliyinə bu və ya digər dərəcədə haqq qazandırır. Bütün bunların nəticəsi odur ki, qadın bioloji baxımdan kişidən fərqli və natamam olduğunu şüuraaltı şəkildə mənimsəyir. Z. Freyd bu biodetermenist mövqedən yanaşaraq isteriyaya qapılmaq, kişiləşmək və ya "normal qadın olmaq" (cinsi həyat, uşaqlara qayğı və mətbəx) ilə bağlı qadının üç məhdud yolunun olduğunu irəli sürür [169].

Psixoanalitik feminizm tədqiqatçılarından olan Doroti Dinnerstain və Nensi Çodorou problemin kökünü daha dərində, yəni seksual inkişafın Edip kompleksinə qədərki mərhələsində (körpənin anaya sıx bağlılığı dövrü) araşdıraraq, kişi üstünlüyünü təmin edən seksuallıq və gender ölçülərinin məhz bu mərhələdə

formalaşdığını irəli sürürlər [135,s. 38-39]. Çünki bu mərhələdə qadın bədəni uşaq üçün hər şey (həm ağrı, həm ləzzət) olduğu üçün, uşaq da onu universal varlıq kimi qəbul edir. Biz onu həyat verdiyi üçün sevir, məhdudiyyət qoyduğu üçün sevmirik. Lakin sonrakı mərhələdə kişilər seksual baxımdan daha aqressiv olduqları üçün bu güclü asılılığın hakimiyyətindən xilas olaraq qadını və təbiəti idarə etməyə çalışırlar. Qadınlar isə, ananın gücü qarşısında uşaqlıq qorxusunu xatırlayaraq özlərindən çəkinirlər və öz hisslərini buxovlayaraq anadan uzaqlaşıb kişilərin nəzarəti altında qalmağa və onların istəklərini yerinə yetirməyə meyl edirlər. Bu meylin təməlində ana bağlılığını kişinin qadına olan məhəbbəti ilə qismən əvəzlənməsi dayanır [130,s. 50].

Kişilər əvvəlki "ana uşağı" mərhələsinə qayıtmamaq (xatırlamamaq) üçün, qadınlara qarşı öz hakimiyyətini və ondan asılı olmadıqlarını nümayiş etdirməyə çalışırlar. Nəticədə, birinin nəzarət etmək, digərinin isə nəzarət altında olmaq istəyi yanlış gender müqaviləsinin, yəni destruktiv insan münasibətlərini tənzimləyən paradiqmanın ortaya çıxmasına səbəb olur. Bu isə, qadınların özlərini şəxsiyyət kimi deyil, kişinin əksi olan bir başlanğıc kimi tanımasına şərait yaradır. Çünki ana da şəxsiyyət kimi deyil, universal bir obyekt kimi tanınır. Lakin kişi anadan (qeyri-müəyyən universal obyektdən) ayrıldığı andan, onun "Mən"i "O"ndan ayrıldı və beləliklə kişilər "Mən", qadınlar isə "O" oldu. Doroti Dinnerstainə görə vəziyyətdən qismən çıxış yolu uşaqların tərbiyəsində kişilərin də bərabər iştirak etmələridir [116,s. 88-89].

Nensi Çodorou qadınların ana olmaq istəyinin səbəbini ənənəvi baxışlarla (qadını təbiət ana yaratmış və cəmiyyət ondan bunu tələb etmişdir) deyil, psixoanalitik yolla izah etməyə çalışır. Qızların və oğlanların seksual inkişafının Edip kompleksinə qədərki mərhələsindən çıxdıqdan sonra oğlanın tədricən özünü anasından fərqli hiss etməsi və atanın nümunəsində özünü güclü və hakim qəbul etməsi, qızın isə anaya bağlılığının uzun müddət davam etməsi və sonra bu bağlılığın atanın nümunəsində gələcək ərə ötürülməsi onların gender stereotiplərinin və emosional münasibətlər sisteminin formalaşmasının təməlində dayanır. Analıq hisslərinin ifrat həddi qızları asılı, oğlanları isə emosional əlaqələrdən müdafiə olunmağa, yaxud analıq hisslərinin

azlığı uşaqların psixi inkişafına mənfi təsir edir. Buna görə də valideynlərin uşaqların tərbiyəsində bərabər iştirak etmələri, ana və uşağın ifrat bağlılığını ortadan qaldıracaq, sosial fəaliyyətlə məşğul olan ananın şüurunda onun övladı "dünyanın mərkəzi" olmayacaq, atasının təsiri ilə böyüyən oğlan uşağının ananın fədakarlıq gücündən qorxu hissi yaranmayacaq və nəticədə övladların gender şüurunun düzgün inkişafına şərait yaradacaqdır. Yəni qadınların köləliyinin əsas səbəbi, onların analıq institutu üzərində yaratdıqları ənənəvi inhisarçılıqdır [114,s.180].

Ənənəvi gender rolları ilə tərbiyə alan uşaqlar özlərini əks cinsin varlığından çox fərqləndirirlər. Onların sosiallaşmasında təkcə ailə deyil, həm də həmyaşıdlar böyük rol oynayırlar. Məsələn, oğlanlar özlərinə bənzəməyən oğlanları öz aralarında görmək istəmir və onlar çox vaxt qızlar arasında olurlar. Eynilə qızlar arasında da belədir [90,s. 212].

Əsas gender stereotiplərinə uyğunsuzluq bütün uşaqlarda psixoloji çətinliklər yaradır. Gender stereotiplərinə uyğunlaşmayan oğlan uşaqları mövcud vəziyyətdən öz iradəsi ilə çıxmasa, onlarda qadın başlanğıcı fəallaşmağa başlayır. Cəmiyyətdə isə, buna münasibət olduqca mənfidir. Qız uşaqlarında isə maskulinlik başlanğıcının inkişafına cəmiyyətdə münasibət o qədər də mənfi deyildir. Bu, ümumiyyətlə, feminliyin maskulinlikdən aşağı olması ilə əlaqədar stereotiplərdən irəli gəlir. Lakin biz ailədə uşaqların tərbiyəsində gender asimmetriyasının yarandığını nəzərə alsaq, vəziyyətin çox gərgin olduğunu görərik. Yəni oğlan uşaqları bu gün ailədə və orta təhsildə qadınların tərbiyəsi altında formalaşaraq feminləşirlər. Bu proses artıq cəmiyyətdə adi insanların da nəzərindən qaçmır. Bunun üçün ailə və təhsildə gender sosiallaşması prosesində gender bərabərliyinin təmin olunması və cinsi ayrıseçkiliyin ortadan qaldırılması məsələsi dövlətin əsas vəzifələrindən birinə çevrilməlidir.

Ənənəvi ailədə formalaşan gender rollarının və stereotiplərin təlqini prosesi ənənəvi məktəblərdə də davam etdirilir. Bu baxımdan ənənəvi modernist pedaqogika ilə müasir gender yönümlü postmodernist pedaqogika toqquşur. Feminist pedaqogika təhsildə müəllimdən şagirdə doğru istiqamətlənən iyerarhiya prinsipini inkar edərək, əvəzində bütün tərəfləri bilik prosesində bərabərləşdirən interaktiv təhsil prosesini önə çəkir.

Feminist pedaqogikaya görə, elmlərin çətin kişi (riyaziyyat, kimya, fizika) və asan qadın (ədəbiyyat, xarici dil, pedaqogika, biologiya) yönümlü olması və ya əmək dərslərinin qız və oğlanlar üçün fərqli olması ilə əlaqədar modernist bölgü yanlışdır. Onlar məktəb dərsliklərində gizli gender ayrıseçkiliyinin mövcud olduğunu, yəni dərsliklərdə qadınların, adətən, ailə-məişət təsvirlərində qeyri-fəal, köməksiz, aciz şəkildə əks olunduqlarını, kişilərin isə sosial-iqtisadi həyatın müxtəlif sahələrində fəal, cəsarətli, müstəqil şəkildə iştirakını əks etdirən təsvirlərdə göstərildiyini, qızların fiziki hərəkətlərinə məhdudiyyət qoyan geyim formalarının olduğunu, müəllimlərin oğlan və qızlara münasibətində və onları yönləndirmədə gender bərabərsizliyinin müşahidə olunduğunu irəli sürürlər [191].

Bu iddiallar müəyyən baxımdan doğrudur. Çünki araşdırmalar göstərir ki, bütün dünyada qızlar 4-5-ci siniflərə qədər oğlanlardan həm fiziki, həm də intellektual baxımdan üstün olurlar. Lakin yanlış gender təhsil və tərbiyəsi onların sonradan liderlik sahəsində oğlanlardan geri qalmasını təmin edir. Müasir postmodernist təhsildə bu cür ayrıseçkilik formaları və müəllimlərin şagirdləri gender rolları istiqamətində yönləndirməsi məsələləri aradan qaldırılır və təhsil alan insanlara gender təliminin dünyagörüşü sistemi öyrədilir. Bu yanaşma postmodenist düşüncədə mədəniyyətin, biliyin, təcrübənin, cinsi mənsubiyyətin təbii deyil, konstruksiya kimi dəyərləndirilməsindən irəli gəlir [103, s. 77].

Təhsildə digər problemlərdən biri də gender simmmetrasiyasının pozulması problemidir. Yəni məktəbəqədər və orta təhsil səviyyəsində (xüsusilə ibtidai təhsil) müəllimlərin 95% qadınlardan ibarətdir. Şəxsiyyətin formalaşması dövrünü əhatə edən bu mərhələlər həm də onun gender şüurunu müəyyənləşdirir. Buna görə də oğlan uşaqlarında feminləşmə prosesi tədricən artmağa başlayır. Çünki ailədə və təhsildə kişi tərbiyəsindən məhrum olan uşaqların tərbiyəsi birtərəfli şəkildə inkişaf edir. Bu problemin aradan qaldırılması üçün, məktəbəqədər və ibtidai təhsil sahəsində kişi müəllimlərin sayının artırılması və tərbiyə metodlarının genderoloji müstəviyə gətirilməsi zəruridir.

Qadın müəllimlər oğlan uşaqlarını düzgün tərbiyə edə bilmirlər. Çünki onların təfəkkürü fərqlidir. Qadınlar oğlanlara iradəli, güclü, dözümlü bir başlanğıc kimi

yanaşaraq, hərdən onların şəxsiyyətinə mənfi təsir göstərirlər. Çünki çox vaxt nəzərdə tutulan yanaşma, oğlan uşaqlarının təbiəti ilə ziddiyyət təşkil edir. Məsələn, qız uşaqları müəllimin verdiyi suallara daha tez və tam cavab verməyə çalışırlar. Lakin qızlardan fərqli olaraq oğlanlar verilən sual barədə daha çox düşündükləri və danışıq qabiliyyətləri zəif olduğu üçün, onların cavabları əksər hallarda müəllimləri qane etmir [83,s. 25]. Beləliklə, müəllimlərdə qızların daha bilikli və çalışqan olması barədə yanlış təsəvvürlər formalaşır. Bu isə oğlanlara münasibətdə yanlış fikirlərin ortaya çıxmasına səbəb olur və nəticədə, onların özünü aşağı qiymətləndirməyə, özünəinamın azalmasına və qabiliyyətlərinin üzə çıxmamasına şərait yaradır. Buna görə də müəllimlərin cinslərin imkanlarını və psixoloji xüsusiyyətlərini öyrənərək, onlara müvafiq şəkildə yanaşmalarına ehtiyac vardır. Bu, yeni təhsilin əsas prinsiplərindəndir [91,s. 3-6].

Təhsildə cinslərin fitri qabiliyyətlərini məhdudlaşdıran stereotipləri aradan qaldıraraq, onların fitri imkanlarını aşan və inkişaf etdirən yeni təhsil sisteminə ehtiyac vardır. Bu sahədə çalışan mütəxəssislərin üzərinə böyük iş düşür. Onlar başqa ölkələrdən gələn model və metodlara üstünlük verməkdənsə, öz mədəniyyəti və mənəvi dəyərləri içərisində bu problemin həlli üçün yararlı olan məqamları tapıb inkişaf etdirməlidirlər. Çünki onların reallaşma imkanları daha çoxdur. Bu baxımdan Azərbaycanda qədim türk mədəniyyəti ənənələrindən və İslam dininin genderlə bağlı ideyalarından yararlanmaq mümkündür.

Qız və oğlanları yanlız bioloji fərqlərinə görə səciyyələndirmək düzgün olmazdı. Onlar arasında müəyyən psixoloji və intellektual fərqlər də vardır. E. Makkobi, K. Ceklin tərəfindən aparılan araşdırmalara görə, qız və oğlanlar müəyyən məsələlərdə bir-birindən fərqlənirlər [107,s.122]. Məktəbəqədərki yaş dövründə olan qızlar oğlanlardan fərqli olaraq daha sosial və özünütəlqin gücünə malikdirlər. Qızlar daha sadə məsələlərin həllində daha uğurlu, oğlanlar isə daha mürəkkəb idrak proseslərində fəaldırlar. Qızlara irsiyyət, oğlanlara isə ətraf mühit daha çox təsir göstərir. Qızlarda eşitmə, oğlanlarda isə görmə və digər hisslər daha çox inkişaf etmişdir. Qızlar verbal, oğlanlar isə vizual-məkan və riyazi bacarıqlarda üstündürlər. Oğlanlar qızlardan fərqli olaraq daha aqressivdirlər. Lakin bu məsələlər birmənalı

şəkildə qəbul olunmur. Bu barədə alimlər arasında fikir ayrılıqları mövcuddur. [134,s.159-165].

Qızlarda eşitmə qabiliyyyəti inkişaf etdiyi üçün, onlar görmə imkanları geniş olan oğlanlardan fərqli olaraq dərsləri daha yaxşı qavrayırlar. Bunun aradan qaldırılması üçün dərslərin həm səsli, həm də görüntülü şəkildə tədris olunması vacibdir. Qızlar daha çox insanlar arasında xüsusi şəkildə qiymətləndirilməyə meyllidilərsə, oğlanlar müəyyən bir işdə əldə etdiyi uğurla əlaqədar qiymətləndirilməyə üstünlük verirlər. Bu cür yanaşmalar hər iki cinsin şəxsiyyət kimi formalaşmasına müsbət təsir göstərir [91,s.212].

Oğlanların dostyana çəkişmələri onlarda müsbət hisslər yaradır. Onların səs-küylü, risqli və fəal oyunlarına çox vaxt maneələr olur. Çünki müəllimlər çox vaxt bunu aqressiya kimi dəyərləndirirlər. Halbuki, bu onların inkişafına mənfi təsir göstərir. Oğlanlara qızlardn fərqli olaraq geniş məkan, genişlik tələb olunur. Onların maraq dairəsi, adətən, cisimlərlə və mübarizə ilə bağlı olur [162,s. 55].

Qızlar isə daha həssas və mərhəmətlidirlər. Onlar oğlanlardan fərqli olaraq insanlarla və onların münasibətləri ilə maraqlanırlar. Məktəbəqədər uşaqlar arasında bir təcrübə həyata keçirilmişdir. Onlar bir gözlə baxanda obyekti, digər gözlə baxanda üzü əks etdirən biokulyar cihazdan istifadə etmişlər. Qızlar üzü və üzün cizgilərini xatırladıqlarını, oğlanlar isə əşyanı və formanı yadda saxladıqlarını bildirmişlər [128] .

Məktəbəqədərki uşaqlar arasında aparılan təcrübələr göstərir ki, oğlanlar fəal hərəkətlər edərək özlərini təyyarəyə, maşına bənzədirlər. Lakin eyniyaşlı qızlar öz aralarında hansı oğlandan xoşlandıqları və hansının maraqsız olduğu barədə söhbət edirlər. Oğlanlar isə əşya və fəaliyyətləri, kimin nə etdiyini, necə etdiyini və ya hər hansı bir işin necə etmək gərəkdiyini müzakirə edirlər [129,s.46].

Qızlar sinifə gələn yeni uşağı mehribanlıqla, mərhəmətlə qarşıladıqları halda, oğlanlar ona biganə olur və ya ondan səmərə gördükdə öz dəstələrinə qəbul edirlər. Günün sonunda onlar təzə gələn uşağın adını və kim olduğunu bilməsələr də, onun oyunda yaxşı və ya pis oynadığını müəyyənləşdirirlər[128].

Qızların qrupunda qarşılıqlı ünsiyyətə bağlanan əməkdaşlıq hökm sürür və hər bir qızın sirlərini bölüşdüyü rəfiqəsi vardır. Qızlar arasında lideri müəyyənləşdirmək, ilk baxışdan çox çətindir. Lakin oğlanlar qrupunda iyerarhiya sistemi və ona rəhbərlik edən özünəarxayın avtoritar lider vardır. Hər bir oğlan qrupda öz statusunu artırmağa çalışır. Çünki hakimiyyət və status bu qrupun əsas dəyəridir. Oğlan bunu öz qətiyyətli danışığı və lazım gəldikdə fiziki zor tətbiq etməklə əldə edir [175].

Kerol Qilliqan uşaqların oyunlarını tədqiq edərək belə bir fikrə gəlmişdir ki, oğlanlar oyunun mücərrəd qaydalarına ciddi əməl etməyə səy göstərdikləri halda, qızlar qarşılıqlı razılaşma yolu ilə oyunun qaydalarını daha rahat istiqamətdə dəyişməyə meyllidirlər. Buna görə də, kişilər problemlərin həllində daha çox sosial-əxlaqi mövqeyə (ədalət, düzlük, qayda və normalar), qadınlar isə ailə, dost mövqeyinə (istək, ehtiyac, maraq, insanların cəhdi) üstünlük verirlər. Lakin kişilərin mövqeyi çox məhdud olduğu üçün, ona qadın mövqeyini də əhatə edə bilən yeni ortaq mövqedən yanaşmasına ehtiyac vardır. Çünki qadınlar kişilərdən fərqli olaraq münasibətlərin formal deyil, mənəvi tərəfini dəyərləndirir, qəbul edilən qərarların qaydalara uyğun olmasını nəzərə alan kişilərdən fərqli olaraq, qərarın kiməsə zərər gətirib-gətirməməsinə diqqət yetirir və etdiyi səhvə görə üzr istəyirlər. Buna görə qadınların qərarları konkret hadisələrə yönələn emosional-əxlaqi yanaşma olduğu halda, kişilərin yanaşması isə çox vaxt yerli şəraitə uyğunlaşmayan mücərrəd normaları əks etdirir. K.Qilliqan belə nəticəyə gəlir ki, kişilərin əxlaqı universal "ədalət etikası"na, qadınların əxlağı isə fərdi "qayğı etikası"na əsaslanır. Lakin tədqiqatçının fikirləri bir çox feministlər tərəfindən təkzib olundu və böyük mübahisələrə yol açdı [87,s. 54].

Əlbəttə, aparılan bu sosial-psixoloji eksperimentlərin nəticələri düşündürücüdür. Bu nəticələr və cinslərarası fərqlər nəzərə alınmadan gender sosiallaşmasını doğru şəkildə istiqamətləndirmək mümkün deyildir. Buna görə də biz feminist nəzəriyyələrlə patriarxal yanaşmalar arasında orta mövqedə dayanmağa üstünlük veririk. Yəni cinslərin gender fərqləri sosial konstruksiya xarakteri daşısa da, onları bir-birindən fərqləndirən müəyyən fiziopsixoloji xüsusiyyətlər də mövcuddur. Onlar cinslərin müəyyən baxımdan sosial gender fərqlərinin formalaşmasına öz təsirini

göstərir. Lakin gender fərqləri, əsasən, mədəniyyətdən və mədəni ənənələrdən qaynaqlanır.

Kapitalizm və sosializm sistemləri yeni şəhərləşmə prosesləri ilə əlaqədar olaraq ilk dəfə cəmiyyətin təsərrüfat həyatını ailə həyatından ayırmışdır. Nəticədə, kişilər evdənkənar təsərrüfat həyatına, qadınlar isə məhdud evdaxili təsərrüfat həyatına cəlb olunmuşlar. Lakin qadının ailədə ev işlərinə təhkim olunmasını və kişinin ailəni təmin edən məsul bir qüvvə olduğunu dəstəkləyən dəyərlər sistemi idarəçilərin maraqlarına zidd idi. Çünki kişilər həmkarlar ittifaqları vasitəsilə öz zəhmətləri qarşılığında "ailə məvacibi" tələb edir və qadınların işə cəlb olunmasını isə rədd edirdilər. Bu problemlərin ortadan qaldırılması üçün, sosial statusuna görə ucuz və itaətkar işçi qüvvəsi olan qadını evdən istehsala cəlb etmək lazım idi.

Qadın ucuz və itaətkar işçi qüvvəsi kimi daima kişilərə rəqabət təşkil etmiş və bununla ümumi məvaciblərin endirilməsinə şərait yaratmışdır. Bu vəziyyət bir çox qadınların da maraqlarına uyğun gəlirdi. Onların bəziləri bununla məhdud və sıxıcı evdaxili mühitdən qurtulub qismən müstəqillik əldə edirdilər. Lakin qadınların kütləvi şəkildə istehsala cəlb olunması onları ailə həyatından qismən uzaqlaşdırır və nəticədə boşanmaların artmasına şərait yaradırdı. Maddi maraqlar qadınların iqtisadi müstəqillikləri ilə bağlı bir çox feminist nəzəriyyələrin ortaya çıxmasına öz təsirini göstərmişdir.

Azərbaycanda XX əsrin əvvələrində qadınların savadlanması və işə cəlb olunması üçün qadın klubları yaradılmışdır. Lakin 1927-ci ildə Azərbaycanda işləyən qadınlar ümumi işləyənlərin 4,5% (4 min nəfər) təşkil edirdi. Çünki Azərbaycan ərazisində umumi savadlılıq 1897-ci ildə 6,2%, 1917-ci ildə 9,3% idisə, qadınların 96,7% savadsız idi [123,s.23]. Qadınların işləməsinə mane olan əsas amil onların cadra ilə örtünməsi (əsasən, şəhər yerlərində) və evdən kənara çıxmaması ilə bağlı stereotiplər olmuşdur.

Azərbaycan Sovet İttifaqı və ondan əvvəlki ADR dövründə də öz tarixi-mədəni ənənələrinə sadiq qalaraq qadın hüquqlarının təmin olunması sahəsində bir çox uğurlar əldə etmişdir. Yəni o dövrlərdə qızların erkən ərə verilməsinin (9-13 yaşlarında) qarşısı alınmış, onların tədricən savadlanaraq ictimai həyata

inteqrasiyasına şərait yaradılmışdır. I və II Dünya Müharibələrində qadınların kütləvi olaraq, əsasən, arxa cəhbədə kişiləri əvəz etməsi, müharibədə həlak olan kişilərin gender rollarını öz üzərlərinə götürmələri, tədricən fiziki əməyi daha çox intellektual əməklə əvəz edən industrial və postindustrial cəmiyyətin formalaşması dünyada, həmçinin Azərbaycanda onların texniki biliklərə yiyələnmək zərurəti ilə üzləşərək savadlanmasına, kütləvi şəkildə sosiallaşmasına və müharibədən əziyyət çəkən cəmiyyətlərin feminləşməsinə şərait yaratdı.

Dünyanın ideoloji sosializm və kapitalizm qütblərinə bölünməsi, şəhərləşmə, sosial-iqtisadi inteqrasiya proseslərinin artması, əsasən, şəhər qadınlarının məhdud milli, irqi, dini və etnik kimliklərdən tədricən uzaqlaşaraq kosmopolit və siyasi-ideoloji kimliklərdə təmsil olunmasına (sovet qadını) və qadın hərəkatlarının beynəlmiləl xarakter almasına təkan verdi. Bu cür beynəlmiləlçilik 50-60-cı illərdən sonra Bakı şəhərində də açıq şəkildə müşahidə olunurdu. Bu isə, xüsusilə Bakı şəhərində bəzi ənənəvi gender stereotiplərinin zəifləməsinə gətirib çıxardı. Lakin sovet rəhbərliyi dövlət idarəetmə sistemini ənənəvi patriarxal dəyərlər üzərində formalaşdırdığı üçün, cəmiyyətdə gender asimmmetriyasının tamamilə aradan qaldırılmasının tərəfdarı olmamış və bu sahədə məqsədyönlü dövlət siyasəti həyata keçirmişdir. Qadınlar öz kiçik məvacibləri ilə öz tələbatlarını ödəyə bilməmiş və buna görə də “ev xanımı” olmağa, ər himayəsinə ehtiyac duymuşlar. Yaxud qadınların sovet cəmiyyətində bir çox əmək sahələrində iştirakına imkan verilməmişdir.  Adətən Sovet Azərbaycanında qadınlar ibtidai təhsil və tibb sahəsində rəhbər vəzifələrdə çalışmamışlar. Buna görə də, digər sovet respublikalarında olduğu kimi, Azərbaycanda da müəyyən gender problemləri öz həllini tapmamışdır.

XX əsrdə baş verən mürəkkəb sosial-tarixi proseslərin mənfi tərəfləri ilə yanaşı, müsbət tərəfləri də olmuşdur. Ümummilli Lider Heydər Əliyev bu barədə deyir: “XX əsr Azərbaycan qadınlarının da həyatında çox əlamətdar olmuşdur. Əsrin əvvəllərində Azərbaycanda baş vermiş ictimai-siyasi proseslər, neft sənayenin intensiv inkişafı qadınların maariflənməsində və ictimai həyatda iştirakına güclü impuls vermişdir. XX əsrin əvvələrində görülmüş tədbirlər nəticəsində qadınların hərtərəfli inkişafı üçün geniş üfüqlər açılmışdır. Qısa müddət ərzində qadınlar

arasında savadsızlıq aradan qaldırılmış, onların təhsil səviyyəsi sürətlə yüksəlmişdir. Qadınlar pedaqoq, həkim, mühəndis və digər peşələrə sahib olmış, təhsil, elm və mədəniyyət sahəsində kişilərlə yanaşı ləyaqətlə təmsil olunmuşlar."[8].

Bu gün Azərbaycanda qadının işləməsi ilə bağlı mövcud olan stereotiplərin bir qismi sovet dövründə ortadan qalxmışdır. Sovet İttifaqının süqutundan sonra ortaya çıxan Dağlıq Qarabağ münaqişəsi zamanı məcburi köçkün vəziyyətinə düşmüş minlərlə insanın ağır həyat şəraiti və keçid dövrünün ağır sosial-iqtisadi böhranı ilə əlaqədar minlərlə əmək qabiliyyətli kişi əhalisinin iş dalınca qonşu ölkələrə əmək miqrasiyası etməyə məcbur qalması, cəmiyyətdə gender demoqrafiyasının pozulmasına, tədricən ənənəvi gender rollarının dəyişməsinə, ailə institutunun zəifləməsinə və cəmiyyətdə feminləşmə prosesinin başlamasına şərait yaratdı. Bu tarixi keçid vəziyyətində yaranan patriarxal hakimiyyət boşluğu feminizm ideyalarını aktuallaşdırdı və bu özünü 1990-1997-ci illərdə dövlət iqtisadiyatında kişilərin payının 5,1% azalması müqabilində qadınların payının iqtisadiyyat və digər sahələrdə artmasında (səhiyyə 70%, təhsil 68%, jurnalistika 40% və s), ictimai birlik və siyasi partiyalarda yaranan qadın komitələrində, 40-dan çox qeydiyyatdan keçmiş qadın QHT-da biruzə verdi [167]. Qadınlar sosial-iqtisadi böhran durumunda ortaya çıxan sosial-psixoloji mühitə daha tez uyğunlaşaraq cəmiyyətin rəqabətədavamlı məhsuldar qüvvəsinə çevrildilər. Onların bir qismi artıq təmsil olunduqları ənənəvi əmək sahələrindən qeyri-ənənəvi əmək sahələrinə istiqamət götürdülər. Azərbaycanın geosiyasi mövqeyi və neft strategiyası dünya birliyinə inteqrasiyasını sürətləndirmişdir. Buna görə də, Azərbaycanda gender siyasətinin həyata keçirilməsi prosesi böyük maneələrlə üzləşmədi. Əksinə, bir çox beynəlxalq fondlar ölkədə qadınların sosial həyatda fəallaşması ilə bağlı bir çox layihələr həyata keçirdi.

BMT-nın məlumatlarına görə qadınlar dünya əhalisinin 50 %-dən çoxunu təşkil etdikləri və iş saatlarının 66 %-dən çoxunu təmin etdikləri halda, dünya gəlirinin 10 %-nə, dünyadakı sərvətin 1%-nə sahibdirlər. Nüfuzlu Social Watch beynəlxalq təşkilatının 2007-ci il üzrə gender bərabərliyi indeksinə (Gender Equity Index 2007 - GEI) görə Azərbaycan 154 ölkə arasında 73-cü yeri tutmuşdur (62 balla) [198].

Bakıda "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda keçirilən beynəlxalq forumda Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva öz çıxışında Azərbaycan qadınının sosial həyatdakı rolunu aydın və ətraflı şəkildə belə şərh etmişdir: "Bu gün qadınlarımız idarəetmə, hüquq və məhkəmə sistemində təmsil olunur, ölkənin ictimai və siyasi həyatında fəal iştirak edirlər. Onlar ölkə üzrə məktəb müəllimlərinin 71, həkimlərin 61, elmi işçilərin isə 50 faizini təşkil edirlər. Bu yolu Azərbaycan qadını 90 il ərzində keçmişdir. Bütün bunlarla yanaşı, Azərbaycan qadını ailə dəyərlərinin qorunub saxlanması kimi mühüm bir sahədə də öz layiqli töfhəsini vermişdir. Şərq ilə Qərb dəyərlərini özündə birləşdirən Azərbaycan, beləliklə, gender məsələsində də nümunə ola bilər." [47,s. 15-16].

Azərbaycanda qadınlar ölkənin sosial, iqtisadi, siyasi və mədəni həyatının dövlət və qeyri-dövlət sektorlarında bu və ya digər dərəcədə təmsil olunmuşlar. Lakin cəmiyyətdə işsiz, işləmək imkanlarından məhrum edilən və ya məhrum olan, işdə istismar edilən və əmək hüquqları pozulan, müxtəlif əmək sahələrində işləməsi qeyri-mümkün hesab olunan qadınlar da vardır. Əlbəttə, bu kimi hallar kişilərə də qarşı tətbiq olunur. Lakin müvafiq halların gender baxımından təhlili bizi maraqlandıran əsas məsələdir. Buna görə də statistik materiallar əsasında biz cəmiyyətin ayrı-ayrı sahələrində müvafiq halların gender təhlilini aparmağa çalışacağıq.

### 1. *İşsiz əhalinin gender bölgüsü*

2011-ci ildə məşğulluq xidmətləri orqanlarında işsiz statusu alan şəxslərin tərkibinə nəzər salsaq görərik ki, işsiz qadınların əksər hissəsi təhsil müəssisələrinin məzunları (17.2 %) və əmək fəaliyyətində 1 ildən çox fasiləsi olanlardır (25.9 %). Kadr axını nəticəsində işdən azad olunanlar (33.1 %) və struktur dəyişikliyi ilə bağlı işini itirənlər (23.6 %) arasında qadınların faizi kişilərdən aşağıdır (cədvəl 1) [167].

2011-ci ildə məşğulluq xidmətləri orqanlarında işsiz statusu alan şəxslərin yaş qruplarına üzrə bölgüsündə məlum olmuşdur ki, işsiz qadınların sayı kişilərdən pensiya qabağı yaş həddində olan qrupda 15,8% və 20-24 yaşda olan qrupda 0,6% çox olmuşdur [167].

Şəhər yerlərində kişilər arasında işsizliyin səviyyəsi (4.3 %) kənd yerlərinə nisbətən (4.6 %) aşağıdır. Şəhər yerlərində qadınlar arasında işsizliyin səviyyəsi (7.4 %) kənd yerlərinə nisbətən (5.3 %) yüksəkdir. Ümumiyyətlə, qadınların işsizlik səviyyəsi 58.2 %, kişilərdə isə 41.8 %-dir. Əhali arasında işsizliyin ən yüksək səviyyəsi qadınlar arasındadır. Qadınların əksər yaş dövrlərində işsizlik müşahidə olunur (cədvəl 2) [167].

İşsiz qadınlar arasında 88.8% ibtidai təhsili olanlar təşkil edir. Kişilər arasındakı işsizlərin 11.1%-ni ibtidai təhsili olan kişilər təşkil edir. Tam və ümumi orta təhsilli qadınlar arasında işsizlik səviyyəsi təqribən 60% təşkil edir. Ümumiyyətlə, bütün təhsil səviyyələrində işsiz qadınların sayı kişilərdən çoxdur [167]. Kişi və qadın məşğulluğu arasında keyfiyyət fərqi onunla bağlıdır ki, kişilər qadınlara nisbətən məşğulluq xidmətlərindən istifadə etmədən müstəqil olaraq daha tez iş tapırlar. Qadınlar isə iş üçün məşğulluq xidmətlərinə daha çox müraciət edirlər.

İqtisadi qeyri-fəal əhalinin kateqoriyalar və cins üzrə bölgüsü göstərir ki, ev işlərini yerinə yetirən, uşaqlara və digər ailə üzvlərinə qulluq edənlər arasında qadınlar 93.5%, kişilər isə 6.5% təşkil edirlər. Onlardan mülkiyyətdən gəlir alanlar arasında qadınlar 7.1%, kişilər isə 92.9% təşkil edirlər. Lakin işsizlik səviyyəsi 2000-2012 illər ərzində həm qadınlar, həm də kişilər arasında tədricən azalan dinamika üzrə davam edir [167].

Statistik göstəricilərin təhlili onu deməyə əsas verir ki, qadınlar işsizlik səviyyəsinə (58.2 %) görə kişilərdən (41.8 %) geridə qalırlar. Lakin bu tendensiya tədricən azalmağa doğru yönəlir. Bu göstəricilər məşğulluq xidmətləri orqanlarında işsiz statusu alan qadınlara aiddir. Biz bəzi milli stereotiplərlə əlaqədar qadınların əksəriyyətinin belə orqanlara müraciət etməmələrini nəzərə alsaq, onda işsizliyin səviyyəsinin qadınlar arasında daha yüksək olduğunu söyləmək olar. Qeydə alınan statistik göstəricilər əsasında qadınların işsizlik səbəblərini aşağıdakı kimi səciyyələndirə bilərik:

1. İşsiz qadınların əksər hissəsinin təhsil müəssisələrinin məzunları (54.8 %) və əmək fəaliyyətində 1 ildən çox fasiləsi olanlar arasında olması (57.1 %), həmçinin ev işlərini yerinə yetirən, uşaqlara və digər ailə üzvlərinə qulluq

edənlər arasında qadınlar 93.5%, kişilər isə 6.5% təşkil etməsi, bütün yaş qruplarında qadınların işsizlik məsələsində kişilərdən geridə qalması göstərir ki, qadınların işsizlik səbəblərindən ən başlıcası onların bütün yaş dövrlərində ev-ailə işlərinə cəlb olunmasıdır. Yəni qadınların ərə getmələri, analıq məzuniyyətinə çıxmaları, övlad böyütmələri, ev işlərində bütün məsuliyyətləri öz üzərlərinə götürmələri və nəhayət nənəlik qayğılarını həyata keçirmələri, qadının bütün ömrünü ailəyə həsr etməyə və onun işdən, karyera həyatından uzaqlaşmasına şərait yaradır.

2. İşsiz qadınların əksəriyyəti (88.8%) təhsil səviyyəsi çox aşağı olan qadınlardır. Şəhər yerində yaşayan qadınların (7.4 %) kənd qadınlarına nisbətən (5.3 %) daha çox işsiz olmasının səbəbi urbanizasiya prosesinin pozulmasından və savadsızlıqdan xəbər verir. Yəni şəhərdə yaşayan qadınların böyük bir qismi kəndlərdən şəhərə miqrasiya etdikləri üçün, onların şəhər yerlərində özünəməxsus iş tapmaları və adaptasiya olmaları çətinləşir. Savadsız şəhər qadınları az intellektual və ya ağır zəhmətə əsaslanan iş yerlərində qismən təmsil olunurlar. Digər qismi isə işləməkdən imtina edir və bunun ərlərinin məsuliyyəti kimi qəbul edirlər. Əksər kişilər isə, qadınların şəhər yerlərində çox məhdud sahələrdə işləməsinə razılıq verirlər. Kənddə yaşayan qadınların əksəriyyəti öz həyətyanı və ya başqa ənənəvi kənd təsərrüfatı sahələrində ağır işlər görmələrinə baxmayaraq, ərləri tərəfindən məzəmmət olunmurlar. Deməli, əksər qadınların işsizlik səbəblərindən biri də, cəmiyyətdə ictimai qınağa gətirib çıxaran namus və qeyrətlə bağlı stereotiplərdir.

Statistik göstəricilərin təhlilinə əsasən qadınların işsizlik və ya işlədiyi sahələrdə gender bərabərsizliyinin səbəblərini aşağıdakı kimi səciyyələndirə bilərik:

- ölkədə, xüsusilə bölgələrdə ümumi işsizlik səviyyəsi;
- bölgələrdən şəhərə əmək miqrasiyası edən qadınlar (həmçinin kişilər) arasında savad və peşəkarlıq problemləri;
- bəzi əmək sahələrində qadınların işləməsinə şərait yaradan sosial-psixoloji mühitin olmaması;
- əksər qadınların ərə gedərək karyera qurmaq fikrindən uzaqlaşması;

- hamilə olan, analıq məzuniyyətinə çıxan və övlad böyüdən qadınların işə cəlb olunmaması;
- qadınların bütün yaş dövrlərində ev işlərində və övlad yetişdirməkdə məsul tutulması;
- əksər qadınların "ev xanımı" və ya "ana" statusu ilə razılaşaraq işləmək istəməməsi;
- qadının işləməsinin ailədə münaqişə yaratması ilə bağlı stereotiplər;
- işləyən qadının mənəvi-əxlaqı tənəzzülə düçar olması ilə bağlı stereotiplər;
- bir qrup qadınların zorla evə təhkim olunması və s.

2. *İşləyən əhalinin əmək sahələrinə görə gender bölgüsü*

İşləyən əhalinin gender bölgüsündən bəhs edəndə, biz dövlət və qeyri-dövlət sektorlarında işləyən, müxtəlif sosial fəaliyyət sahələrini təmsi edən cinslərin gender bölgüsünü araşdırmalıyıq. Məşğul əhalinin əsas iş yeri və cins üzrə bölgüsündən məlum olur ki, qadınlar dövlət müəssisələrində, idarə və təşkilatlarda 21.7 % ilə, fərdi əmək fəaliyyəti ilə məşğul olanlar arasında 31.0 % ilə təmsil olunaraq kişiləri keçmişlər (17.8 % və 22.5 %). Lakin qadınlar qeyri-dövlət müəssisələrində, idarə və təşkilatlarda 6.9 % ilə, hüquqi şəxs yaratmadan fiziki şəxs kimi sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar arasında 9.4 % ilə təmsil olunaraq kişilərdən (16.9 % və 14.7 %) geridə qalmışlar. Gender bərabərliyi yanlız ailə kəndli təsərrüfatlarında (qadınlar 31.0 %, kişilər 28.1 %) müşahidə olunur. Yəni iqtisadiyyatın dövlət müəssisələrində, idarə və təşkilatlarda, ailə kəndli təsərrüfatlarında çalışanlar və fərdi əmək fəaliyyəti ilə məşğul olanlar arasında qadınların sayı kişilərə nisbətən müvafiq olaraq 7,2 %, 2,0 % və 13,0 % çox olmuşdur (cədvəl 3). [167].

Hər iki cins arasında yüksək məşğulluq səviyyəsi 25-54 yaşda müşahidə olunur İqtisadi əmək fəaliyyəti ilə məşğul olan qadınların 12,7 %, kişilərin isə 18,9 % ali təhsillidir. İlk peşə-ixtisas təhsili olan məşğul qadınlar təxminən kişilərdən iki dəfə (3.6 % - 6.7 %) geridə qalırlar. Məşğul əhalinin əsas kütləsini tam orta təhsilli əhali (qadınlar 63.4 % və kişilər 60.0 %) təşkil edir. Ibtidai təhsil səviyyəsinə görə məşğul əhalinin göstəricisi (qadınlar 1.6 % və kişilər 0.4 %) çox aşağıdır. Məşğul qadınların

65,5 %, kişilərin isə 69,2 % rəsmi qeydə alınmış nikahdadır. Qadınlar arasında rəsmi qeydə alınmamış nikahda olanlar 1.3 %, dullar 9%, boşanmışlar 3.5%, ayrılmışlar 1.2 %, heç vaxt nikahda olmayanlar 19.5% təşkil edirlər [167].

Aparılan statistikaya görə məşğul qadınların sayı məşğul kişilərə nisbətən su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində, ticarət; informasiya və rabitə sahəsində, maliyyə və sığorta fəaliyyətində, peşə, elmi və texniki fəaliyyət sahəsində, inzibati və yardımçı xidmətlərin göstərilməsində, nəqliyyat vasitələrinin təmiri sahəsində, təhsildə, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsində, istirahət, əyləncə, incəsənət və digər sahələrdə çox olmuşdur. Lakin qadınlar mədənçıxarma və emal sənayesi, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, tikinti, nəqliyyat və anbar təsərrüfatı, turistlərin yerləşdirilməsi və ictimai iaşə, dövlət idarəetməsi və müdafiə, sosial təminat sahələrində kişilərdən geridə qalırlar. Gender bərabərliyi yanlız su təchizatı, tullantıların təmizlənməsi və emalı, maliyyə və sığorta fəaliyyəti, daşınmaz əmlakla əlaqədar əməliyyatlar sahələrində müşahidə olunur (cədvəl 4).

2011-ci ildə iqtisadi fəaliyyət növləri üzrə muzdla işləyənlərin orta aylıq nominal əmək haqqı hesablanmışdır. Eyni sahədə təmsil olunan cinslərin orta aylıq nominal əmək haqqlarında kişilərin xeyrinə olan fərq hərdən iki dəfəyə yaxınlaşır. Qadınların kişilərdən ən çox öndə olduğu sahələrdə də qadınların orta aylıq nominal əmək haqqı kişilərinkindən xeyli geridə qalır (kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsini çıxmaq şərti ilə). Cinslərin bərabər təmsil olunduqları fəaliyyət sahələrində də maaşların həcmində kişilərin xeyrinə iki dəfəyə yaxın fərq qoyulmuşdur [167]. (Cədvəl 4 və 5). Araşdırmalar göstərir ki, qadınların ən çox, ən az və bərabər təmsil olunduqları sahələrin gəlir miqdarı, kişilərin ən çox, ən az və bərabər təmsil olunduqları sahələrin gəlir miqdarından daima aşağıdır. Lakin qadınların 44% təşkil etdiyi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində gəlir miqdarı qadınların xeyrinə olaraq kişilərinkindən cüzi fərqlənir [167].

Qadınların ən çox təmsil olunduqları digər sahə də ticarət (qadınlar 17.1 % - kişilər 12.0 %) sahəsidir. 2011-ci ildə fəaliyyət növləri üzrə fərdi sahibkarların gender

bölgüsü aparılmış və müəyyən olunmuşdur ki, qadınlar fərdi ticarət sahəsində (50.01 % yəni 29550 nəfər ), kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində (8.77 % yəni 5184 nəfər) və daşınmaz əmlakla əlaqədar əməliyyatlar sahəsində (4.24 % yəni 2506 nəfər) qismən irəliyə getmişlər  Bu qadınlar arasında məhz bu sahələrdə fərdi sahibkarlıq meyllərinin gücləndiyini göstərir. Lakin ölkədəki qadın sahibkarların çoxu ölkənin Bakıdan kənar regionlarında fəaliyyət göstərirlər. [167].

Qadınların ən az təmsil olunduğu yerlərdən biri də dövlət idarəçiliyi sahəsidir. 1990-cı ildə Parlamentdə qadınların sayı 15 nəfər (4.3 %), kişilərin sayı isə 335 nəfər (95.7 %) idisə, 2009-cu ildən 20 nəfər (16 %), kişilər isə 111 nəfər (84 %) olmuşdur [167].

Qadınlar ənənəvi olaraq cəmiyyətdə ucuz işçi qüvvəsi kimi dəyərləndirilir və onların iqtisadi hüquqları əksər hallarda pozulur. 2011-ci ildə sənayedə əlverişsiz əmək şəraitində çalışan qadın və kişilərin vəziyyətinin araşdırılması göstərir ki, sanitar-gigiyena normalarına cavab verməyən şəraitdə işləyən qadınlar 11.1%, kişilər isə 16.1% təşkil edirlər [167].

Bu qadınlara qarşı ayrıseçkiliyin bir nümunəsidir. Feministlər bunu patriarxal cəmiyyətdə kişilər tərəfindən həyata keçirilən məqsədyönlü siyasətin nəticəsi kimi dəyərləndirirlər. Onlara görə qadın və kişi peşələri mövcud deyildir. Sadəcə kişilər və qadınlar uşaqlıq dövründən müxtəlif peşələrə yönləndirirlər. Burada müəyyən bir həqiqət vardır. Çünki bu gün Azərbaycanda “kişi işlərini” uğurla yerinə yetirə bilən saysız-hesabsız qadınlar vardır. Burada əsas məsələ cəmiyyətdə və ailədə sosiallaşma prosesinin hansı gender ölçüləri əsasında həyata keçirilməsidir. Sadəcə olaraq mövcud problemlərin əksəriyyəti cəmiyyətdə olan gender stereotipləri ilə bağlıdır.

Qadınların işlədiyi sahələrdə gender bərabərsizliyinin səbəbləri:

- Qadınların, əsasən, az gəlirli sahələrdə daha çox təmsil olunması;
- qadınların harada və necə işləməsindən asılı olmayaraq əsasən ucuz işçi qüvvəsi kimi dəyərləndirilməsi;
- qadınların cəmiyyətdə “zərif cins” kimi səciyyələndirilməsi;
- bir qrup ali təhsilli qadınların işləməməsi;

- qadınların öz hüquqlarından kifayət qədər xəbərdar olmamaları və bir qrup qadınların hüquq bərabərliyinə can atmaması;
- qadınların texniki və idarəetmə bacarıqlarının aşağı olması;
- qadınların yüksək gəlirli və məsuliyyətli sahələrdə fəaliyyətinə inamsızlıq aşılayan (bu kişi peşəsidir) milli stereotiplərin mövcudluğu;
- qadınlar bəzən işlədiyi sahələrdə cinsi istismara məruz qalması;
- ailə qayğıları ilə yüklənən qadınların peşəkarlıq səviyyəsində kişilərdən geridə qalması;
- qadınların mülkiyyət sahibliyinin aşağı olması;
- qadınların ilkin kapitalının olmaması;
- məşğulluq və biznes imkanları haqqında məlumatsızlıq;
- kredit və maliyyə bazarlarından istifadə olunmasında çətinliklər;
- qadınlarda özünə inamın aşağı olması və s.

Aparılan sosioloji araşdırmalar və ortaya qoyduğumuz statistik məlumatlar göstərir ki, Azərbaycan cəmiyyətində gender rollarının iyerarhiyası mövcuddur. Çünki burada gender təhsil almaq imkanlarını, peşəkarlıq fəaliyyətini, ailədə rolunu, hakimiyyətə yaxın olmaq dərəcəsini, reproduktiv davranışı müəyyənləşdirən sosial status kimi meydana çıxır. Yəni kişi və qadınlar məhdud maddi-mənəvi istehlak ehtiyaclarını qeyri-bərabər şəkildə əldə etmək imkanlarına malikdirlər. Gender stratifikasiyası anlayışı da buradan irəli gəlir [98,s.117].

Araşdırmalar göstərir ki, cəmiyyətlər tarixdə bir formasiyadan digərinə keçərək dəyişsələr də, patriarxal dəyərlər məzmunca heç bir dəyişikliyə məruz qalmırlar. Buna görə də cəmiyyətdə sosial ədalətin bərpa olunması və haqsızlığın ortadan qaldırılması məsələsi daima feminizmin və gender tədqiqatlarının əsas hədəfinə çevrilmişdir. Feministlər haqlı olaraq bildirirlər ki, gender nəzəriyyələrinin əsas hədəfi sosial-siyasi sistemlər deyil, onların təməlində dayanan patriarxal dəyərlərdir. Patriarxal sistemin ortadan qalxması, onun üzərində qurulan sosial-siyasi sistemlərin də çökməsinə səbəb olacaqdır [138,s.44-45].

Kapitalist cəmiyyətinin gəlir bölgüsündə ədaləti təmin edə bilməməsi, işsizliyin daha da artması, davamlı inkişafın təmin olunmaması, qlobal ekoloji problemlərin

yaranmasına səbəb olması mövcud sistemin feministlər tərəfindən ciddi tənqid atəşinə tutulmasına səbəb olmuşdur. Həm kapitalist, həm də keçmiş sosialist sistemlərin təməlində patriarxal dəyərlərin dayandığını bildirən feminizm hərəkatı patriarxal dəyərlərin dekonstruksiyası ilə mövcud sistemlərə təhlükə təşkil edən fundamental və beynəlxalq siyasi-ideoloji hərəkata çevrilmişdir. Bu hərəkat insan hüquqlarının tərkib hissəsi kimi qadınların sosial-iqtisadi hüquqlarının təmin olunmasını tələb edirlər [97,s.33].

Sosial konsruksiya nəzəriyyələrində gender rolları sosial nizamın əsas kateqoriyası kimi müəyyənləşdirilir. Bu nəzəriyyələr kişi və qadın arasında olan fərqlərin sosial institutlar vasitəsilə təşəkkül tapdığını və nəticədə formalaşan sosial nizamın təfəkkür və fəaliyyət müstəvisində daima davam etdiyini irəli sürürlər [73,s.323]. Buna görə də qadınların hüquqlarının tam şəkildə təmin olunması üçün sosial-iqtisadi institutların yenilənməsinə ehtiyac vardır. Təhsil, KİV sahələrində gender maarifçiliyinin inkişaf etdirilməsi isə təfəkkürdə müəyyən dəyişikliklərin baş verməsinə şərait yarada bilər. Son dövrlərdə Azərbaycanda sosial-iqtisadi sahədə aparılan bir çox islahatlar qadınların qeyri-ənənəvi əmək sahələrinə cəlb olunmasına, onların sosial fəallığına şərait yaratmışdır. Lakin statistik araşdırmalar hələ bu sahədə həllini gözləyən bir çox problemlərin mövcud olduğunu göstərir. Feministlərin irəli sürdüyü iddialar ayrı-ayrı dövlətlərin sosial-iqtisadi islahatları ilə deyil, ümumiyyətlə, kapitalizm sisteminin və patriarxal düşüncənin dekonstruksiyası ilə bağlıdır.

Cəmiyyətdə kişilərə nisbətən qadınlara verilən qeyri-bərabər imkanlar, onların sosiallaşmasına mane olur. Gender asimmetriyası özünü gender rolları sistemində, sosiallaşma prosesində, əmək bölgüsündə, KİV-də, ailədə və başqa sahələrdə biruzə verir. Öz gender rollarını yaradaraq onları mənimsəyən və sonra təkrarlayan fərdlər həm onlardan asılı vəziyyətdə qalır, həm də onları dəyişmək iqtidarına malik olurlar. Bunlar mənimsənilən rol və normalarda (geyim, xarici görkəm, davranış modelləri və s) nümayiş etdirilir. Qadınların ailə həyatı, ev işləri və kişinin zövqünü cəlb etməklə məhdudlaşan funksiyası onun sosial imkanlarını məhdudlaşdırır və ona məhdud sosial status qazandırır. Qadın bu status çərçivəsində patriarxal hakimiyyətin təyin etdiyi normalarla özünün gender rollarını ifa edir. Hətta qadınlar öz sosial

fəaliyyətlərinə münasibətdə də, ailədə ifa etdikləri gender rollanı təkrarlamağa meylli olurlar. Yəni qadınlar əksər hallarda ev-ailə çərçivəsində qazandıqları ənənəvi gender rollarını sosial əmək sahələrinə gətirməyə çalışır və onlar arasında əlaqələndirici rolunu oynamağa çılışırlar. Məsələn, qadınlar çalışdıqları əmək sahələrində karyeradan daha çox, ev işləri və ailə münasibətləri ilə bağlı söhbətlərə, davranışlara üstünlük verirlər. Bu çox vaxt onların iş şəraitinə uyğun olmayan geyim və davranışlarında müşahidə olunur.

Gender cinsin sosial meyarı, onun status və mövqelərini müəyyənləşdirirsə, gender rolları isə ictimai-mədəni norma və ənənələrdə mövcud olan davranış modellərinin dinamikasında meydana çıxır. Nəticədə, qadınlar cəmiyyətdə aşağı məvacibli və az statuslu əmək növləri ilə məşğul olurlar. Onların əmək fəaliyyəti gender rollarının aşağı səviyyədə qiymətləndirilməsinə şərait yaradır. Azərbaycan xalqının mənəvi dəyərlərində qadına verilən yüksək dəyərə baxmayaraq, cəmiyyətdə ağır və çirkli işlərin əksəriyyətində çalışanların çoxu qadınlardır. Xüsusilə, şəhər küçələrinin, ictimai ayaq yollarının təmizlənməsində bunu müşahidə etmək mümkündür. Bu kimi sahələrdə kişilərin az təmsil olunması, onların ənənəvi sosial statusları ilə bağlıdır. Deməli, kişilər ənənəvi gender rolları ilə qadınların alçalması və onların kölə vəziyyətinə salınması hesabına öz sosial statuslarını qorumağa çalışırlar. Qadınlar isə öz ənənəvi gender rolları ilə onların iradəsinə tabe olaraq öz insan hüquqlarını pozurlar.

Araşdırmalar göstərir ki, cəmiyyətdə qadının sosial status və funksiyası istehsal prosesində və uşaqların sosiallaşmasında oynadığı ənənəvi rollarla müəyyənləşir. Kapitalist sistemi ailə ilə iqtisadi həyatı bir-birindən ayırıb qadını sosial həyata cəlb edir və onu ucuz işçi qüvvəsi (iki dəfə artıq əmək sərf olunan və dəyəri az ödənilən) və gəlir obyekti kimi istifadə edir. Patriarxal sistem isə, daha dərin sosial və psixoloji əsaslara söykənir. Bu sistemin varlığı monoqam heteroseksual nigahlar və bunların təməlində dayanan patriarxal maddi dəyərlər vasitəsilə reallaşır. Patriarxal nəzarət yanlız ərin qadının uşaqlara baxmaq, ailənin qayğısına qalmaq, reproduktiv ev işlərini yerinə yetirmək, ərindən iqtisadi baxımdan asılı qalmaq kimi məsuliyyətlərlə yekunlaşmır. Çünki bu məsuliyyətləri onun üzərinə qoyan həm də dövlət və sosial

institutlardır. Bu proseslər tarixi-mədəni ənənə halına gələrək, nəticədə, şüuraltı gender stereotiplərinin formalaşmasına şərait yaradır. Feministlər qadının əsas azadlığının məhz bu stereotiplərdən azad olmaqda görürlər. Çünki qadının və cəmiyyətin davranış və mədəni normalarını tənzimləyən bu stereotiplər patriarxal sistemin ən güclü nəzarətçiləridirlər.

Lakin feminist tədqiqatçılardan Ayris Yanq "Sosialist feminizm və dual sistemlər nəzəriyyələrinin sərhədləri" əsərində patriarxal sistemin mütləq xarakterli olduğunu irəli sürən dual nəzəriyyələr sistemini tənqid edərək, bu yanaşmanın feminizmin gələcəyinə inamı azaltdığını və onların mübarizəsini patriarxal ənənələrdən yayındıraraq sosialist feminizm mənafeyi istiqamətində kapitalist sistemə qarşı yönəltdiyini bildirir və çıxış yolu kimi *unifikasiya olunmuş sistemlər nəzəriyyəsini* irəli sürür [138,s.40]. Bu isə, gender differensiasiyası ideyasının aktuallaşmasına və marksizmin cinslərin fəlsəfəsinə göz yuman tarixi materializminə köklənən sosialist feminizmin "feminizmin tarixi materializminə" yəni marksisit gender nəzəriyyəsinin əsaslanmasına şərait yaradır. Yəni bu yeni yanaşma marksizmin qadın hüquqlarının pozulması hallarına və gender məsələlərinə göz yuman mücərrəd sinfi təhlilini tənqid edir və tədqiqatları gender müstəvisində konkret "əmək bölgüsü" kateqoriyasına yönəldir. Bu marksizmin feminləşdirilməsinə xidmət edir. Çünki əmək bölgüsünə gender yanaşması (marksizmdən fərqli olaraq) kimin qaydaları müəyyənləşdirməsi və kimin onlara tabe olması, kimin həvəsləndirməsi və kimin işləməsi, kimin məqbul və kimin qeyri-məqbul iş görməsi, kimin eyni işə görə daha çox və daha az məvacib alması və başqa məsələləri ortaya çıxarır və qadınların kişilərdən fərqli olaraq qeyri-məqbul və mənfəətsiz işləri yerinə yetirməsinə aydınlıq gətirir. Bütün bu hallar kapitalizmin də əsaslandığı ənənəvi patriarxal sistemdən irəli gəlir. Sinfi və gender strukturları elə üzvi şəkildə bir-biri ilə əlaqəlidir ki, onların hansının əvvəl, hansının sonra meydana gəldiyini müəyyənləşdirmək çətindir. A.Yanq deyir ki, kapitalizmə qədərki dövrdə nigah iqtisadi əməkdaşlıq forması idi və kişi-qadınlar birgə ailə təsərrüfatında fəaliyyət göstərirdilər. Lakin kapitalizmin yaranması ilə ailə və təsərrüfat, nigahın iqtisadi əməkdaşlıq funksiyası bir-birindən ayrılaraq, kişi və qadın birinci və ikinci işçi qüvvəsinə çevrildilər [138,s. 41].

Alison Caqqar "Feminist siyasət və insanın təbiəti" əsərində A.Yanqın unifikasiya olunmuş sistemlər nəzəriyyəsini inkişaf etdirərək bildirir ki, marksizmdə müsbət bir hal kimi dəyərləndirilən əmək kapitalizmdə bizi cəmiyyətdən, ailədən və nəhayət özümüzdən *özgələşdirir*. Qadın bu sistemdə öz qadınlığından, analıqdan və intellektindən özgələşir. Qadınlar kişilərin xoşuna gəlmək üçün yarışır və beləliklə özlərini obyekt kimi dərk edərək, obyekt kimi təqdim edirlər. Uşaq əməyindən istifadə olunan cəmiyyətlərdə qadın tələb olunan qədər çox uşaq dünyaya gətirilməsi vəzifəsi qarşısında məsuliyyət daşıyır. Uşaqların iqtisadi yük hesab olunduğu cəmiyyətlərdə qadın doğuşu məhdudlaşdırılır, hətta qadın abort etdirmək məcburiyyətində qalır. Analıq institutunun güclü olduğu mədəniyyətlərdə yəni analığın qadın üçün əsas rol hesab olunduğu cəmiyyətlərdə qadın övlada özünütəsdiq, özünü gerçəkləşdirmək vasitəsi kimi baxır. Qadın övladına bir şəxsiyyət kimi yanaşa bilmir. Çünki cəmiyyət həmin qadına bir şəxsiyyət kimi qiymət vermir. Bu isə, qadının öz fikrini ifadə etməsində əqli komplekslər yaradır, özünü seksual obyekt və reproduktiv ev işlərini görən, uşaq dünyaya gətirib böyüdən deyil, bir şəxsiyyət kimi təqdim etməsinə mane olur. Bu məhdudiyyətlər yanlız şüurda deyil, həmçinin sosial-mədəni institutlarda mövcuddur. Qadının evdə reproduktiv fəaliyyəti, onun peşəkar kimi yetişməsinə və istirahətinə mane olur [118,s.39-40].

Araşdırmaların nəticələri göstərir ki, Azərbaycanda ailə institutunun cəmiyyətdə gender rollarının və stereotiplərinin formalaşmasına təsiri çox böyükdür. Ənənəvi ailə institutu məhz bu prinsiplər əsasında öz mövcudiyyətini qoruyub saxlayır. Buna görə də bizim üçün ən optimal yol feministlərin dediyi kimi ailəni dağıtmaq deyil, ailədə qadınların sosial-iqtisadi statusunu yüksəltmək olmalıdır. Yəni dövlət ailədə qadınların yerinə yetirdiyi reproduktiv fəaliyyəti, produktiv fəaliyyət sahəsi kimi dəyərləndirsə (yəni onlara buna görə dövlət maaş versə), qadınların cəmiyyətdə sosial-iqtisadi statusu yüksələr və ailədə, cəmiyyətdə gender bərabərliyi təmin olunar.

Lakin son dövrlərdə qadınlarımızın sosia-iqtisadi fəallığı və vətəndaş cəmiyyəti quruculuğunda oynadığı rol artmışdır. 1990-1997-ci illərdə qadınlar ictimai birlik və siyasi partiyalarda yaranan qadın komitələrində, 40-dan çox qeydiyyatdan keçmiş qadın QHT-də fəallaşmışlar. Həmçinin respublikada gender maarifçiliyi, qadın

hüquqları sahəsində aparılan işlər öz rolunu oynamışdır. Feminizm ideyalarının yayılması həm də postsovet məkanında liberalizm ideyalarının yayılmasında maraqlı olan beynəlxalq donor təşkilatlarının maddi və mənəvi mənafeyinə uyğun gəlirdi. Buna görə də, əsasən, 1997-1998-ci illərdən başlayaraq xarici fondların yardımı ilə Azərbaycanda 68 QHT genderlə bağlı 262 layihə həyata keçirmişdir [177].

1998-ci ildə Azərbaycanda ilk dəfə QHT-nın fəaliyyətini rəsmiləşdirən "Qrantlar haqqında" qanun qəbul edilmişdir. Azərbaycanda gender maarifçiliyi xüsusilə, "Açıq Cəmiyyət" İnstitutunun (Soros Fondu), həmçinin BMT-nın İnkişaf Proqramı (UNDP), Uşaq Fondu (UNİCEF) Qadınlar üçün İnkişaf Fondu (UNIFEM), ISAR, «Avroasiya» kimi beynəlxalq fondların maliyyə yardımı ilə inkişaf etdirilməyə başladı. Lakin sonrakı illərdə (2007-2008) Azərbaycanda QHT-lərə dövlət dəstəyi genişlənmişdir. Bütün bu yardım və dəstəklər Azərbaycan qadınlarının sosial əmək sahələrində fəallaşmasına müsbət təsir göstərmişdir[177].

XX əsrin sonunda dünyada gender məsələləri ilə məşğul olan ciddi tədqiqat mərkəzləri artıq formalaşmışdı [32]. Azərbaycanda da 1998-ci ildən sonra beynəlxalq və yerli layihələrin gerçəkləşməsi praktikası əsasında belə nəzəri-praktiki tədqiqat mərkəzləri tədricən formalaşırdı. Qadınlar üçün İnkişaf Fondunun (UNİFEM) Cənubi Qafqazın hər üç ölkəsində 2001-2006 illərdə həyata keçirilmiş "Qadınlar Cənubi Qafqazda münaqişələrin qarşısının alınması və sülh yaradılması uğrunda" adlı regional layihəsi yekunlaşmış ikinci proqramı (Gülşən Paşayevanın rəhbərliyi ilə), 1997-ci ildən Azərbaycanda BMT-nin "Gender inkişafda" proqramı çərçivəsində bir çox gender layihələri həyata keçirilmişdir (koordinator R.İbrahimbəyova). Həmçinin bu və ya digər proqramlar çərçivəsində 40-dan çox QHT və mərkəzlər, partiyalar yanında qadın problemləri üzrə yaradılan komissiyalar müxtəlif layihələrin gerçəkləşməsi sahəsində fəaliyyət göstərmişlər[9]..

Azərbaycanda siyasi iradə gender siyasətinin dövlət və QHT səviyyəsində genişlənməsi üçün hüquqi baza yaratdı. Qadınların cəmiyyətin bütün sahələrində rolunun artırılması istiqamətində dövlət tərəfindən bir çox tədbirlər həyata keçirildi. 1997-2000-ci illərdə, prezidentin 6 mart 2000-ci il "Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" sərəncamına əsasən hökumət və "Gender inkişafı" üzrə BMT-

nın İnkişaf Proqramının Birgə Fəaliyyəti həyata keçirildi. Nəticədə respublikanın bütün İcra Hakimiyyətləri yanında gender və qadın problemləri üzrə şöbələr yaradıldı, İH-nin sosial və humanitar məsələlər üzrə müavini isə bir qayda olaraq qadın təyin edildi. 2000-ci ildə Pekin Fəaliyyət Platformasının strategiyası əsasında Nazirlər Kabineti 2000-2005-ci illər üçün qadın problemləri üzrə Milli Fəaliyyət Planını (MFP) təsdiqlədi. 2002-ci il 6 sentyabrda dövlət orqanları, QHT, partiya və KİV təmsilçilərindən ibarət  BMT Təhlükəsizlik Şurasının 1325 №-li qətnaməsini dəstəkləyən və ölkədə qadınların bütün təşkilatlarda 30-35% kvotanın tətbiqinə lobbiçilik edən "1325 №-li Qadın Koalisiyası" qurumu yaradıldı. 2003-cü ildə Dövlət Statistika Komitəsi ilk dəfə ölkənin həyat fəaliyyətinin müxtəlif sahələri üzrə gender statistikasını həyata keçirdi [15]. 2005-ci il 16 fevralda Bakıda, "Qadın Problemləri üzrə Dövlət Komitəsi"nin sədri, Norveçin səfiri və BMT İP sədri tərəfindən "2005-ci ildə gender münasibətlərinə aid Azərbaycanda milli insan inkişafı haqqında hesabat" layihəsi sənədi imzalandı. 2005-ci ildə Azərbaycan Qadınlarının Milli Konfederasiyası (AQMK) təsis edilir və Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva AQMK-nın fəxri prezidenti seçildi. 2005-ci ilin iyun ayında Azərbaycan Hökuməti ilə BMT-nin UNİFEM arasında "Qanunvericilik və siyasət çərçivəsində qadın hüquqları və gender bərabərliyinin dəstəklənməsi" ilə bağlı müqavilə məktubu imzalanmış və 2005-2006-cı illərdə bir çox işlər həyata keçirilmişdir. 2006-cı il 10 oktyabrda "Gender bərabərliyinin təminatı haqqında" konstitusiya qanunu qəbul olundu [15]. Bütün bu işlər ölkədə gender asimmetrasiyasının ortadan qaldırılmasına, gender bərabərliyinin təmin olunmasına və qadınların cəmiyyətin sosial-iqtisadi həyatında yaxından iştirak etməsinə şərait yaradır. Bunu statistik göstəricilərin dinamikası da təsdiq edir.

Şəhər və əyalətlərdə təhsilin inkişaf etdirilməsi, xüsusilə, təhsildə gender maarifçiliyinin artırılması, qadın hüquqlarının öyrənilməsi, idarəetmə və sahibkarlıq fəaliyyəti barədə qadınların maarifləndirilməsi, bölgələrdə fərdi fermer təsərrüfatının inkişaf etdirilməsi sayəsində ailələrin, xüsusilə, qadınların sosial-iqtisadi vəziyyətinin yüksəldilməsi, qadınların mülkiyyət sahibi olmasına şəraitin yaradılması, qadınların ailədaxili fəaliyyətinin produktiv iş kimi dəyərləndirilməsi və başqa sosial dövlət

tədbirləri qadınların sosial-iqtisadi durumunun yaxşılaşmasına və ölkədə iqtisadi gender asimmetriyasının tənzimlənməsinə şərait yaradar.

## 2.2. Ailə institutunun sosial dinamikasının gender təhlili

Azərbaycanlıların mühüm sosial-tarixi dəyərlərindən biri ailədir. Azərbaycanlılar daima ailəyə dünyanın və cəmiyyətin kiçik bir modeli (*Ailəni dağıdan, aləmi də dağıdar*) və müqəddəs dəyərlərin qorunduğu yer kimi baxmışlar (*Ailəyə inam, imandan doğar*). Çünki ailədə insanın və onun gələcək nəsillərinin təbii maddi-mənəvi tələbatları təmin olunur. Ailənin varlığının qorunması isə müəyyən norma, inanc və qadağaların varlığını tələb edir. Azərbaycanlıların ənənəvi ailələrində bunları təmin edən qədim türk törə hüququ (adət-ənənələr) və şəriət hökmləri olmuşdur. Ailədə bu nizamı təmsil edən və onun təmin olunmasında aparıcı rol oynayan ağsaqqallar institutu böyük ailənin və nəslin müqəddəs rəmzinə çevrilmişlər (*Ailə səadəti ağsaqqaldan keçər*). Qədim dövrlərdən kollektiv təsərrüfat həyatı ilə idarə olunan böyük və patronimik ailə institutu ənənəvi olaraq ağsaqqal ailə başçılarının rəhbərliyi altında olmuşdur. Bu ənənələrin izləri, adətən, kənd yerlərində olan bəzi böyük ailələrdə müşahidə olunur.

Lakin kapitalizmin inkişafı ilə əlaqədar olaraq təsərrüfat həyatı tədricən ailədən ayrılmış və nəticədə, bir çox ənənəvi ailə modellərini müasir nuklear ailələr əvəz etmişdir. Tədqiqatçı N. Salmanova bildirir ki, sovet dövründə Azərbaycanın şəhərlərində ənənəvi ailə modelləri ortadan qalxsa da, onlar ucqar ərazilərdə şaquli gender iyerarhiyasında və üfiqi qonşu-qohum əlaqələrində özünü qoruyub saxlamışdır [19,s. 56-57]. Müasir dövrdə bir çox Azərbaycan ailələrində müşahidə olunan gender stereotipləri, varislik prinsipi ilə bağlı olaraq öz kökünü ənənəvi ailə modellərindən alır.

Sovet dövründə şəhərləşmə prosesi ilə əlaqədar olaraq kişilərin qeyri-müsəlman qadınlarla evlənmək halları geniş yayılmışdır. Şəhər yerlərində yayılan beynəlmiləlçilik əhval-ruhiyyəsi sosial-mədəni inteqrasiyanı gücləndirir və müsəlman kişilərin qeyri-müsəlman qadınlarla ailə hayatı qurmasına şərait yaradırdı. Həmçinin

qarışıq nigahlar dövlət siyasəti ilə müdafiə olunur və belə ailələrə bəzi imtiyazlar verilirdi. Bu tip ailələr cəmiyyətdə, bir növ, dövlətin patriarxal ailə modelini təmsil edirdi.

Sovet modelində qadın ailədə və cəmiyyətdə paralel şəkildə fəal idi. Bu yeni tipli ailələr qadının işləməsini mənfi qiymətləndirən ənənəvi ailə modelinə zərbə vururdu. Bu tip ailələrdə qohumların ailə həyatına müdaxiləsi ortadan qalxır və evlilər adət-ənənələrdən sərbəst həyat tərzi sürürdülər. Şəhərlərdə yaşayan qeyri-müsəlman əhalinin qeyri-ənənəvi kosmopolit davranış normaları (geyimləri, münasibətləri) bir tərəfdən ənənəvi davranış modellərinə alternativ kimi ortaya çıxır, digər tərəfdən onları tədricən ortadan qaldırırdı. Bu sosiomədəni proseslər ən çox kişilərin davranış normalarını ikiləşdirirdi. Onlar evdə ənənəvi davranışlara, cəmiyyətdə isə qeyri-ənənəvi davranışlara əsaslanırdılar. Bu isə, ailələrdə qadınların cəmiyyətdəki qeyri-ənənəvi qadınlara bənzəmək meylini gücləndirirdi. Nəticədə, şəhərlərdə baş verən bu proseslər ruslaşma, Qərbləşmə, modernləşmə meyllərinin güclənməsinə, azsaylı övlada sahib olan ailələrin çoxalmasına, ailələrdə gender bərabərliyinin qismən təmin olunmasına, qohumluq əlaqələrinin zəifləməsinə və böyüklərin (ərin, ağsaqqalın, qaynananın) avtoritarlığına əsaslanan milli ailə ənənələrinin tədricən ortadan qalxmasına şərait yaradırdı. Lakin sovet cəmiyyəti qapalı cəmiyyət olduğu üçün, ənənəvi dəyərlər öz varlığını bu və ya digər şəkildə qoruyurdu.

Sovet dövlətinin süqutu bir çox sosial-iqtisadi problemlərin yaranmasına şərait yaratdı. Qapalı sovet cəmiyyətləri bir-birindən ayrılaraq açıq dünya cəmiyyətinə müstəqil şəkildə qatıldılar. Onlar dünya cəmiyyətinə inteqrasiya edənə qədər ağır keçid mərhələsindən keçmək zərurəti ilə üzləşdilər. Məhz bu dövrdə ailə həyatı da dərin böhranlarla qarşılaşdı. Qlobal dünyaya inteqrasiya şəraitində bir çox ənənələr tədricən ortadan qalxdı. Çünki sovet dövründə onların təməlində dayanan sosial-iqtisadi sistem artıq mövcud deyildir.

Azərbaycan ailəsinin bu gün dünya cəmiyyətinə açılması, onu həm Qərb, həm də Şərqdən gələn yeni ənənələrlə üzləşdirir. Xüsusilə, regionlarda ortaya çıxan sosial-iqtisadi problemlərlə əlaqədar əhalinin müxtəlif ölkələrə və paytaxta əmək

miqrasiyası, Bakıda şəhərləşmə prosesinin sürətlə inkişafı ənənəvi gender və ailə stereotiplərinin aradan qalxmasına, qeyri-ənənəvi ailə növlərinin meydana çıxmasına şərait yaradır. Müşahidələr göstərir ki, cəmiyyətdə həm müsəlman ölkələrdən gələn radikal İslamçı qrupların təsiri ilə ifrat fundamentalizmə, həm də Qərbə inteqrasiya ilə bağlı olaraq ifrat Qərbçiliyə meyl halları artır. Bunların nəticəsi olaraq cəmiyyətdə bir tərəfdən qız uşaqlarının təhsildən yayınması, erkən ərə verilməsi, çoxarvadlılıq hallarının artması, digər tərəfdən isə qızların karyera əldə etmək üçün ailə qurmaqdan imtina etmələri, təminatlı xarici ölkə vətəndaşlarına (əsasən, Türkiyə və Avropa ölkələri vətəndaşlarına çox vaxt valideynlərin dəstəyi ilə) evlənmələri, vətəndaş nigahı hallarının artması müşahidə olunur. Bunlar əsrlərlə formalaşan ənənəvi ailə modelinin tədricən ortadan qalxmasına şərait yaradır [192].

Biz ənənəvi ailə dedikdə, keçmişlə müasirliyin harmonik vəhdətini tərənnüm edən dinamik ailə modelini nəzərdə tuturuq. Sovet dövründə belə bir Azərbaycan ailə modeli mövcud idi. Bu gün həmin modelin tədricən ortadan qalxması və yeni ailə modelinin yaranmaması, ailə institutunun itməsi təhlükəsi barədə düşünməyə vadar edir. Çünki artıq bu qədim sosial institut Qərb ölkələrində dərin böhran keçirir. Biz də hesab edirik ki, bu barədə düşünməyə dəyər.

Başqa xalqlarda olduğu kimi, ənənəvi Azərbaycanlı ailəsində də kişilər adətən evdənkənar işlərlə məşğul olaraq ailənin maddi təminatı vəzifəsini öz üzərlərinə götürür və ailənin ümumi sosial statusuna görə mənəvi məsuliyyət daşıyırlar. Kişinin gender vəzifələrinə ailənin maddi təminatı, ailənin namus və şərəfinin qorunması, gəlin-qaynana münaqişələrini tənzimləmək, övladların evləndirilməsi, onların oxuyub təhsil alması və başqa vəzifələr aiddir. Cəmiyyətdə kişinin sosial statusu, onun ailəsinin statusunu və ona münasibəti müəyyənləşdirir (*Arvadı ərinə görə tanıyarlar*). Buna görə də kişinin ailə üzvləri üzərində bir hakimiyyəti vardır (*Kişinin sözü bir olar*). Cəmiyyət də öz ailəsində sözü keçən kişiyə xüsusi rəğbətlə yanaşır. Təbii ki, kişilər cəmiyyətdə özlərinə status qazanmaq üçün, özlərini ideal kişi obrazına oxşatmağa cəhd edirlər. Bunun üçün qadın kişiyə tabe olmalı və kişi də ona sahib çıxmalıdır. Cəmiyyətdə mövcud olan sosial-mədəni dəyərlər də bu statusun əldə olunması üçün şərait yaradırlar. Nəticədə kişilərin patriarxal hakimiyyətini təmin

edən müəyyən gender stereotipləri formalaşır. Milli-etnik şüurun tərkib hissəsinə çevrilən və cəmiyyətdə aksiomatik normalar kimi qəbul olunan bu stereotiplər cəmiyyətin mexaniki şəkildə idarə olunmasına şərait yaradırlar.

Feministlər isə, kişilərin ənənəvi olaraq ailə və cəmiyyət üzərindəki bu patriarxal hakimiyyətini qadınlar üzərində zorakılıq, ədalətsizlik halı kimi dəyərləndirirlər. Onlardan bəziləri çıxış yolunu ailə institunun ortadan qaldırılmasında, qadın və kişilərin qarşıduran fərqli mədəniyyətlərdə qütbləşməsində, bəziləri də ailə və cəmiyyətdə gender bərabərliyi istiqamətində islahatların aparılmasında, gender rollarının sərbəst seçimində görürlər [136,s. 20].

Lakin ənənəvi ailələrdə kişilərin öz ailələrinin maddi-mənəvi təminatı üzərindəki məsiliyyət hissi qorunub saxlandığı halda, qeyri-ənənəvi ailələrdə bu məsiliyyət hissi zəifləyərək "maskulin böhranı" baş verir. Ənənələrin tədricən ortadan qalxması "keçmiş kişilər barədə nostalji" hissinin və "müasir kişilərin böhranı" barədə təsəvvürlərin artmasına səbəb olur. Çünki cəmiyyət dəyişsə də, mədəni təsəvvürlər gec dəyişirlər. Həmçinin cəmiyyətdə sosial-iqtisadi problemlərlə, işsizliklə əlaqədar olaraq kişilərin ailə məsuliyyətindən boyun qaçırmaları, bu kimi fikirlərin ortaya çıxmasına səbəb olur. Bu təsəvvürlər cəmiyyətdə boşanma hallarının artmasına şərait yaradır. Yəni qadının iqtisadi və fiziki təhlükəsizliyini təmin edən ənənəvi ailənin zəifləməsi, qadınların tənhalıq problemlərinin ortaya çıxmasına və ailənin maddi təminatı üzrə məsuliyyət hissini tədricən öz üzərlərinə götürmələrinə səbəb olur. Bu hisslər dərinləşdikcə cəmiyyətdə qadınların kişilərə qarşı münasibətində mənfi emosiyalar formalaşdırır. Qadınların başqa ölkə vətəndaşlarına ərə getmək meyllərinin yaranma səbəblərindən biri də budur (başqa səbəb Avropalılarda gender stereotiplərinin zəif olması və yerli stereotiplərdən qaçmaq cəhdidir).

Bu gün Qərbdə əksər feminist təşkilatları ailə institutuna qarşıdırlar. Marksizmin nəzəriyyəsi əksər feministlər üçün nəzəri bazis rolunu oynamışdır. Marksisit feministlər (Aleksandra Kollontay, Klara Setkin, Avqust Bebel, müasirlərdən Emma Qoldman, Sintiy Kokbern, Meri Evans, Meri Obrayen, Zilla Ayzenştain) feminizm ideyalarını F.Engels və K. Marksın əsərlərinə istinad edərək özünəməxsus şəkildə izah etməyə çalışmışlar [88,s.51].

F.Engels "Ailə, xüsusi mülkiyyət və dövlətin mənşəyi" əsərində qadınların (həmçinin bir qrup kişilərin) kölə vəziyyətinə düşməsinin səbəbini xüsusi mülkiyyətin bir qrup kişilərin əlində cəmləşməsi və bunun əsasında bir-birini istismar edən sinfi cəmiyyətin yəni dövlətin yaranması ilə əlaqələndirir. Xüsusi mülkiyyətin yaranmasına qədər olan dövrdə cinslərin sosial bərabərliyi mövcud olduğu halda, xüsusi mülkiyyətin yaranması dövründə cinslər arasında əmək bölgüsü yaranır və kişilərin rəhbərliyi altında qadını kişidən iqtisadi asılılıq vəziyyətinə salan patriarxal monoqam ailə formalaşır. Buna görə də, F.Engels birinin digəri tərəfindən kölə vəziyyətinə salınmasını və cinslərarası münaqişələrin başlamasını monoqam ailənin meydana çıxması ilə bağlayır və ilk sinfi istismarın qadının kişi tərəfindən kölə vəziyyətinə salınması dövrü ilə əlaqələndirir [144,s. 25-26]. Buradan belə çıxır ki, ailə bir patriarxal istismar vasitəsi olduğu üçün, azadlığın və hüqüqların təminatı ilə əlaqədar onun ortadan qalxması zəruridir. Əksər feministlər bu gün məhz bu ideyadan çıxış edərək, ailə institutunun sona yetdiyini elan edirlər.

K. Marks və F. Engels "Alman ideologiyası" əsərində kişi və qadın arasında ilk əmək bölgüsünün uşaq dünyaya gətirmək olduğunu və nəticədə, ailədə qadının, uşaqların kişinin köləsinə və ya primitiv şəxsi mülkiyyətinə çevrildiklərini bildirirlər [144,s. 233-234]. Marksizmin radikal və psixoanalitik feminizm ilə kəsişdiyi nöqtədə formalaşan sosialist feminizm nümayəndələri isə cəmiyyətdə köləliyin tarixi keçmişə çevrilməsinə baxmayaraq, patriarxal ailələrdə bu rejimin hələ də davam etdiyini bildirirlər. Çünki ailədaxili reproduktiv işlər istənilən halda qadının üzərində məsuliyyət yükü olaraq qalır. Deməli, hakimiyyət və mülkiyyət məsələləri yanlız şaquli sinfi deyil, həm də üfiqi gender xarakteri daşıyır. Onlar, kapitalist cəmiyyətinin sinfi strukturu və xüsusi mülkiyyətin, eyni zamanda onların təməlində dayanan patriarxal monoqam ailə institutunun qadınların hüquqlarını pozan əsas amillər olduğunu vurğulayırlar [113,s. 134]. Buna görə də feministlər gender münaqişəsinin həllini cəmiyyətin və monoqam ailənin tənəzzülündə, sosialist inqilabının gerçəkləşməsində görürlər. Barrett marksizm təliminin inkişaf etdirilərək, gender təhlilinin əsasına çevrilməsini mümkün saymışdır [53]. Bu baxımdan feminizmin

nəzəriyyəsi bir vaxtlar həm sosialist, həm də kapitalist sistemləri üçün təhlükə təşkil etmişdir.

Azərbaycanda ailə institutunun qorunub saxlanması və inkişafı məqsədilə 1998-ci ildə Ümummilli Lider Heydər Əliyevin fərmanı ilə "Qadın Problemləri üzrə Dövlət Komitəsi" yaradıldı və prezidentin "Cəmiyyət həyatının bütün sahələrində qadınların rollarının gücləndirilməsi haqqında" fərmanı imzalandı. 2006-cı ilin fevralında respublika prezidentinin fərmanı ilə ləğv edilmiş "Qadın problemləri üzrə Dövlət Komitəsi"nin bazasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının sərəncamı ilə "Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi" yaradıldı. Bu idarə Azərbaycanda nazirlik və idarələrdə gender şöbələri açılması, respublikada gender problemlərinin həll olunması istiqamətində böyük işlər görmüş və bu gün də H. Hüseynovanın sədrliyi ilə uğurlu fəaliyyətini davam etdirməkdədir. Lakin dünyaya açılan Azərbaycan cəmiyyəti müasir dövrdə ciddi müsbət və mənfi dəyişikliklərə məruz qalır. Müasir vəziyyət bizdə bir neçə suallar yaradır: Görəsən, həqiqətən ənənəvi patriarxal ailə institutu insanlığı daima istismar etmişdir? İnsanlıq bu sosial institutdan qurtulmaqla öz səadətinə və azadlığına qovuşa biləcəkmi?

Düşünürük ki, ənənəvi patriarxal ailənin birmənalı şəkildə tənqid olunması düzgün deyildir. Çünki onun mənfi tərəfləri ilə yanaşı müsbət tərəfləri də mövcuddur. Buna görə də, ailə institutunun dinamik inkişafında ənənələrlə yeniliklərin müqayisəli təhlilinə ehtiyac vardır.

Azərbaycanda kişilər XX əsrin birinci yarısında qadınlara nisbətən çox olmuşlar. Lakin sonrakı repressiyalar və İkinci Dünya müharibəsində əksər kişilərin həlak olması XX əsrin ikinci yarısından başlayaraq qadınların sayının artmasına səbəb olmuşdur. Son 40 ildə cinslərarası fərq qismən azalmışdır. Adətən kənd yerlərində kişilərin sayı şəhər yeri ilə müqayisədə çox olmuşdur. Lakin 1999-cu ildən başlayaraq kişilərin sayı şəhərdə artmışdır [167]. Bu da işsizliklə əlaqədar kişilərin şəhərlərə etdiyi əmək miqrasiyası ilə bağlıdır (cədvəl 6).

Kənd yerlərində ailəsini tərk edərək başqa ölkələrə iş dalınca gedən kişilərin sayı çoxdur [167]. Bu tip ailələr kişilərin kənardan göndərdikləri maddi dəstəkdən tam asılı vəziyyətdə qalan natamam ailələrdir. Lakin əksər hallarda bu ailələr öz maddi

dəstəklərindən məhrum olur və tədricən mənəvi əlaqələr də ortadan qalxır. Bu ailələr qeyri-rəsmi də olsa, artıq dağılmış ailələr sırasına aid edilə bilər. Belə ailələrdə iqtisadi asılı vəziyyətdə olan qadınların vəziyyəti acınacaqlı olur. Onların bir qismi qohumlarının himayəsinə sığınır, digər qismi isə əmək bazarlarına müraciət edir. Kənd yerlərində bu qadınların bir qismi kənd təsərrüfatı mallarının ticarəti sahəsinə üz tutur [167]. Statistik göstəricilər məhz bu sahəsə qadınların fəal olduğunu göstərir. Onlardan digər bir qismi isə şəhər yerlərində özünə iş axtarır və nəticədə ağır işlərə cəlb olunur [167]. Onlar arasında əxlaqsızlığa qurşanan qadınlar da az deyildir. Əlbəttə, bütün bunlar ənənəvi Azərbaycan ailəsinə mənfi təsir göstərir.

Ailə institutu sosial-iqtisadi və mədəni dəyişikliklərlə əlaqədar olaraq daim dəyişməkdədir. Lakin bütün dövrlərdə dövlət institutunun əsas vəzifəsi ailənin varlığını qorumaq olmuşdur. Çünki ailə institutu olmadan dövlətin varlığı da təhlükə altında qalar. Bu gün ailə problemlərinin artma səbəblərindən biri də, bu məsələdə xüsusi dövlət siyasəti həyata keçirən sovet dövlətinin süqutu olmuşdur. Lakin keçid dövründə bu məsələlərin diqqətdən yayınması müasir problemlərin yaranmasına, gender rollarının dəyişməsinə şərait yaratdı. Ailə və gender rolları ənənələrində varislik prinsipi son dövrdə böhran keçirir. Xüsusilə, şəhər yerlərində gender rollarının sürətlə dəyişməsi, bu məkanı ənənəvi ailə ilə qeyri-ənənəvi ailə arasında münaqişə meydanına çevirmişdir. Bu münaqişə zəminində bir çox ailələr dağılır və yeni ailə tipləri meydana çıxır. Lakin bu proseslər ənənələrin dəyişməsinə qismən təsir göstərir.

Ənənəvi ailədə baş verən dəyişikliklərdən biri də ailədə uşaqların say məsələsidir. 2009-cu ilin siyahıyaalınma məlumatlarında həm şəhər (40.7 %), həm də kənd yerlərində (40.0 %) iki uşaq olan ev təsərrüfatlarının sayı (18 yaşadək uşaqlar) daha yüksək olmuşdur. Bununla belə, tək uşaq olan ev təsərrüfatları şəhər yerlərində (33.3%), çox uşaqlı ev təsərrüfatları isə şəhərdən fərqli olaraq (8.3 %) kənd yerlərində (11.0 %) üstünlük təşkil edir [167].

Lakin bildiyimiz kimi, sovet dövründə ənənəvi ailələrdə, xüsusilə kənd yerlərində ailədə uşaqların sayı indikindən çox olmuşdur. Doğulan oğlanların sayının qızların sayına nisbətən daha çox olması, Azərbaycanda da öz əksini tapmışdır. 90-cı

illərin əvvəlindən başlayaraq 2002-ci islədək ölkədə doğum səviyyəsinin aşağı düşməsi müşahidə olunurdu. Lakin son illər bu göstərici ilbəil artır. 15 və yuxarı yaşda olan doğan qadınların 52,4%-i şəhər yerlərində, 47,6%-i isə kənd yerlərində olduğu halda, doğmayan qadınların 55,4%,-i şəhər yerlərinin, 44,6,%-i kənd yerlərinin sakinləridir. Boşanan qadınlar arasında doğanların 72,2%-i şəhər yerlərinin, 27,8%-i isə kənd yerlərinin payına düşür [167].

Rəsmi orqanlar tərəfindən qeydə alınmışdır ki, qadınlar üçün nikaha daxil olmanın orta yaşı 23, kişilər üçün isə 27-28 yaş olmuşdur. Bu ənənə son yüz ildə sabit olaraq qalmışdır [167]. Lakin son dövrdə maddi təminat və karyera əldə etmək məqsədi ilə daha gec yaşda ailə qurmaq istəyən kişi və qadınların sayı artmışdır. Bəzən yeni vətəndaş nikahları bu məqsədlə yaşayan insanların strategiyası ilə uzlaşır. Bəzən valideyn və qohumlar onları öz fikirlərindən daşındırmaq üçün təzyiq göstərirlər. Lakin açıq cəmiyyətdə düşüncələrdə baş verən dəyişikliklər öz əksini cəmiyyətin həyatında da biruzə verir. Bu özünü nikah və boşanma hallarında da əks etdirir. 2003-cü ildən nikahların, həm də boşanmaların sayında artım müşahidə olunurdusa, 2008 və 2009-cu illərdə bu göstəricilər əvvəlki ilə nisbətən bir qədər azalmışdır [167]. Bununla belə 2011-ci ildə əvvəlki ilə nisbətən bir qədər artım müşahidə olunur (cədvəl 7).

Nikahda olanların ən yüksək faizi 40–49 yaş qrupunda qadınlarda (81%), 50–59 yaş qrupunda isə kişilərdə (95%) müşahidə olunur. Boşanan qadınlar ən çox 35-39 yaş qrupunda (5%), dul qadınlar isə 70 və yuxarı yaşda (66%) olmuşdur (cədvəl 8) [167].

Bununla əlaqədar olaraq Azərbaycan hökuməti dövlət səviyyəsində ailə problemləri, qadın məsələsi və gender siyasəti sahəsində müəyyən tədbirlərin həyata keçirilməsi sahəsində xeyli işlər görmüşdür. Lakin problemlərin kökü daha dərindir və onların aradan qaldırılması üçün uzun müddət tələb olunur. Bu artıq milli şüurun dərin qatlarında yer alan stereotiplərdir. Biz onları aşağıdakı şəkildə səciyyələndirə bilərik:

- *Ənənəvi patriarxal ailə qadının seçiminə önəm vermir.*

Bir çox ənənəvi ailələrdə əksər hallarda qız övladının öz həyatı ilə bağlı seçimi ailənin kişi cinsləri (ata, qardaş) tərəfindən təkzib olunur. Bu özünü geyim, həyat yoldaşı, dost seçimi, sərbəst əyləncə, peşə seçimlərində, həmçinin demokratik seçkilərdə öz həyat yoldaşı, qızı əvəzinə səs verən bəzi kişilərin davranışlarında biruzə verir. Yəni bu və ya digər məsələlərdə atanın və ya qardaşın son sözü əhəmiyyət daşıyır ("Ağsaqqal sözü", "kişi sözü" anlayışları da buradan irəli gəlir). Atasının və ya ərinin sözündən çıxaraq iradəsini ortaya qoyması ilə özünün və atasının sosial nüfuzuna xələl gətirməmək üçün qız və qadınlar susmağa üstünlük verirlər. Çünki böyüklərə hörmət və itaət, uşaqların və cəmiyyətin də onlara hörmət və itaət etməsinə şərait yaradır. Bu ənənənin pozulması ailədaxili münasibətlərin korlanmasına və ailənin dağılmasına səbəb olacaqdır. Qadın ailənin və uşaqların xətrinə istənilən halda susmağa və itaət etməyə məcburdur. Qadını seçim və sərbəst fikir azadlığından məhrum edən bu adət-ənənələr, onun iradəsiz və şəxsiyyətsiz bir obyektə çevrilməsinə şərait yaradır. Cəmiyyət tərəfindən qoyulan qadağalar (geyimdə, davranışda) qadının gender rollarının çərçivəsindən çıxmağa imkan vermir. Lakin bu gün artıq əksər qadınlar bu ənənəni pozmağa qərar vermişlər. Bu da cəmiyyətdə boşanma hallarının artmasına təsir göstərən əsas amillərdən biridir.

- *Ənənəvi patriarxal ailə qadına qarşı zorakılığa haqq qazandırır.*

Ənənəvi Azərbaycanlı ailəsində qadın öz ərinə tabe olmalı və onun sözündən çıxmamalıdır. Çünki bunu ondan həm qızın ailəsi, həm də patriarxal cəmiyyətin normaları tələb edir (*Ər evi, gor evi*). Bu normalar ailədaxili bütün zorakılıq hallarının ört-basdır edilməsinə şərait yaradır (*Ailənin sirr sözü, ailədə qalar*). Çünki öz haqqını tələb edən qadın yanlız ərinə qarşı deyil, həm də cəmiyyətin dəyərlərinə qarşı çıxır. Buna görə də, cəmiyyətin adət-ənənələri qadının bütün haqsızlıqlara səbr etməsini rəva görür və bu kimi məsələlərin ictimai müzakirəyə, məhkəmələrə çıxmasını rüsvayçılıq halı hesab edirlər. Buna görə də, zorakılıq halları çox vaxt statistikadan yayınır. Qadınların ən çox ailə zorakılığına məruz qaldığı ölkələrdən biri olan ABŞ-da isə, qadınlara qarşı ən kiçik zorakılıq halları belə rəsmi statistikadan kənarda qalmır. Çünki ABŞ-da ailə zorakılığını elan etməməklə bağlı hər hansı bir əxlaq qadağaları yoxdur. Bu kimi ailədaxili zorakılıq halları insan hüquqlarının

kobud şəkildə pozulmasına və cəmiyyətdə cinayət hallarının artmasına şərait yaradır [192].

Bu gün KİV-də ağır cinayətlərlə nəticələnən bəzi ailədaxili zorakılıq hallarının işıqlandırılması cəmiyyəti şoka salır. Halbuki, bunlar baş verən hadisələrin cüzi hissəsidir. Ənənəvi cəmiyyətlərdə isə belə hallarda adətən qadınların suçlu olduğunu bildirir və ərlərinin zorakılıq əməllərinə haqq qazandırırlar. Bu gün bizim cəmiyyətdə bu kimi hallar kifayət qədərdir. Statistik göstəricilər də bunu deməyə əsas verir (Bax: cədvəl 9).

Bununla əlaqədar olaraq 2006-cı ildə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunun qəbul edilməsi və qızlar üçün nigah yaşının 18 yaşa qaldırılması ilə bağlı Ailə Məcəlləsində dəyişikliklər edilməsində Mehriban Əliyevanın müstəsna rolu nəticəsində qadınların hüquqlarının təmin olunmasına böyük təkan vermişdir [15,s. 63].

- *Ənənəvi patriarxal ailə qadının əməyini istismar edir.*

Azərbaycanda əhalinin vaxt büdcəsindən istifadəsi üzrə sorğunun nəticələrinə əsasən əhalinin gündəlik vaxt sərfi araşdırılmışdır. Haqqı ödənilməyən işlərə qadınların sərf etdiyi vaxt 06:06 saat, kişilərdə isə 02:08 olmuşdur. Gəlir gətirən işə və təhsilə sərf edilən vaxt qadınlarda 01:44 saat, kişilərdə isə 04:40 olmuşdur [167].

Ailənin birgə yaşayış mühitində əmək bölgüsü ənənəvi olaraq elə aparılmışdır ki, kişi dəyəri ödənilən evdənkənar işlərlə (*evə çörək gətirən*) məşğul olduğu halda, qadınlar ailədaxili dəyəri ödənilməyən ev işləri ilə məşğul olurlar. Bu qeyri-bərabərlik halı qadının üzərinə düşən təbii və adi vəzifə kimi qiymətləndirilir. Yəni qadının ailədə yerinə yetirdiyi ev işləri asosial və reproduktiv işlər kimi digərləri tərəfindən qiymətləndirilmir. Qadının ailədə iqtisadi asılılığı, onun müstəqil olmasına və özünü təsdiq etməsinə mane olur.

Sovet hökumətinin ailə siyasəti bir təfərdən qadını ev işlərinə təhkim edən ənənəvi stereotiplərdən qismən azad etsə də, onun ailədən tam müstəqilliyinə şərait yaratmadı. Kişilərin işlə təmin olunmasına dövlət nəzarəti həyata keçirən sovet hökuməti bir yandan qadınların əməyindən ucuz işçi qüvvəsi kimi istifadə etməklə

onları ev işlərindən sosial işlərə cəlb edir, digər yandan çoxuşaqlı analara dövlət yardımı verməklə patriarxal ailə institutunu müdafiə edirdi. Lakin qadınların təhsil alması, müxtəlif peşələrə sahib çıxması, onların ər asılılığından qismən müstəqil olmasına səbəb oldu [125,s. 122]. Buna görə də, Azərbaycanda qızların valideynləri onların daima təhsil almasına və bir peşə sahibi olmasına xüsusi diqqət verirlər. Əsasən sovet dövründə baş verən bu cinsi inqilab, qadınları evə təhkim edən stereotiplərdən azad etdi.

Bu gün çox az kişi tapılar ki, qadınlarının, qızlarının hər hansı bir dövlət və ya qeyri-dövlət idarələrində işləmələrinə etiraz etsinlər. Qadınlar kişilərlə birgə ailə büdcəsinin formalaşmasında bərabər iştirak edirlər. Bu baxımdan kişinin ailənin yeganə *çörəkverəni* olması ilə bağlı stereotip formal xarakter daşıyır. Ancaq kişinin maddi təminatından asılı olan ailələrdə bu stereotip öz aktuallığını qoruyub saxlayır.

Bu gün Azərbaycanda az məvacibli ənənəvi işlərlə (müəllimlik, həkimlik) yanaşı, yüksək gəlirli qeyri-ənənəvi işlərlə (7-8% biznes-ledi, idarə rəhbəri) məşğul olan qadınların da sayı artır [167]. Bu gün bəzi qadınlar ənənələrə zidd olaraq karyera naminə kişilərlə rəqabətə girməyə çalışırlar. Çünki onların əldə etdikləri yüksək gəlir, onların daha maliyyə və davranış baxımdan daha müstəqil olmasına və hətta ailənin maddi təminatını öz üzərinə götürməsinə səbəb olur. Lakin bu qadınların çox hissəsi cəmiyyətdə qeyri-ənənəvi, ailədə isə ənənəvi qadın rolunda iştirak edirlər (məsələn, ərinin və ya atasının icazəsi olmadan xarici məzuniyyətə getmir). Çünki cəmiyyət ənənəvi “evdar qadın” obrazına zidd olan yeni gender rollarını tam mənada mənimsəyə bilmir və bundan da qadınların iş fəaliyyətinə bütün sahələrdə maneələr yaradılır. Qadın həm ailədə, həm də cəmiyyətdə yarana biləcək söz-söhbətdən qaçmaq üçün ikili gender rolunu ifa etməyə məcbur olur.

Lakin qadınların yeni sosial rolunu bəzi kişilər ənənəvi dəyərlərdən çıxış edərək qiymətləndirirlər. Bu mədəni təsəvvürlərdə köhnə ilə yeninin arasında yaranan ziddiyyətlərdən irəli gəlir. Hadisələri stereotiplərdən kənarda müstəqil şəkildə dəyərləndirməyi bacarmayan insanlar arasında münaqişələr yaranır. Son dövrlərdə artan boşanmaların əsas səbəblərindən biri də budur.

- *Ənənəvi patriarxal ailə qadının mülkiyyət hüququnu pozur.*

Azərbaycan ailələrinin bir çoxunda qız övlada ata mülkündən pay verilmir. Buna görə də kişilər mülkiyyətin 90% sahibdirlər. Yanlız 0,1% kişi və 1% qadın öz mülkiyyətlərini qızlara verməyə üstünlük vermişlər. Adətən mülkiyyətin bölüşdürülməsi məsələsində oğlan övladlara üstünlük verilir. 41,8% qadın və 36,9% kişi öz mülkiyyətlərini oğlan övladına vermişlər. Qızların varislik yolu ilə bu imkanları əldə etməsi mümkün deyildir. Bu qadınların iqtisadi müstəqilliyinə və bankdan kredit əldə edib biznes fəaliyyəti ilə məşğul olmasına mane olur. [178].

Müasir qanunvericilikdə mülkün bölüşdürülməsi məsələsində kişi-qadın ayrıseçkiliyi yoxdur. Sadəcə adət-ənənələr qızların ərə gedərkən ata mülkündən imtina etmələrini və adətən vərəsəlik yolu ilə evin kiçik oğluna verilməsini rəva görür.

Şəriət hökmlərinə əsasən oğula ata mülkündən düşən payın yarı hissəsi qızın payına düşməlidir. Çox vaxt bu ənənələr də pozulur. Mülkiyyətin qeyri-bərabər bölüşdürülməsi və bu barədə üstünlüyün oğlan övladlara verilməsi strategiyası qadınlar üzərində kişilərin hakimiyyətinin qorunmasına xidmət edir. Çünki ailədə kişinin mülkiyyətdən məhrum olması, onun ailədə nüfuzuna xələl gətirir. Milli mentalitetdə "kişi və ya adam olmaq" – "pul qazanmaq" ilə eyniləşdirilir. Buna görə də, ailədə maliyyənin kimin əlində olması, real hakimiyətin kimə mənsub olduğuna işarədir. Ailəni təmin edən bir çox qadınlar ənənəvi gender rollarını tərk etmədən real hakimiyyəti öz əllərində saxlayırlar. Bəzən kişilər qadınların işləməsinə və gender rollarının dəyişilməsinə razı olurlar.

Lakin qadınların varislik hüququndan (qeyri-rəsmi şəkildə) məhrum edilməsi, onların ərindən asılılığını artırır və bu eyni zamanda onun hüquqlarının pozulmasına şərait yaradır.

- *Ənənəvi patriarxal ailə qadını əxlaq normaları ilə istismar edir.*

Cəmiyyət ailənin üzərinə müəyyən əxlaqi normalara itaət etmək məsuliyyətini qoyur. Bu Azərbaycan ailəsinin əxlaqi statusunu müəyyənləşdirən qeyrət və namus anlayışlarıdır. Kişinin qeyrəti qadın və qızının namusuna bağlıdır. Yəni qadın kişinin namusuna ləkə gətirdiyi təqdirdə, cəmiyyət kişinin üzərindən qeyrət statusunu götürür (qeyrətsiz). Belə bir ailənin ənənəvi cəmiyyət daxilində mövcudiyyəti

mümkün deyildir. Buna görə də, bəzi kişilər cəmiyyətin ağır qınağından qurtulmaq və qeyrət statusundan məhrum olmamaq (qeyrətini qorumaq) üçün qadını öldürməklə ağır cinayətə əl atır və ya ən yaxşı halda boşanır. Ailənin və nəslin adının əxlaqsızlıq (namussuzluq, qeyrətsizlik) damğasından qorunması üçün, qız uşaqlarına kiçik yaşlarından abır və həya qaydaları öyrədilir və onlar bakirəliyin qorunması ilə əlaqədar ciddi şəkildə təhdid olunurlar. Çünki qadınların nəinki zina, hətta kiçik bir ehtiyatsızlıq etmələri, onların namussuzluq damğası ilə qınanmasına səbəb ola bilər. Xüsusilə, cəmiyyət subay və kimsəsiz qadınların bütün davranışlarına mənfi rəy verməyə meylli olur. Çox vaxt qadınlar ictimai qınaqdan xilas olmaq üçün məcburi ərə getməyə çalışırlar. Qadınların cəmiyyət tərəfindən qoyulan bu əxlaqi normalara münasibətdə həssas davranmaları, nəinki onların özlərini, hətta təmsil etdikləri ailə və nəsli ictimai qınaqdan qorumaq üçün zərurətə çevrilir. Bu qadağalar hətta müasir müstəqil qadınların da davranışlarını tənzimləyir. Onların cəmiyyətdəki yerini və gender rollarını müəyyənləşdirir. Bu normalar qadının cəmiyyətdə necə səslə danışmasını, hara və necə gedib-gəlməsini tənzimləyir. Qadınları daha ciddi itaətdə saxlayan bu qadağalar, patriarxal cəmiyyətin sosial qaydalarının qorunmasına və yeni cəmiyyət quruculuğunun qarşısının alınmasına xidmət edir. Çünki kişilərin zinakarlıq etməsi nə ailənin namusuna, nə də kişinin qeyrətinə bu cür xələl gətirir. Halbuki, şəriət hökmlərinə görə kişi və qadının zinakarlıq halları eyni dərəcədə qiymətləndirilir.

- *Qadın analıq institutu vasitəsilə patriarxal ənənələri davam etdirir.*

Qadın ana statusunu qazanmaq üçün, patriarxal ailə normalarına tabe olmalı və övladlarını böyüdənədək bütün çətinliklərə səbr etməlidir. Onun üzərinə düşən vəzifələr dünyaya çoxlu uşaq gətirmək və onları böyütmək, yemək bişirmək, evi təmizləmək, ərinə itaət etmək, ailədəki digər insanlara (qayınana, qayınata) qayğı göstərmək və s.

Şəhər yerlərindən fərqli olaraq kənd yerlərində qadının üzərinə daha çox iş düşür. Qadınlar bütün bu vəzifə və funksiyaları layiqincə yerinə yetirdikdən və övladlarını böyütdükdən sonra “yaxşı ana” statusuna sahib çıxırlar. Lakin sonsuz qadınlar ənənəvi cəmiyyətdə belə bir statusa sahib çıxa bilməmişlər. Bu uzun sürən proses

kişinin və evdə olmadığı təqdirdə onun anasının (qayınana) nəzarəti altında həyata keçir. Deməli, qadının ailə üzərində dolayı hakimiyyəti yanlız dul qaldığı təqdirdə evli oğlunun ailəsi üzərində bərqərar olur. Lakin bu hakimiyyət qadın hakimiyyəti deyil, həmin patriarxal hakimiyyətin davamıdır. Çünki artıq yaşlı ana öz üzərində bu hakimiyyət təcrübəsini əldə etmiş və şüuraltı şəkildə onun ifadəçisinə çevrilmişdir. Sadəcə, yaşlı ağbirçək ana oğlunun ailəsi üzərində bu hakimiyyəti idarə etmək imkanlarına qismən nail olur və nəticədə, gəlin qayınana arasında münaqişə yaranır. Lakin bu münaqişələr yenidən axır sözün ailədə evin kişisinə aid olmasına şərait yaradır. Bu işin öhdəsindən gələ bilməyən kişilər cəmiyyətdə, anasının sözü ilə idarə olunan kişilər isə gəlin tərəfindən qınaq obyektinə çevrilir. Deməli, qadın yaşlı vaxtında ailə hududlarında qazandığı ana statusu ilə nəinki cəmiyyətdə, hətta ailədə son söz demək iqtidarına sahib olmur. Bütün ailədaxili münaqişələr güclü kişi hakimiyyətini yaradır və ya bu hakimiyyətdən məhrum olan ailələr dağılır.

Radikal feministlər fərdi analığın deyil, analıq institutunun qadını stresə salan daha çox məhdudiyyətlər və məsuliyyətlər qoyduğunu bildirirlər. Enn Oukli “Ev işlərinin sosiologiyası” və “Evdar qadın” əsərlərində analıq ilə bağlı miflərə və ya yanlış ideyalara öz münasibətini bildirir:

- “Uşaqlara sosial deyil, bioloji ana gərəkdir” - tezisini təkzib edərək bildirir ki, övladlığa götürülən uşaqlar heç də öz doğma valideynləri yanında tərbiyə alan uşaqlardan seçilmirlər. Bu mif qadını istismar edən mədəni konstruksiyadır. Bəzi qadınlar şüurlarında köklənən sosial-mədəni stereotiplərdən çıxış edərək sonsuzluğu fərdi bədbəxtlik, uğursuzluq hadisəsi kimi qəbul edirlər. Halbuki, övladı olan və özünü bədbəxt, uğursuz hiss edən anaların sayı da az deyildir. Buna görə də, qadının səadəti onun övladının olub-olmamasına bağlı deyildir.

- “Uşaqlar (xüsusilə körpə) məhz ananın (atanın deyil) tam qayğısına ehtiyac duyurlar” - tezisini təkzib edərək bildirir ki, uşaqlara onunla yaxın ünsiyyət qura bilən bir adamın olması vacibdir.

- “Uşaqlara çox deyil, yanlız bir nəfər qayğı göstərməlidir” - tezisini təkzib edərək bildirir ki, kommunal İsrail kibbutsilərində (kollektiv təsərrüfat modeli) tərbiyə alan uşaqlar ailədə tərbiyə alan uşaqlardan geri qalmırlar [63,s. 22-23].

Feministlərin cəmiyyətdə təlqin etdiyi bu cür təsəvvürlər, ənənəvi analıq institutunu təhlükə altında qoyur. Analara mənsub olan fitri fədakarlıq və qayğıkeşlik hissləri arxa plana keçir. Halbuki, cəmiyyətin varlığı üçün zəruri olan bu hisslərin nə cəmiyyətdə, nə də təbiətdə alternativinin olmaması əksər psixoloqlar tərəfindən sübut olunmuşdur [119,s. 111].

Bu gün dövlətin sosial-iqtisadi dəstəyi olmasa kişi və qadın ailədə daşıdıqları ənənəvi funksiyaları itirər və bu da ailədə mənfi patriarxal dəyərlərin yenidən güclənməsinə şərait yaradar. Dövlət tərəfindən həyata keçirilən bu və ya digər fəaliyyətlər cəmiyyətdə yaranan problemlərin həllinə müsbət təsir göstərir. Dövlət regionlarda məktəblərin tikilməsinə, sağlamlıq mərkəzlərinin açılmasına, qızların tez ərə verilməsi və təhsildən yayınması hallarının qarşısını almağa, əhalinin işlə təmin olunmasına çalışır. Lakin destruktiv qloballaşma şəraitində cəmiyyətin sağlam dəyərlərinin qorunması istiqamətində daha çox işlər görülməlidir. Dövlət cəmiyyətdə ailənin nüfuzunu artırmaq üçün, kişilərin nüfuzunu ailədə artırmalı və onları işlə təmin etməli, həmçinin Prof. Haydar Baş bildirdiyi kimi, qadınların ailə və cəmiyyətdə nüfuzunu artırmaq üçün onların evdə gördükləri reproduktiv işlər dövlət məvacibi ilə qarşılamalı və sosial iş kimi dəyərləndirilməlidir [28,s. 65]. Çünki bu ailə siyasəti gender bərabərliyinin təmin olunmasına və cinslərarası qarşılıqlı hörmətə şərait yaradar.

## III FƏSİL. AZƏRBAYCANIN MƏDƏNİ-MƏNƏVİ HƏYATININ GENDER ASPEKTLƏRİ

### 3.1. Elm və təhsil sahəsinin inkişafında gender amili

Sovet dövlətinin süqutundan sonra postsovet məkanına yeni kapitalist dəyərləri ayaq açdı. Bazar iqtisadiyyatı, demokratiya və digər liberal dəyərlər sistemi ənənəvi elm-təhsil sistemini və istehsalı tədricən ortadan qaldırdı. Məhz bu keçid mərhələsində yeni şəraitə uyğunlaşmayan əhalinin əksər hissəsi işsiz qaldı. Onlar arasında savadsız qadınlar çoxluq təşkil edirdi. Çünki ənənəvi təhsil sistemi müasir tələblərə cavab verə bilmir və əksər iş yerləri öz fəaliyyətini dayandırmışdır.

Bazar iqtisadiyyatı ənənəvi ixtisasların əksəriyyətini ortadan qaldırdı və yeni ixtisaslar meydana çıxardı. Yeni sosial-iqtisadi sistemin tələblərinə cavab verən yeni təhsil sistemi həm də gender tələblərinə cavab verməli idi. Çünki 2006-cı ildə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmiş "Gender bərabərliyinin təminatları haqqında" qanuna görə, dövlət qadınlara ictimai həyatın bütün sahələrində olduğu kimi təhsil sahəsində də kişilərlə bərabər imkanlar yaradılmasına təminat verirdi.

Son dövrlərdə respublikada yaranan vəziyyət təhsil sahəsində islahatların aparılmasını zəruri edirdi. Buna görə də sovet təhsil sistemi tədricən yerini Qərbdən gələn yeni baloniya təhsil sisteminə təhvil verdi. "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə əlaqədər bəzi tədbirlər haqqında" prezidentin 31 yanvar 2008-ci il sərəncamı, Azərbaycan Ali Təhsil Müəssisələrinin Avropa təhsil sisteminə keçidini təmin etdi və "təhsil haqqında" qanuna müvafiq olaraq bütün vətəndaşlar 6 yaşından pulsuz və icbari təhsil almaq hüququna malik oldu.

Bu gün Azərbaycanda təhsilin dinamik gendereoloji təhlilini aparmaq üçün təhsil səviyyəsini, ixtisas seçimini, təhsildə idarəetməni və təlim-tərbiyə məsələlərini gender aspektindən araşdırmaq lazımdır. Bu sahədə aparılan tədqiqatların əhəmiyyəti təhsilin müasirləşməsinə və inkişafına xidmət edir.

Azərbaycanda müasir təhsil islahatları tədris müəssisələrinin müasir texniki vasitə, yeni məktəb binaları, kompüter və ən yeni ədəbiyyatla təmin olunmasına və milli təhsilin inkişafına şərait yaratdı. Bu gün Azərbaycanda demək olar ki, bütün əhalinin, oğlan və qızların birgə öz ana dilində təhsil alması üçün maddi-texniki şərait yaradılmışdır.

Bu gün bütün əhalinin, xüsusilə qadınların təhsil səviyyəsində əldə olunan uğurlarda əvvəlki dövrlərin də öz payı vardır. Çar Rusiyası dövründə Şuşa (1830), Bakı (1832), Şəki (1833), Gəncə (1837), Naxçıvan və Şamaxıdakı (1838) rusdilli məktəblər, Şamaxı və Bakıda (1848) ilk qadın tədris mərkəzi, Bakıda (1874) açılan ilk qadın gimnaziyası [11,s.132] və sonralar sovet dövlətinin əhalinin kütləvi savadlanması ilə əlaqədar apardığı təhsil siyasəti milli-mənəvi dəyərlərə zidd olan ideoloji məqsədlərə xidmət etsə də, ümumən əhalinin təhsil səviyyəsini artırmışdır.

2009-cu ilin statistik göstəricilərinə görə Azərbaycanda 15 və yuxarı yaş həddində olan əhalinin 99,8% savadlıdır. Onlar arasında qadınlar 99,7, kişilər isə 99,8% təşkil edirlər [177]. Bu gün əhalinin, xüsusilə qadınların təhsil səviyyəsini əvvəlki illərlə müqayisə etsək böyük bir irəliləyişin olduğunu görərik. 1897-ci ildə Azərbaycan ərazisində umumi savadlılıq 6,2%, 1917-ci ildə 9,3% idisə, onlar arasında qadınların 96,7% savadsız idi [123,s.23]. Bu XX əsrdə əhalinin, xüsusilə qadınların təhsil səviyyəsinin nə qədər sürətlə artdığını göstərir.

Əhalinin savadsızlıq səbəblərindən biri də tədrisin rus dilində və İslami dəyərlərə zidd şəkildə aparılması ilə bağlı idi. Lakin bəzi siyasi-ideoloji təşkilatlar mövcud stereotipləri aradan qaldırmaq üçün “qadın klubları” vasitəsilə qadınlar arasında təbliğat işi aparır və feminizm ideyalarını yayırdılar. Məqsəd müsəlman qadınların kütləvi şəkildə çadradan və evdən çıxaraq təhsilə yiyələnməsi və cəmiyyətin sosial-iqtisadi həyatında fəal iştirak etməsi idi. Bu məqsədə sovet hökuməti milli-mənəvi dəyərlərə edilən zorakılıq siyasəti və insan hüquqlarının kobud pozulması yolu ilə nail oldu. 60-80-ci illərdə artıq Azərbaycan qadınlarının 35-40% savadlı idi [123, s.24].Ancaq Azərbaycanın bölgələrdə yaşayan əhalisi, xüsusilə, əksər qadınlar qul kimi kolxoz və sovxozların ağır plan təsərrüfatına cəlb olunduqları üçün təhsildən kütləvi şəkildə yayınırdılar [167].

Bu gün təhsil sahəsində əldə olunan uğurlarla yanaşı, bir çox problemlər də vardır. Azərbaycan dövləti bu gün özünü inkişaf etmiş ölkələrlə müqayisə etdiyinə görə, təhsil sahəsində də problemlərin ortadan qaldırılmasına diqqət yetirir. Ölkədə yaranan sosial-iqtisadi və sosial-mədəni dəyişikliklərlə əlaqədar olaraq təhsil sahəsində bir çox problemlər ortaya çıxmışdır. Bu təhsil problemləri arasında təhsildə gender problemləri xüsusi yer tutur. Dövlət və qeyri-dövlət sektorunda problemlərin aradan qaldırılması istiqamətində bir çox işlər görülmüşdür. Azərbaycanda Qadın Şəbəkəsi Proqramı (QŞP), Açıq Cəmiyyət İnstitutu (ACİ) və dövlət tərəfindən təhsilin inkişafı etdirilməsi ilə bağlı bir çox layihələr – "Səlahiyyətli təhsil" (2000-2005-ci illər), "Şifahi tarixçələr", "Üçüncü sektorda gender təhsili", "Gender təhsili üçün informasiya resursları" və başqa layihələr, həmçinin gender təhsili ilə bağlı elmi praktiki konfranslar – "Ali təhsil sistemində gender təhsili problemlərinin nəzəri-metodoloji aspektləri" (2002), "Gender, təhsil və dünya mədəniyyəti" (2005), "Genderin sosial və humanitar fənlərə inteqrasiyası" (2001), "Səlahiyyətli təhsil orta məktəb islahatına köməkdə: Avropa təcrübəsi" (2005), "Uşaq hüququ və onun tədrisi" (2005) və başqa tədbirlər həyata keçirmişlər.

Son dövrdə Azərbaycan əhalisinin təhsil səviyyəsini göstərən statistik göstəricilərdən göründüyü kimi, qadınlar bütün yaş dövrlərində ali (12 %), natamam ali və orta təhsil (19 %) səviyyələrinə görə kişilərdən geri qalsalar da, onların ali və digər təhsil səviyyələri artan dinamika üzrə inkişaf edir. 50 yaşdan yuxarı əhali kütləsi təhsil səviyyəsinə görə gənc və orta yaşlı əhalidən geridə qalır. Bu rəqəmlər müasir Azərbaycan əhalisinin sovet dövrünə nisbətən bütün təhsil səviyyələrində daha savadlı olduğunu göstərir. Təhsil səviyyəsi yaşlı nəslə (50 və yuxarı) nisbətən gənc və orta yaşlılar (20-49) arasında daha yüksəkdir. Lakin təhsil pilləsi artdıqca natamam ali, orta və ali təhsilli kişi və qadınların sayı aşağı enir. Kişilər arasında ali (12%-16%), natamam ali və orta təhsil (19%-24%) göstəricisinin qadınlardan daha yüksək olması kəndlərdə, bölgələrdə qızların bu və ya digər səbəblərdən yüksək təhsildən uzaqlaşmasını göstərir (cədvəl 10) [167].

Azərbaycanda qadınların təhsil səviyyəsi artan dinamika üzrə inkişaf etsə də, qadınların təhsili ilə bağlı bir çox sosial-mədəni problemlər mövcuddur. 1993-2010-

cu illər üzrə oğlan və qız abituriyentlərin sayının dinamikası göstərir ki, ali təhsil müəssisələrinə ərizə verən abituriyentlər içərisində qızların sayı oğlanların sayından üstün olub. Lakin 1993-2010-cu illər üzrə ali təhsil müəssisələrinə qəbul edilən oğlanların sayı qızları keçmişdir [4]. Yəni respublikanın müxtəlif bölgələrini təmsil edən oğlan və qız abituriyentlərin say nisbəti müxtəlifdir və bu göstərici geniş diapazonda dəyişir. Bunun səbəbini respublikanın müxtəlif bölgələrini təmsil edən oğlan və qızların qəbul kampaniyasında müxtəlif dərəcədə iştirak etməsi ilə izah etmək olar. Əgər eyni bir zonaya aid olan Yardımlı, Lerik, Cəlilabad və Masallı bölgələrindən olan abituriyentlər arasında qızların nisbi sayı 9-33% təşkil edirsə, respublikanın şimal-Qərbində yerləşən Zaqatala, Balakən və Qax bölgələrindən olan abituriyentlər arasında onların nisbi sayı 61-66%-dir [4]. Göstərilən statistik göstəricilər qızların təhsil almasında müəyyən sosial-iqtisadi və sosial-mədəni problemlərin mövcud olduğunu göstərir.

2011/2012-ci tədris ilinin əvvəlinə təhsil növləri üzrə şagirdlərin və tələbələrin sayının araşdırılması göstərir ki, Azərbaycanda hər 100 təhsil alana 47 qadın və 53 kişi düşür. Lakin təhsildə dərin sosiomədəni köklərə bağlı olan gender stereotipləri mövcuddur. Bunlardan biri də qızların ixtisas seçimində onların iradələrini nəzərə almamaq və onları ənənəvi ixtisaslara yönləndirməklə bağlı stereotiplərdir. Orta ixtisas təhsili müəssisələrində qadınların sayının (4.5 %) kişilərdən (2.1 %) çox olması onların pedaqoji və orta tibbi təhsilə üstünlük vermələri ilə əlaqədardır. Ali təhsil müəssisələrində və doktoranturada qızların sayı (8.5 %) kişilərdən (9.0 %) geridədir. Eynilə ümumi təhsil müəssisələrində qızların sayı (75%) kişilərdən (77.4 %) geridədir (cədvəl 11) [ 167].

Oğlan və qız abituriyentlərin ixtisas qrupları üzrə istəklərinin paylanmasında ciddi fərqlər vardır. Oğlanlar ən çox I və II ixtisas qruplarında, qızlar isə III, IV və V ixtisas qruplarında təmsil olunurlar. V ixtisas qrupunda abituriyent kontingentinin 94.95 faizini qızlar təşkil etmişdir (cədvəl 12).[167].

Azərbaycan bölməsinin qız abituriyentlərinin “iqtisad, idarəetmə və coğrafiya” və "xarici dillər və beynəlxalq əlaqələr" ixtisaslarına maraqları rus bölməsində oxuyan qızlardan fərqli olaraq daha zəifdir. Çünki Azərbaycan bölməsindəki qızların

əksəriyyəti bölgələrdəndirlər. Bu ixtisas altqruplarında xarici dil fənnini yaxşı bilmək vacibdir. Bölgələrdə isə xarici dil fənni zəif tədris olunur və ya müəllim çatışmazlığına görə tədris olunmur. Cədvəldəki statistik rəqəmlər göstərir ki, oğlanların seçdikləri altqruplara qızlar az meyl edir, yaxud da əksinə. Bu cəmiyyətdə "kişi peşəsi", "qadın peşəsi" kimi mövcud olan gender stereotipləri ilə bağlıdır [4] . Lakin qabiliyyət əmsalına görə oğlanların riyaziyyat fənnində qızlardan, qızlar isə Azərbaycan dili fənnindən oğlanlardan üstün göstəricilər təqdim edirlər [5].

Statistika təsdiq edir ki, Azərbaycanın təhsil sistemində işləyən kişi və qadınların nisbəti 33,1% və 66,9%-dir. Təhsil sahəsində bütün vəzifələr kişilərə aiddir. Təhsilin idarəetmə aparatında kişilərin qadınlara nisbəti isə 6:1 olmaqla istisna təşkil edir. Rektorların 90% kişi, 9.1% qadındır. Labaratoriya və şöbə müdirləri vəzifələrində qadınlarla kişilər arasında nisbət böyük deyildir (3.2 % - 3.7 %). Qadınlar isə baş müəllim, müəllim vəzifələrində kişilərdən üstünlük təşkil edirlər (cədvəl 13) [167].

2011-ci ildə əyani tam orta təhsil müəssisələrində direktor vəzifəsində çalışan qadınların xüsusi çəkisi ötən tədris ili ilə müqayisədə 26,5 faizdən 28,4 faizə qədər artmışdır. Ümumilikdə əyani ümumi təhsil müəssisələrində qadınların ümumi sayında direktorların və onların müavinlərinin sayı 2,2 faiz artmışdır [167].

Sovet dövründə dövlət himayəsi altında bir çox Azərbaycan qadını müxtəlif elm sahələrində fəallaşdı. Onlar arasında görkəmli akademiklər, professorlar, dosentlər vardır. Lakin 90-cı illərdə keçid dövrü ilə əlaqədar yaranan sosial-iqtisadi böhran əksər alimlərin başqa ölkələrə axınına və ya müxtəlif gəlirli sahələrə getməsinə, bir qrup alimlərin həm elmi tədqiqat, həm də əlavə işlərlə məşğul olmasına, digər bir qisminin də QHT-nın layihələrinə cəlb olunaraq öz maddi ehtiyaclarını təmin etməsinə səbəb oldu. Bütün bu proseslər Azərbaycanda elmin inkişafına mənfi təsir göstərdi. Elmdə kişilərin sayı azaldı və ya onların iş səmərəliliyi aşağı düşdü. Qadınlar isə kişilərə nisbətən kiçik məvaciblə yetinərək öz iş yerlərini tərk etmədilər. Lakin buna baxmayaraq elmin idarəolunması sahəsində üstünlük təşkil edən yenə də kişilərdir.

Azərbaycan qadınlarının sayı 90% kişiyə qarşı 10%, namizədlik dissertasiyası müdafiə edənlərin sayı isə 70,1% kişiyə qarşı 29,9%-dir. Respublikamızın ali təhsil

müəssisələrində işləyən qadınların tədris prosesindəki maaş səviyyəsi kişilərin maaş səviyyəsinin 70%-ni təşkil edir. 2012-ci ilin əvvəlinə qadınlar arasında 3 nəfər akademik və 11 nəfər müxbir üzvü, kişilər arasında isə 52 nəfər akademik və 94 nəfər müxbir üzvü vardır [167].

2012-ci ilin əvvəlinə elmin sahələri bölgüsündə elmlər doktorlarının hazırlanması proqramı üzrə təhsil alan qadın və kişilərin sayına faizlə nəzər salsaq görərik ki, qadınlar pedaqogika (8.7 %), psixologiya (2.9 %), filologiya (43.5 %), kulturologiya (5.8 %) sahələrində kişilərdən üstünlük təşkil edirlər. Lakin qadınlar kimya (1.4 %), fizika və riyaziyyat (0.0 %), tarix (1.4 %), fəlsəfə (0.0 %), siyasi elmlər (0.0 %), texnika (2.9 %), iqtisadiyyat (7.2 %), baytarlıq (0.0 %), hüquq (0.0 %), yer elmləri (3 %) sahələrində kişilərdən xeyli geridədirlər. Qadınlar və kişilər biologiya (8.7 % - 6.0 %), kənd təsərrüfatı (8.7 % - 6 %) sahələrində təqribən orta göstəricilərə malikdirlər. Elmlər doktorlarının hazırlanması proqramı üzrə təhsil alanların 74 nəfəri Təhsil Nazirliyində, 35 nəfəri Kənd Təsərrüfatı Nazirliyində, 9 nəfəri İqtisadi İnkişaf Nazirliyində, 47 nəfərini isə Milli Elmlər Akademiyasında təhsillərini davam etdirirlər (cədvəl 14) [167].

2012-ci ilin əvvəlinə elmin sahələri üzrə tədqiqatçıların sayına faizlə nəzər salsaq görərik ki, qadınlar humanitar elmlər (15.1 %), tibb elmləri (6.2 %), təbiət elmləri (40.6%) üzrə kişilərdən qismən çox tədqiqiat işləri aparmışlar. Kişilər kənd təsərrüfatı (6.3 %) və qismən texniki elmlərdə (14.8 %) qadınlardan qismən üstünlük təşkil edirlər. İctimai elmlər sahəsində cinslərin göstəriciləri (7.8 % - 7.0 %) təqribən eynidir (cədvəl 15) [167].

Göründüyü kimi, Azərbaycanda cinslərin, xüsusilə qadınların təhsil səviyyəsi tarixən artan dinamika ilə inkişaf etmişdir. Son dövrlərdə gənc qızların təhsil səviyyəsi daha da artmışdır. Lakin bölgələrdə, xüsusilə cənub bölgəsində qadınların təhsil problemləri hələ də yaşanır.

Yaxud qız abituriyentlərin III, IV və V (94.95%) ixtisas qruplarında yüksək şəkildə təmsil olunması və I, II qruplar üzrə zəif göstəricilər göstərməsi, qadınların əsasən humanitar (filologiya, pedaqogika, psixologiya və s) və orta tibbi təhsilə üstünlük vermələri, onların digər sahələrdə fitri istedaddan məhrum olduqlarını deyil,

cəmiyyətdə "kişi peşəsi", "qadın peşəsi" kimi mövcud olan gender stereotiplərinin qurbanına çevrildiklərini göstərir. Bu və ya digər səbəblər təhsil səviyyəsinin aşağı düşməsinə, həm də təhsildə gender problemlərinin yaranmasına təsir edir. Bu səbəblər arasında milli stereotiplərlə yanaşı, sosial-iqtisadi problemlər də vardır.

*Sosial-iqtisadi problemlər*:

- qaçqınların (xüsusilə qızların) kütləvi şəkildə təhsildən yayınması və ya təhsil şəraitinin olmaması;
- bəzi kəndlərdə məktəblərin olmaması və ya yararsız vəziyyətdə olması;
- kənd məktəblərinin normal müəllim heyəti ilə təmin olunmaması;
- bölgələrdə məktəbəqədər təhsilin aşağı səviyyədə olması (17%) və s.

*Milli stereotiplər ilə bağlı problemlər:*

- bir çox bölgələrdə bir qrup valideynlər “qız ev və ailə işi ilə məşğul olsun” deyə qız uşaqlarını təhsildən yayındırması, oğlanların isə “ailənin gələcək çörək qazananı olacaq” deyə ali təhsilinə xərc çəkilməsi;
- təhsildən yayınmaq hesabına uşaqların qeyri-qanuni əməyə cəlb olunması;
- "qadın peşəsi" adı altında qızların az gəlirli və ailə işlərinə sərf edilməli olan bol vaxtlı iş sahələrinə, ixtisaslara yönləndirilməsi;
- “ailə büdcəsinə yük” kimi dəyərləndirilən qız uşaqlarının vaxtından əvvəl ərə verilməsi;
- məktəbdə qızların hicab geyiminə qadağanın qoyulması və s.

Göründüyü kimi, qadınlar az məvacibli elm və təhsil sahələrini tərk etmədən fəaliyyətlərini davam etdirmiş və bu sahədə say baxımından kişilərdən üstünlük təşkil etmişlər. Lakin elm və təhsilin idarə olunması sahəsində kişilərdən 6:1 nisbətində aşağıda dayanmışlar. Bunlar qadının fizioloji olaraq elm və təhsilin idarə olunması, elmi ixtiraların əldə olunması sahəsində qabiliyyət göstəricisi ilə bağlı deyildir. Çünki bunun əksini sübut edən onlarla faktlar mövcuddur.

Azərbaycan qadınının elm və təhsilin göstərilən müvafiq sahələrində kişilərdən geri qalmasını təmin edən əsas amillər, cəmiyyətdə qadınlara münasibətdə olan gender stereotipləri və qadının bütün gücünün ailə həyatına sərf etməsi ilə bağlıdır. Qadının digər sahələrdə olduğu kimi, elm və təhsil sahəsində də kişilərdən geridə

qalması onların ailə qayğıları ilə əlaqəlidir. Azərbaycanda ailənin təminatı məsələsinin qadının deyil, kişinin məsuliyyəti üzərində olması, qadının ictimai stimulunu və statusunu zəiflədir. Əksər kişi alimlər, müəllimlər az məvaciblə ailələrini dolandıra bilmədikləri üçün, elmi tərk edərək başqa gəlirli sahələrə üz tutduqlarına görə cəmiyyətdə elm və təhsilin nüfuzu aşağı düşmüşdür. Lakin qadın daima cəmiyyətdə az gəlirli sahələrdə çalışdığı üçün, onun sosial statusu da daima aşağı olmuşdur. Buna görə də son dövrlərdə elm və təhsil sahəsinin qadınlara aid bir sosial sahə olması ilə bağlı stereotiplər yaranmışdır.

Statistik göstəricilərin təhlili göstərir ki, bütün ölkələrdə olduğu kimi Azərbaycanda da təhsil sahəsində gender problemləri mövcuddur. Bu problemlərin aradan qaldırılması üçün gender təhsilinin tətbiqi zəruridir. Lakin bu təhsil sistemini tətbiq etmək üçün onun fəlsəfəsini dərk etmək və bu sahədə mütəxəssisilər hazırlamaq lazımdır.

Təhsildə gender problemi postneoklassik tədqiqat sahəsi kimi müxtəlif elmləri (pedaqogika, psixologiya, fəlsəfə, sosiologiya) və onların metodologiyasını gender təhsili müstəvisində bir araya gətirərək, ənənəvi təhsilin gender stereotiplərini ortadan qaldırmaq vəzifəsini qarşıya qoyur. Postmodern pedaqogika və gender təhsili demək olar ki, modernist ənənədə formalaşan strukturları dekonstruksiya etmək və tədrisin forma və məzmununu tamamilə dəyişmək əzmindədir. Çünki bu düşüncə istənilən bilik sahəsində siyasi-ideoloji konstruksiyanın mövcudluğunu qəbul edərək, biliyi bu konstruksiyalardan azad etmək məqsədini daşıyır.

Məktəb dərsliklərində ehtiva olunan biliklərin çoxunda (xüsusilə, humanitar elmlərdə) gizli şəkildə mövcud olan avrosentrizm, androsentrizm kimi siyasi-ideoloji konstruksiyalar vardır. Onlar sosial-mədəni, cinsi və siyasi ayrıseçkiliyə şərait yaradır. Gender təhsili təhsil sistemində olan bütün dominantlıq formalarını və ya mərkəzlərini dağıdır və təhsildə bütün tərəflərə, həmçinin cinslərə plüralizm, multikultiralizm imkanları yaradır.

Ənənəvi təhsilin ən böyük problemlərindən biri təhsil prosesində şüuraltı yönləndirmədir. Bu isə cinsi ayrıseçkiliyə, insan hüquqlarının pozulmasına və insan potensialının qapanmasına şərait yaradır (Biz bu məsələlərə gender sosiallaşması ilə

bağlı mövzuda qismən toxunduq). Gender təhsili cinslərin öz məqsədlərinə qovuşması yolunda bütün gender stereotiplərini ortadan qaldırır və məqsədə çatmaq istiqamətində onlara eyni imkanlar təqdim edir. Bu cinslərin özünütəsdiq imkanlarını artırır. Yəni cinslərin əvvəlcədən müəyyənləşən stereotiplər əsasında yönləndirilməsi kimi ənənəvi təhsil problemləri, artıq müasir gender təhsilində böyük bir maneəyə çevrilir. Məhz yeni feminizm pedaqogikası mövcud olan bu problemlərin aradan qaldırılması yollarını araşdırmaq nəticəsində meydana çıxmışdır. Buna görə gender təhsili dərin fəlsəfi-epistemoloji dünyagörüşünə əsaslanan yeni idrak sahəsidir [126, s. 233].

Gender təhsili postmodenist dünyagörüşünü yeni insanın təfəkkürünə yerləşdirməli və onun vasitəsilə müasir vətəndaş cəmiyyətini formalaşdırmalıdır. Çünki bu təhsil sistemində formalaşan qızların cəmiyyətdə fəal rol oynamasına nə ailə həyatı, nə də ənənəvi sosial-mədəni normalar mane ola bilməyəcəkdir. Qadın sərbəst şəkildə öz seçimini edərək, həyatda öz yolunu müəyyənləşdirəcəkdir. Bütün bunların gerçəkləşməsində gender təhsilinin rolu danılmazdır.

Gender təhsilində ayrıseçkilik tədris olunan fənlər arasında da ortadan qalxır. Məsələn, riyaziyyatın ədəbiyyatdan, fizikanın rəsmxət fənnindən üstün statusa malik olması mümkün deyildir. Çünki onlar arasında fərq qoymaq təhsilin və təhsil alanların istiqamətini öncədən yönləndirir və onlara potensial imkanlarını üzə çıxarmağa mane olur.

Gender təhsilinin fəlsəfəsini anlamaq üçün postneoklassik fəlsəfi dünyagörüşü ilə yaxından tanış olmaq lazımdır. Yəni gender təhsili mütəxəssislərinin postmodernist düşüncəsini mənimsəmələri zərurətdir. Onlar təlimdə kordinator, tərbiyə məsələsində isə lider rolunu oynamalıdırlar. Bu xüsusilə təşəbbüskar lider qadınların cəmiyyətdə üzə çıxmasına şərait yaradır. Gender mütəxəssisi öz danışıq və davranışlarında, auditoriyaya münasibətdə gender asimmetrasiyasını əks etdirən hallardan (androqoniya) uzaq olmalı və öz nümunəsi ilə gender ideologiyasının təbliğatçısına çevrilməlidir. Lakin androqonik xüsusiyyətlərin daşıyıcısına çevrilən və ya cinsi identikliyini itirən kadrların hazırlanması və cəmiyyətin buna hazırlığı məsələləri

inandırıcı səslənmir. Bir çoxları vətəndaş cəmiyyəti quruculuğunun və gender bərabərliyi təminatının alternativ yolunun olmadığını söyləyirlər [146,**s.**155].

Düşünürük ki, bu fikir səhvdir. Təhsil sahəsində innovasiyalara və yeni alternativ ideyalara həmişə ehtiyac olmuş və olmaqdadır. Cəmiyyətin inkişaf dialektikası daima təfəkkürdə və cəmiyyətdə yenilənməni zəruri edir. Bu baxımdan biz ənənəvi təhsilin tamamilə dekonstruksiyasına ehtiyatla yanaşmalı və təhsildə gender bərabərliyinin alternativ yollarını axtarmalıyıq. Çünki yenilənmə dialektik olaraq keyfiyyətin kəmiyyətə, kəmiyyətin də keyfiyətə keçməsi ilə müşayiət olunan qanunauyğun prosesdir. Təhsil sistemini də bu prosesdən kənarda düşünmək düzgün olmazdı. Ümummilli lider Heydər Əliyev təhsil məsələsinə diqqətlə yanaşmağın vacib olduğunu qeyd etmişdir: "Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır" [27].

Qender təhsilində interaktivlik metodu "özünü dünyada" və ""ətrafındakı aləmi" dərk etməyə yönələn dialoqa əsaslanır. Bu dialoq auditoriyada həqiqətin dərk olunmasında müəllimin monoloqunu inkar edir. Yəni müəllim auditoriyada kordinator kimi çıxış edərək müxtəlif fikirlərin yaranmasına şərait yaratmalı və dominantlıq funksiyasından geri çəkilməlidir. Bu isə, tədris prosesinin gedişatını dəyişir. Yəni tələbə və ya şagirdlər qrupu fokus qruplar şəklində, dəyirmi masa ətrafında, oyunlar və səhnəciklər əsasında, məktəbdənkənar məşğələlərlə yaxud esse, treyninqlər vasitəsilə bu təhsil prosesində fəal iştirak edə bilərlər. Müəllimin onların hər birinə qarşı ayrıseçkilik etmədən fərdi və şəxsiyyət kimi yanaşması, potensiallarının üzə çıxmasında yardımçı olması tələb olunur. D. S. Lixaçov gender pedaqogikasına uyğun şəkildə diskusiya aparılmasının və auditoriyanın ələ alınmasının əsas prinsiplərini müəyyənləşdirir:

- "Təkzib et, günahlandırma!
- Nə "qəlbində axtar", nə də rəqibin əqidəsinin motivini araşdırma!
- Mübahisə mövzusundan yayınma, qalib və ya məğlub olanadək davam et!" [115, **s.** 45-46].

Deməli, təhsildə gender metodikası bərabərlik fəlsəfəsinə əsaslanır. Əslində, bu bərabərsizliyə köklənən cəmiyyətin aradan qaldırılmasına və yeni cəmiyyətin qurulmasına şərait yaradan sosial-siyasi fenomendir.

İ. İlliçə görə, məktəb sistemi bizdə gizli şəkildə təlqin edir ki, güya təhsil yanlız məktəblə və ya məktəbə getməklə bağlı olmalıdır. Bu yolla təhsil sistemi özünü qoruyur [101,s.23]. Postmodernizmin gəlişi ilə bir çoxları artıq təhsilin sona çatdığını bildirirlər. P. Sloterdayk "təhsilə olan inamın sonu" olduğunu bildirir [127,s.5]. Son dövrlərdə gənc nəslin real həyatdan daha çox internetin virtual aləminə qapılması, onların fiziopsixoloji transformasiyasını sürətləndirir. Çünki internet məkanında onlar ənənəvi gender obrazından qurtularaq (avatar kimi) müxtəlif obrazlara transformasiya olunurlar. Bu baxımdan patriarxal cəmiyyət normalarından sıxılan qadınlar bu virtual aləmdə özlərini reallaşdırırlar. Bu proseslər gələcəkdə təhsilin informasiya texnologiyaları vasitəsilə virtual sahədə reallaşacağını göstərir. Artıq bunun ilk nümunələri müşahidə olunmaqdadır.

Postmodernist gender təhsilində həqiqət və obyektivlik anlamı yoxdur. Lakin hər şeyin yalan olduğunu irəli sürmək nigilizm əhval-ruhiyyəsini artırır. Buna qarşılıq olaraq şagird və ya tələbənin "Əgər hər şey yalandırsa, onda nəyə görə yalanı öyrənməliyəm?" sualı ortaya çıxır. Bu yanaşma təhsilə və insanın fiziopsixoloji dekonstruksiyasına şərait yaradar.

Orta əsr İslam elm-təhsil mədəniyyətində insan biliklərinin nisbi xarakter daşıması qeyd olunmuşdur. Lakin postmodernist düşüncədən fərqli olaraq Qurana əsaslanan mütləq həqiqət inancı olmuşdur. Elm və təhsilin məqsədi Quran kitabında olan həqiqəti dərk etməkdir. Lakin insanın bu həqiqəti dərketməsi məsələsi də nisbi xarakter daşıyırdı. Buna görə də, bu təhsil sistemində ortaya qoyulan biliklər mütləq həqiqətin idrakından irəli gəlsə də, heç bir zaman alim və müəllimlər mütləq bilik iddiasında olmamışlar. Onlar söylədikləri və yazdıqları məlumatların sonunda "Doğrusunu Allah bilir" demişlər. Bu elm və təhsilin inamla bağlanmasına və bu inamın daima mütləq bir məqsədə doğru irəliləməsinə şərait yaradırdı. Lakin postmodernist düşüncədə nə bir inam, nə də cəlbedici bir məqsəd vardır. Məqsəd və inamın olmadığı bir elm-təhsil sisteminin inkişafı absurd görünür.

Postmodernist düşüncə mütləq həqiqətin, total inam və məqsədin varlığını patriarxal hakimiyyətin varlığına bağlayır. Feministlər dinlərdə tanrıların kişi obrazında təcəssümünü buna dəlil gətirirlər. Bu başqa dinlərə münasibətdə mümkün olsa da, İslama münasibətdə mümkün deyildir. Çünki İslam dinində Allah nə kişi, nə də qadındır. Onun varlığı ağıl üçün məhculdur. Buna görə də ağıl və qəlb, elm və inamla Onu axtarır. Bu düşüncə orta əsr müsəlman elm və təhsil sisteminin əsasında dayanırdı. Biz gender təhsil sisteminin nəzəri və praktiki məsələlərində həm bu təcrübənin, həm də postmodernist təhsilin mütərrəqi ideyalarının sintezinə nai olmalı və bu sahədə geniş tədqiqat işləri aparmalıyıq.

Müasir təlim və tərbiyə məsələlərini önə çəkən bu pedaqoji prosesin məqsədi, gender fəlsəfəsini anlayan və onu həyat tərzinə çevirən şəxsiyyətin formalaşması, eyni zamanda gender bərabərliyinə nail olan sosiomədəni mühitin yaranmasıdır. Bunun üçün müvafiq fənlərin konvergensiyası, yeni interaktiv ünsiyyət metodlarının yaradılması və onların nəticələrinin təhsil prosesinin ilkin pillələrindən başlayaraq praktiki tətbiqi vacib məsələlərdəndir.

## 3.2. Kütləvi informasiya vasitələrinin (KİV) gender təhlili

Sovet dövründə sosialist ideologiyasına uyğun olaraq KİV-də "zəhmətkeş qadın və ana" obrazı təlqin olunurdu. Sovet Azərbaycanında Şamama Həsənova kimi sosialist əmək qəhrəmanı olan qadınlar KİV-də təbliğ edilirdi. Bu qadınlar sadə, zəhmətkeş, öz dövlətinin ideoloji kursuna könüldən bağlı olan və həm də ailədə öz ənənəvi funksiyasını yerinə yetirən qayğıkeş analardır. Sovet KİV-də qadınla əlaqədar yaradılan bu stereotipi dağıtmaq, dövlətin ideoloji kursuna qarşı çıxmaq kimi dəyərləndirilirdi. Buna görə də, həmin dövrdə həm KİV-də, həm də ədəbiyyatda bu stereotipin möhkəmlənməsi xətti üzrə inkişaf edirdi. Adətən bu ideoloji xətt kişilər tərəfindən həyata keçirilirdi. Çünki KİV-də çalışanların əksəriyyəti kişilər idilər. Onlar Qərbdə geniş yayılan feminizm ideyalarının sovet KİV-də yayılmasını qeyri-mümkün hesab edir və onları antisovet təbliğatı kimi dəyərləndirirdilər [199].

Lakin sovet dövlətinin süqutu və kapitalizmin gəlişi ilə əlaqədar olaraq sovet KİV sistemi ortadan qalxdı və postsovet məkanında yaranan yeni müstəqil dövlətlərin KİV yaranmağa başladı. Lakin bu sahə strateji bir sahə olduğu üçün, böyük dövlətlər və ya transmilli informasiya mərkəzləri dünyada KİV üzərində inhisarçılıq siyasəti həyata keçirməyə başladılar. Məhz bu inhisarçı informasiya mərkəzlərinin təsiri ilə postsovet məkanında mövcud KİV dəyişikliyə məruz qaldı və yeni televiziya kanalları, qəzet və jurnallar yarandı. Postsovet məkanında, həmçinin Azərbaycanda yaranan və dəyişikliyə məruz qalan KİV liberal ideologiyanın təbliğatçısına çevrildilər. Həmin dövrdən başlayaraq tədricən postsovet KİV-də, həmçinin Azərbaycan KİV-də ənənəvi sovet qadını stereotipi dağılmağa başlayır və onun yerində Qərbdən gələn istehlak mallarının təqdimatçısına və intim obyektə çevrilən qadın obrazı yer alır.

Hazırda Azərbaycanda 3500-dən çox müstəqil hüquqi və fiziki şəxslər, ictimai qurumlar, siyasi partiyalar tərəfindən təsis edilən KİV dövlət qeydiyyatından keçmişdir. Onlara əsasən, qəzet və jurnallar, 44 elektron KİV, 30-dan çox informasiya agentliyi, 7 ümumrespublika, 14 regional televiziya kanalı, 12 kabel televiziyası və 11 radiostansiya aiddir [181].

Azərbaycanda jurnalisitika sahəsində kişilər ənənəvi olaraq qadınlardan üstünlük təşkil etmiş və bu sahənin idarə olunması əsasən kişilərin əlində olmuşdur. Jurnalistlərin Həmkarlar İttifaqının 2011-ci ildə keçirtdiyi sorğuya görə respublikada 15 jurnalist təşkilatından yalnız birinin və 90 nüfuzlu KİV-dən 10-nun rəhbəri, həmçinin Mətbuat Şurasının İdarə Heyətinin 15 üzvündən cəmi biri qadındır [15,**s.** 380]. Qadınlar ümumrespublika yayımlı telekanalların əməkdaşlarının təqribən 40-45 faizini, regional telekanalların əməkdaşlarının təqribən 25-30 faizini, ümumrespublika yayımlı qəzetlərin əməkdaşlarının təqribən 30-35 faizini, regional qəzetlərin əməkdaşlarının təqribən 20-25 faizini təşkil edirlər. Onların media qurumlarının qərarverici orqanlarında təmsilçiliyi kifayət qədər aşağı rəqəmlərlə ifadə olunur [182].

Bu statistik rəqəmlər göstərir ki, qadınların KİV təmsil olunmasında ciddi problemlər vardır. Bu problemlər yanlız sovet dövrünün KİV ilə əlaqədar deyildir.

Bunların bir çox sosiomədəni səbəbləri də vardır. Həmçinin jurnalsitika sahəsində çalışan bu kiçik saylı qadın jurnalistlərin çoxu insan hüquqları, siyasi məsələlər barədə deyil, adətən mədəniyyət, ailə-məişət, sosial durum və başqa müvafiq mövzular barədə məqalələr yazırlar. Azərbaycan mediasında qadın jurnalistlərin belə zəif təmsil olunmasının və fərqli fəaliyyətinin səbəblərini aşağıdakı şəkildə səciyyələndirmək olar:

- Onlar cəmiyyətdə adlarının qalmaqallı məlumatlarda çəkilməsindən çəkinirlər.

- Onlar mübahisəli məlumatların yayılması ilə əlaqədar məhkəmələrə düşməkdən çəkinirlər.

- Onlar əxlaqsızlıqda ittiham olunmaqdan, böhtandan və hədələrdən çəkinirlər.

- Onlar barədə (xüsusilə, efir jurnalistləri) cəmiyyətdə formalaşan stereotiplər, onların ailə həyatı qurmasına maneçilik törədir.

- Kişi jurnalistlərdən fərqli olaraq qadın jurnalistlərə çox vaxt ikili münasibət ortaya qoyulur.

Bütün bu və ya digər səbəblər qadınların həvəsdən düşməsinə, jurnaslitikadan getməsinə və ailə hayatı barədə düşünməsinə gətirib çıxarır. Çünki onun bu fəaliyyəti nə ailədə, nə də cəmiyyətdə dəstək görmür [15,s. 381].

Mövcud problemlər Azərbaycanda digər sahələrdə olduğu kimi, KİV-də də gender problemlərinin olduğunu göstərir. Dövlət, gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması ilə əlaqədar proqram və layihələrin həyata keçirilməsini dəstəkləyir. Kütləvi informasiya vasitələri haqqında Azərbaycan Respublikasının Qanununun Maddə 10. hissəsində deyilir ki, "Kütləvi informasiya azadlığından sui-istifadənin yolverilməzliyi yalnız cinsinə, dinə münasibətinə, vəzifəsinə, cəmiyyətdə tutduğu möqeyə, habelə siyasi etiqadına görə vətəndaşı və ya vətəndaşların müəyyən qrupunu hörmətdən salmaq məqsədilə jurnalist hüquqlarından istifadə edib informasiya yaymaq qadağandır [200].

Azərbaycan Respublikasının Qadın Problemləri Üzrə Milli Fəallyyət Planı Haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Qadınlar və KİV"

qərarına əsasən (№/33. Bakı şəhəri, 06.03.2000-ci il) aşağıdakı tədbirlər nəzərdə tutulmuşdur:

1. Qadınların KİV-nin fəaliyyətində daha fəal iştirakı üçün şəraitin yaradılması və idarəetmə səviyyəsində təmsil olunmalarının təmin edilməsi ilə bağlı tədbirlərin görülməsi;
2. BMT, ATƏT, Avropa Şurası və digər təşkilatlar tərəfindən keçirilən beynəlxalq və regional tədbirlərdə qadınların iştirakına köməklik göstərilməsi;
3. Qadınlara qarşı zorakılıq və qəddarlıq təbliğ etmək, habelə pornoqrafik yazıları, əsərləri və təsvirləri çap etmək, bu xarakterdə olan sair predmetləri hazırlamaq-yaymaq, reklam etmək, onlarla alver etməyə görə məsuliyyət haqqında qanunvericiliyin icra vəziyyətinin araşdırılması və nəticəsindən asılı olaraq müvafiq tədbirlərin görülməsi;
4. Geniş ünsiyyət prosesində qadınların rolunu artırmaq məqsədi ilə, qeyri-dövlət, o cümlədən qadın təşkilatları, eləcə də kütləvi informasiya vasitələri ilə bağlı təşkilatlar üçün informasiya şəbəkələrinin yaradılması və proqramlarının hazırlanması;
5. Qadınların cəmiyyətdə rolunun artırılması ilə bağlı məlumatların kütləvi informasiya vasitələrı ilə yayılması;
6. Qadınlarla aparılan işləri geniş təbliğ etmək məqsədi ilə radio və televiziyada efir vaxtının ayrılması;
7. Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi Konvensiyası və Pekin Fəaliyyət Platforması və onlarla bağlı digər sənədlər haqqında məlumatların xüsusi proqramlar vasitəsi ilə geniş təbəqələrə çatdırılması [179].

Avrupa Şurasında media və gender əlaqəsi ilə bağlı qərarlar çıxarılır. Qadının statusu ilə bağlı fəaliyyətləri AŞ-nın əsas orqanları olan Nazirlər Komitəsi və Parlamentarlar Məclisində fəaliyyət göstərən iki ayrı komitə tərəfindən həyata keçirilir. Nazirlər Komitəsinə bağlı fəaliyyət göstərən təşkilatlar Qadın-Kişi Bərabərliyi İdarə Komitəsi (CDEG) və Parlamentarlar Məclisində fəaliyyət göstərən Qadın-Kişi İmkan Bərabərliyi Komitəsidir[184]. Bu iki komitənin əsas fəaliyyəti

gender bərabərliyi, qərarların çıxarılmasında qadın, qadına qarşı zorakılıq, gender siyasəti, mediada qadın və başqa məsələlərdir. Onlar müvafiq məsələlərlə əlaqədar üzv dövlətlərə müəyyən tövsiyələr irəli sürür və onların qarşısında müəyyən öhdəliklər qoyurlar [187].

AŞ-na üzv dövlətlər BMT-nın "Qadınlara qarşı bütün ayrıseçkilik formalarının ləğv olunması" sənədinə və Pekin Platformunda irəli sürülən bütün qərarlara uyğun olaraq üzərlərinə götürdükləri vəzifələri yerinə yetirməlidirlər. Bu sahədə həmin ölkələrin media quruluşları üzərinə də müəyyən vəzifələr düşür. Bu sahədə fəal olan media quruluşları beynəlxalq mükafatlara layiq görülürlər [186]. AŞ Nazirlər Komitəsinin bununla bağlı hər dörd ildən bir üzv ölkələrdə konfransları keçirilir. 2010-cu ildə bu konfranslardan biri Azərbaycanda keçirilmişdir [185].

1995-ci il Pekində keçirilən IV Dünya Qadın Konfransında media və qadın məsələsində hökumətlərin, milli və beynəlxalq media sistemlərinin, onlardakı reklam şirkətlərinin vəzifələri müəyyənləşmişdir: "Qadın və qızların layiqli şəkildə təmsil olunması, onların fərqli rollarının təmsili üçün aparılan araşdırmalara yardım etmək, maarifləndirmək, təhsil və nəqliyyat məsələlərini təmin etmək, dəyişikliklər və həyata keçirilən layihələrlə əlaqədar məlumat vermək üçün media və reklam agentliklərini müəyyən proqramlar reallaşdırmağa təşviq etmək, mediada qadının layiqli və çoxtərəfli şəkildə təqdimatına təşviq etmək üçün media şirkətləri sahibləri və idarəçiləri daxil olmaqla media işçilərinə gender sahəsində təhsil verilməsinə şərait yaratmaq, medianın qadını alçaltmaqdan və cinsi istismardan uzaqlaşması, bunun yerinə qadınları yaradıcı, mütərəqqi, yararlı, önəmli insanlar kimi təqdim etməyə təşviq etmək, mediada pornoqrafiya, qadın və uşağa qarşı zorakılığa qarşı hüquqi tənzimləmənin həyata keçirilməsi zəruridir."[172].

Azərbaycanda KİV-də gender problemlərinə tez-tez müraciət edirlər. 12 oktyabr 2002-ci ildə Bakıda Qadın Şəbəkəsi Proqramı (QŞP), Açıq Cəmiyyət İnstitutunun (ACİ) yardımı ilə "Gender siyasəti və KİV» beynəlxalq kinofestivalı keçirilmişdir. "İNTER NEWS" şirkəti tərəfindən Bakı və regionlardan qadın hüquqları və qender problemlərini işıqlandıran telejurnalistlər qrupu hazırlanmışdır. KİV-də bu məsələnin geniş yayılma səbəblərindən də biri beynəlxalq fondlar tərəfindən ("Azərbaycan -

Açıq Cəmiyyət" fondu) göstərilən maliyyə yardımlarıdır. Genderlə bağlı aparılan verilişlər sırasına "ANS"-də yayımlanan "Bir böl iki" (hal-hazırda Bakıda yayımlanmır), "Zerkalo" qəzetinin şənbə nömrəsində çıxan "Femina" əlavəsi və başqa müvafiq məlumatlardır[15,**s**. 47].

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində "Cəmiyyətdə formalaşmış gender stereotiplərinin aradan qaldırılmasında kütləvi informasiya vasitələrinin rolu" mövzusunda keçirilən "dəyirmi masa"da komitənin sədri Hicran Hüseynova demişdir ki, "qloballaşma dövründə, Azərbaycanda demokratiyanın formalaşdığı bir vaxtda jurnalistlərin baş verənlərə münasibəti, gender məsələlərinin işıqlandırılmasında məsuliyyəti bizi narahat edən məsələlərdir. Təəssüf ki, bu gün KİV-lərdə güclü, peşəkar jurnalistlərlə yanaşı, çox zəif qələm sahibləri də vardır. Onların yazıları bu və ya digər problemin həllinə kömək etməkdənsə, ziyan vurur. Biz vaxtaşırı populist çıxışların, lazım olmayan verilişlərin şahidi oluruq. Halbuki bu iş üçün hamımız məsuliyyət daşıyırıq." [12,s.4].

Əlbəttə, dövlət rəsmisinin çıxışı bu sahədə müəyyən problemlərin olmasından xəbər verir. Bu problemlərin yaranmasında bir çox amillər mövcud ola bilər. Onlardan ən başlıcası jurnalistlərin əksəriyyətinin gender sahəsində biliklərinin olmaması və eyni zamanda maraqlı qüvvələrin mənafelərini təmsil etmələridir. Bəzi hallarda yerli KİV nümayəndələri bu sahədə milli maraqlara zidd olan mənfi yöndən fəaliyyət göstərirlər. KİV cəmiyyətin şüurunu dəyişməkdə və onu yönləndirmədə ən güclü təsir gücünə malik olduğu üçün, inkişaf etmiş dövlətlər bu vasitədən siyasi-iqtisadi, sosial-mədəni məqsədlə istifadə edirlər. Çünki onun vasitəsilə ənənəvi gender stereotiplərini dağıdıb, yerində yeni stereotipləri yaratmaq mümkündür. Son dövrlərdə Azərbaycan cəmiyyətinin davranışlarında müşahidə olunan gender dəyişiklərində KİV-nin, xüsusilə televiziyanın rolu böyük olmuşdur.

Digər tərəfdən informasiya məkanı artıq internet KİV ilə bütün sərhədləri aşmışdır. Azərbaycanda əhalinin əksəriyyəti internet və peyk televiziyasından istifadə edirlər. Bu baxımdan gender sosiallaşmasında yerli KİV ilə yanaşı, fərqli gender baxışlarını əks etdirən xarici KİV də öz rolunu oynayırlar. Bu baxımdan dövlət KİV-də öz milli maraqlarını və təhlükəsizliyini təmin edən milli informasiya məkanı

yaratmaqda çətinlik çəkirlər. Bu sahədə qloballaşmaya xidmət edən internet KİV aparıcı rol oynayır.

Azərbaycanda KİV üzərində senzura götürüldükdən sonra bazar iqtisadiyyatının tələbləri ilə yeni müsbət və mənfi tendensiyalar meydana çıxdı. Yəni son dövrdə televiya verilişlərində ortaya çıxan qadın və kişilərin görkəmi, davranışlarında ənənələrə zidd olan məqamlar çoxdur. Lakin bütün ənənələrin inkar olunması və eyni zamanda yeniliyin nə olduğunu bilməmək nəticəsində KİV öz tərbiyəvi funksiyası tamamilə itirmişdir. Bu baxımdan yeni gender sosiallaşması ilə bağlı KİV rolu ancaq mənfi istiqamətdə inkişaf edir. KİV-də qadınlarla və genderlə bağlı informasiyaların araşdırılması göstərir ki, bu sahədə jurnalist mütəxəssislərin sayı yox dərəcəsindədir. Bunun üçün, güclü təbliğat vasitəsi olan KİV-də, reklamların təşkilində gender mütəxəssislərinin fəaliyyətinə böyük ehtiyac vardır.

Həqiqətən KİV-də əhalinin, xüsusilə uşaqların gender sosiallaşmasına təsir göstərən müsbət amillərlə yanaşı, mənfi amillər də çoxdur. KİV-də kişi və qadın obrazları bir-birinə zidd mövqedə dayanan başlanğıclar kimi təqdim olunur. Yəni kişi yaradıcı, peşəkar, ciddi, işgüzar, sosial, nüfuzlu, təşəbbüskar şəxsiyyət, qadın isə xarici görkəmi ilə kişilərin diqqətini çəkən, ev işlərini yerinə yetirən cinsi obyekt kimi tanınır. "Uşaq da doğaram, karyera da əldə edərəm" – deyən "super qadın" həm evi, həm də sosial fəaliyyəti bir arada saxlayan müasir ideoloji qadın obrazıdır. Bu qadın həm işində fəal, həm də evində ailəsində xoşbəxt baxımlı qadındır. Bunlar özünü KİV ilə ortaya qoyulan filmlərdə, televerilişlərdə, qəzet və jurnal səhifələrində, reklamlarda nümayiş etdirir.

Son dövrlərdə əksər qəzet və jurnallarda, Azərbaycanın əksər televiziya-radio kanallarında qadınlarla bağlı bir çox reklamlar, məqalələr və verilişlər meydana çıxmışdır. KİV-də, reklamlarda qadın şəxsiyyəti alçaldılaraq seksual obyekt və ya bir əşya kimi təqdim olunur. Yaxud qadınlar yanlız mətbəxdə, gözəllik verilişlərində, ev işlərində, uşaq tərbiyəsi məsələlərində, ailə verilişlərində ortaya çıxır. Son dövrdə qadınların arıqlaması və kosmetik cərrahiyyəsi ilə bağlı verilişlərdə qadın sanki özünün həyati məqsədinin kişilərin xoşuna gəlməkdən ibarət olduğunu sübut etməyə çalışır və bunun üçün bütün həyatını, qabiliyyətini qurban verməyə hazır olduğunu

bildirir. Onlar sovet dönəmində sosializm quruculuğu yolunda dəridən-qabıqdan çıxan zəhmətkeş qadın obrazının əksi olan meşşan təbiətli qadın obrazını yaradır. Yaxud müğənni qadınların ümumiyyətlə qadın barədə yaratdığı təsəvvürlər onları alçaltmaqdan, ləyaqətlərini tapdalamaqdan başqa heç bir şeyə xidmət etmir. Qadının bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq intim bir obyekt kimi hərraca çıxarılması, onların şəxsiyyətini və insani qabiliyyətlərini kölgədə qoyur. Bu məlumatlar qadınların ictimai gender bərabərsizliyi problemini həll etmir. Əksinə, onlar qadınların kişilərin xoşuna gəlmək yolunda yarışa dəvət edir. Təbii ki, bunların arxasında kommersiya məqsədləri dayanır. Lakin bu məqsədlər qadını azad bir şəxsiyyət kimi deyil, kişilərin zövqünə xidmət edən bir əşya və ya vasitə kimi dəyərləndirir.

Televiziya kanallarında qadın məsələsi və genderlə bağlı bir çox silsilə verilişlər hazırlanır. Bu kütləvi verilişlərin aparıcıları və iştirakçıları arasında qurulan diskurs cəmiyyətin gender sahəsində maariflənməsinə xidmət edir. Lakin əksər hallarda apacılar və iştirakçıların söhbətlərindən məlum olur ki, onlar problemin mahiyyətindən bixəbərdirlər. Adətən onlar gender problemləri ilə qadın problemlərini eyniləşdirirlər. Buna görə də yaranan diskusiyalar tamaşaçılar arasında çaşqınlığa və yanlış təsəvvürlərin formalaşmasına şərait yaradır. Bu səbəbdən televiziya jurnalistikası sahəsində gender mütəxəssislərinin yetişdirilməsi vacibdir.

Son dövrdə Azərbaycanda çəkilən bir çox seriallarda insan psixikasına, xüsusilə, uşaq tərbiyəsinə mənfi təsir göstərən epizodlar kifayət qədərdir. Qadınlara və ümumiyyətlə insanlara qarşı zorakılıq yolunu seçən avtoritetlər "əsil kişi" təqdim olunurlar. Bu kimi mənfi obrazlar çox vaxt gənc və yeniyetmələr arasında qəhrəmana çevrilirlər. Bu xüsusilə ailədə gender identikliyi problemi ilə yaşayan atasız oğlan uşaqları üçün ideal gender obrazına çevrilə bilər. Bu kimi zorakı və aqressiv kişi obrazları müxtəlif filmlərdə və ya cinayət verilişlərində təbliğ olunur. KİV nümayəndələri öz dinləyicilərinin sayını artırmaq və sensasiya üçün bu kimi halları işıqlandırırlar. Cəmiyyətdə digər hallarla (psixi xəstəlik, narkomaniya, alkoqolizm, əxlaqsızlıq və s) yanaşı, bu verilişlər də uşaqlarda şüuraltı səviyyədə qadınlara, insanlara qarşı aqressiya hisslərini formalaşdırır və onun nə zamansa reallaşma artıq

psixoloji zərurətə çevrilir. Son dövrlərdə qadınlara və uşaqlara münasibətdə yaranan zorakılıq halları, qəddar cinayət hadisələri bunu deməyə əsas verir. Çünki adətən qadın və uşaqlar psixoloji aqressiyanın mümkün obyektlərinə çevrilirlər [178].

Qadınlar televiziyada, xüsusilə reklamlarda kütləni cəlb edən və ona təsir etmək gücünə malik olan kommersiya və ideoloji təbliğat obyekti kimi istifadə olunurlar. [164,s.73]. Qadınların reklamlarda yeri və rolu zamanla dəyişir. Son dövrlərdə qadınlar daha çox reklam məhsulu ilə aidiyyəti olmayan intim obyekt kimi təqdim olunurlar. Bu reklam olunan məhsullara şüuraltı marağın oyanmasına səbəb olur. Bu həm də şüurda qadının intim obyekt kimi səciyyələndirilməsinə şərait yaradır [57,s. 8].

D.İmançer və A. İmançer, reklamlarda təmsil olunan qadın obrazlarını araşdıraraq, onları dörd qrupa bölmüşlər:

1. Gözəl, cəlbedici gənc qadın – intim cəlbediciliyi, sərbəstliyi, zövqlü geyimi ilə həm reklam tamaşaçılarını, həm də kişilərin diqqətini özünə çəkən patriarxal yönümlü reklam obyekti;
2. Çalışan qadın – həm gənc, baxımlı, zövqlü, əylənməyi sevən, həm də kişilərlə bərabər karyera və status qayğısına qalan, yəni hər şeyi yerli-yerində çatdıran və uğur qazanan;
3. Evli və ana qadın – özünü ailəsinə həsr edən, yoldaşı və uşaqlarının rahatlığını düşünən baxımlı, mükəmməl olan, ev işlərini əri ilə bölüşdürən və ya məişət cihazları vasitəsilə ev işlərini həll edən;
4. Yaşlı qadın – xoş xasiyyətli, gülərüz, ağbirçək, hörmət edilən, ana, mehriban nənə [56,s. 52].

D. Kelner bildirir ki, reklam və moda sənayesi istehlakla yanaşı əxlaq, siyasət, sosial davranış normaları yaradır və cəmiyyətə kişi-qadın tipləri təqdim edir. Buna görə də onlar cəmiyyətin sosial-iqtisadi və mədəni həyatının formalaşmasında və dəyişməsində aparıcı rola malikdirlər [59,s.76–**77]**.

Çox vaxt reklamlarda tanınmış aktrisalar çəkilir və ya onlar oynadıqları rollarda əlaqədar olduğu əşyalarla (geyimi, avtomobili, telefonu, kosmetikası və s) reklam olunurlar. Qadının cəmiyyətdə ənənəvi funksiyası KİV-də davam edir və dəyişməz

olaraq qalır [64,s.127].Çünki qadının bir əşya kimi təqdim olunması ənənəsi qədim patriarxal ənənələrdən qaynaqlanır. Reklamlarda qadın bədəni həm də bir rəqabət vasitəsi kimi (xüsusilə qadınlar arasında) dəyərləndirilir. Yəni bu reklamlar vasitəsilə qadınların şüuraltına təlqin olunur ki, reklam olunan əşya onların xoşagəlimli və uğurlu olmasına şərait yaradacaqdır. Məsələn, şampun reklamlarında öz gözəl saçları ilə kişiləri valeh edən qadınların davranışlarında özünü daha aydın göstərir. Bu əslində qadının gücünü əlindən alan özünəinamın azalmasına şərait yaradır [61,s.85].

KİV-də təbliğ olunan reklamların əksəriyyəti qadını bir tərəfdən marketinq vasitəsi kimi, digər tərəfdən ev işlərinə təhkim olunan varlıq kimi qələmə verir. M. Fuko bildirir ki, mal və xidmətlərə təklif reklamın "ilk diskursunu", mövcud sosial, gender, cinsi rollar isə onun "ikinci diskursunu" təşkil edir. Məhz "ikinci diskurs" tamaşaçının diqqətini "ilk diskursun" arxasında gizlənən, yanlız birinci dərəcəli əhəmiyyət daşıyan iyerarhiyaya yönəldir. Məsələn, "ilk diskursda" söhbət hansı yuyucu tozun (paltar maşınının, ətrin və s) keyfiyyətli olmasından gedirsə, "ikinci diskurs" kimin paltarı yumasını (xoşagəlimli olmasını) təlqin edir. Deməli, reklama yanlız müştərinin hansı malı alıb-almamasına yönələn deyil, həmçinin bu informasiyasının arxasındakı davranış, münasibət, ideologiya sistemini və sosial gender dəyərlərini təbliğ edir. Qadınlar aidiyyəti olmayan inşaat və sənaye mallarının reklamlarında da geniş istifadə olunur. Qadın bu reklamlarda həm intim cəlbetmə obyekti kimi, həm də patriarxal cəmiyyətin mənafeyinə xidmət edən kölə kimi dəyərləndirilir [56,s.51-52]. Tədqiqatçı A. Rüstəmova KİV-də müşahidə olunan bu kimi hallara öz münasibətini bildirərək qeyd edir ki, "bu gedişlə XXI əsr insanının psixikasında baş verə biləcək dəyişikliklərə heç kim təminat verə bilməz."[49, s. 65].

Reklamlarda qadınlarla yanaşı kişilər də qismən təmsil olunurlar. Lakin burada kişilərin və qadınların rolları bir-birindən fərqləndirilir. Yəni bu sahədə ənənəvi şəkildə mövcud olan gender stereotipləri KİV ilə yenə də təbliğ olunur. Burada qadınlar həssas, mərhəmətli, zərif, evdar, katibə, ərinin yardımçısı, ana şəklində, kişilər isə iradəli, məntiqli, güclü, uğurlu varlıq kimi təqdim olunurlar. Nəyə görə KİV-də iradəli, məntiqli, güclü, uğurlu, rəhbər, lider qadınların varlığı yox dərəcəsindədir? Bəyəm, son dövrdə Azərbaycanda müharibədə qəhrəmanlıq edən,

rəhbər işlərdə çalışan, geniş biznes fəaliyyəti ilə məşğul olan qadınların sayı azdırmı? Əlbəttə, onların təbliği patriarxal düşüncəyə uyğun deyildir. Qadınların reklam və filmlərdə zərif və aciz cins kimi təqdim olunması, onların yenidən evə və ya kişilərin nəzarəti altında olan sahələrə təhkim olunması deməkdir [65,s.115].

Beynəlxalq təşkilatlar insan hüquqlarının tərkib hissəsi kimi media və reklam şirkətlərindən aşağıdakı tədbirlərin həyata keçirilməsi vəzifəsini qarşılarına qoymuşdur:

“Xüsusilə, zorakılıq nümayiş etdirən, qadını alçaldan veriliş və pornoqrafiq materialların yayılmasına mane olan prinsiplər və qaydalar müəyyənləşdirmək, medianın bütün səviyyələrində qadının qərarların qəbulunda iştirakını təmin etmək, ailədəki məsuliyyətlərin bərabər bölüşdürülməsinə təşviq etmək, media kampaniyaları ilə qadın-kişi bərabərliyini vurğulamaq, ailədaxili və ümumiyyətlə, zorakılıq məsələsində məlumatlandırmaq (bunların QHT və özəl sektor tərəfindən də həyata keçirilməsi vacibdir), xüsusilə gənclərə nümunə olmaq üçün, ana, həyat yoldaşı, məslək sahibi qadın, idarəçi, işgüzar, iş və ailə məsuliyyətlərini tənzimləyən təcrübələri daxil olmaqla, ancaq bunlarla məhdudlaşmayan bir çox fərqli həyat təcrübəsini liderlik mövqelərinə daşıyan qadın liderlər haqqında media materialları istehsal edib yaymaq (bunların QHT və özəl sektor tərəfindən də həyata keçirilməsi vacibdir), qadını insan hüquqları məsələsində maarifləndirmək üçün maarifləndirici proqramların da istifadə etdiyi kampaniyalar təşkil etmək, qadınlara və qadın məsələsiylə bağlı məlumat yaymaq üçün, yeri gələndə alternativ medianın inkişafını və bütün nəqliyyat vasitələrinin istifadəsini müdafiə edərək maliyyələşdirmək, media proqramlarının gender təhlilini aparan mütəxəssislərin yetişdirilməsini inkişaf etdirmək lazımdır” [172,s. 35-36].

KİV öz mənafeyi istiqamətində fəaliyyət göstərdikləri təqdirdə gender maarifçiliyi ilə əlaqədar proqramlar ortaya çıxmayacaqdır. KİV-də biznes, idarəetmə, siyasət sahəsində fəal və ləyaqətli qadınların təbliği zəif xarakter daşıyır. Halbuki, bu kimi qadınların geniş təbliği cəmiyyətdə gender sosiallaşmasına müsbət təsir göstərər. Yəni KİV-də qadın ənənəvi olaraq yanlız ana, gözəl qadın olmaqla yanaşı, həm də cəmiyyətin inkişafında mühüm rol oynayan fəal bir insan kimi təqdim

olunmalıdır. Bu həm gender kimliyi yeni formalaşmaqda olan oğlan uşaqlarının qadınların şəxsiyyətinə münasibətdə pozitiv hisslərinin formalaşmasına, həm də gənc qızlarda özünəinam hisslərinin artmasına şərait yaradar. Ümumilikdə, bunlar cəmiyyətdə gender simmetriyasının əldə olunmasına şərait yaradar.

## 3.3. Dini-sosial münasibətlər sistemində gender mütənasibliyi

Biz çox vaxt dində gender meyarlarından bəhs edəndə dini mənbəni dini dəyərlərin daşıyıcısı olan cəmiyyətin varlığı ilə eyniləşdiririk. Halbuki, digər cəmiyyətlərdə olduğu kimi, Azərbaycanda da yaşayan dindarlar öz sosial mənşəyinə, təhsil səviyyəsinə, maddi durumuna və digər xüsusiyyətlərə görə bir-birindən fərqlənirlər. Bu xüsusiyyətlər onların dini baxışlarına, gender meyarlarına da müəyyən qədər təsir göstərir və bu onların fərqli baxış və davranışlarında özünü biruzə verir. Buna görə də bu sahədə araşdırma apararkən ümumi yanaşmalardan çəkinmək lazımdır. Xüsusilə, cəmiyyətin, sosial qrupların, fərdin gender ölçüləri ilə dinin gender meyarlarını eyniləşdirmək yanlışdır. Onların bir-biri ilə müqayisəli şəkildə araşdırılması daha məqsədəuyğundur.

Yer üzərində fərqli dinlər və onlar üzərində formalaşan fərqli mədəniyyətlər mövcuddur. Lakin onlar arasında İslam, xristianlıq, buddizm kimi total dünyəvi dinlər də vardır. Postneoklassik nəzəriyyələrin antitotal, antimərkəzçi baxışları ilə ənənəvi dünya dinlərinin baxışları arasında bir çatışma müşahidə olunur. Gender təlimi də postneoklassik nəzəriyyə kimi bu mövqedən çıxış edir. Buna görə də feministlər total dinləri və onların dəyərlərini patriarxallığın bazisi kimi əsas tənqid hədəfi seçmişlər. Onlara görə, dinlər gender rollarını müəyyənləşdirən patriarxal hakimiyyət konstruksiyası kimi qadını tarixən istismar etmək vasitəsi olmuşdur. İlk Qədim Şərq dövlətlərinin yaranması ilə qadın tanrıları kişi tanrıları ilə əvəz olunmuşdur. Buna görə də qadının azadlığı və gender rollarının tənzimlənməsi dinlərin, xüsusilə total patriarxal hakimiyyəti təmsil edən dünyəvi dinlərin ortadan

qalxması ilə mümkündür. Feminizmin bu yanaşması qloballaşmanın siyasi-ideoloji yanaşması və postmodernist dünyagörüşü ilə üst-üstə düşür.

Feministlərin dinlərə yanaşmasında müəyyən qədər həqiqət olsa da, onu birmənalı şəkildə qəbul etmək olmaz. Çünki dinlərin gender baxışları bir-birindən fərqlidir. Məsələn, xristianlıqda tanrı Müqəddəs Ata və Oğul kimi, əksər dinlərdə kişi kimi tanınırsa, İslamda Allah nə qadın, nə də kişi kimi, yəni "yaratdıqlarının heç birinə bənzəməz" (İxlas surəsi) şəkildə ortaya çıxır. Həmçinin bu və ya digər gender məsələlərinə münasibətdə də fərqli yanaşmalar vardır. Bu baxımdan feminizmin xristianlığı və digər dinləri tənqidini eynilə İslama aid etmək və ya bütün dinlərə bir baxış bucağından yanaşmaq yanlış metoddur. Liberal feminizmin dinlərə birmənalı yanaşması nəticəsində fərqli dinlər daxilində feminizm hərəkatları meydana çıxdı. Onlara xristianlıq feminizmi, yəhudilik feminizmi, İslam feminizmi və digərlərini misal göstərə bilərik. Onlar öz dini təlimlərini müasir gender və feminist baxışları çərçivəsində yenidən və müstəqil şəkildə təhlil etməyə çalışırlar.

Feministlər digər dinləri tənqid etdikləri kimi, İslam dinini də patriarxal istismar vasitəsi hesab edirlər. Feminizm ideyalarının və gender nəzəriyyələrinin cəmiyyətdə yayılması nəticəsində ideoloji zəmində feministlərlə antifeministlərin bir gizli qarşıdurması müşahidə olunur. Biz bunları, xüsusilə, KİV-də, müasir ədəbiyyatda və digər sahələrdə aydın görürük. Bu qapalı sosial münaqişə, əslində, gender müstəvisində liberalizm ilə konservatizm, qloballaşma ilə milli dövlət, İslam ilə ateizm arasında gedən qapalı mübarizədir. "Təsir əks təsirə bərabərdir" - prinsipindən çıxış etsək deyə bilərik ki, tərəflər arasında qarşıdurma artıq məhdud çərçivədən çıxaraq qlobal miqyasda gerçəkləşir. Gender diskursu müxtəlif tərəfləri bir araya gətirərək, həm onlar arasında münaqişə yaradır, həm də münaqişə tərəflərini orta məxrəcə gəlməyə vadar edir.

Liberal feminizmin dinlərə, xüsusilə, İslama baxışlarına İslam feminizminin münasibəti bizim üçün maraqlıdır. Onlar arasında diskurs Azərbaycanda artıq XX əsrin əvvəllərindən başlamışdır. XVIII əsrdən başlayaraq qadınların təhsil, seçki, işləmək və digər siyasi-vətəndaş hüquqları ilə bağlı siyasi-ideoloji mübarizə yolu keçən Qərb feminizminin monarxiya sistemlərinin çökməsi sahəsində və milli azadlıq

hərəkatlarında qazandığı təcrübələr sonralar bir çox Şərq ölkələrində “qadın azadlığı” adı altında milli azadlıq mübarizələrinin əsas tərkib hissəsinə çevrilmiş (Bunun məntiqi nəticəsi olaraq 1918-ci ildə qurulan AXC-də qadınlara azad seçki hüququ verildi) və Bakı nefti kapitalizmin, liberalizmin Cənubi Qafqaza ayaq açmasına, eyni zamanda millətçilik, feminizm ideyalarının geniş şəkildə yayılmasına şərait yaratmışdır.

XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanda və bir çox Şərq ölkələrində ortaya çıxan “qadın azadlığı” fenomeni, əslində, İslamın sosial dəyərlərinə qarşı yönələn siyasi-ideoloji bir hərəkat olmuşdur. Biz bunu həmin dövrlərin ədəbiyyatında (C. Cabbarlının “Sevil” əsəri), mətbuatında öz əksini tapan yazıların və tarixi faktların varlığında müşahidə edirik. Yəni “qadın azadlığı” fenomeni, əslində. müsəlman qadınları patriarxal əsarətə sürükləyən İslami dəyərlərdən xilas etmək ideyasını daşıyırdı. Çarşabdan xilas olmaq qadın azadlığının ən bariz nümunəsi hesab olunurdu. Qadının azad olmadığı cəmiyyətlər geri qalmış və cahil cəmiyyətlər hesab edilirdi. Bu sahədə sovet dövləti tərəfindən aparılan təbliğat işi və cəmiyyətin tarixi inkişaf dialektikası Azərbaycanda öz işini gördü. XX əsrdə baş verən sürətli şəhərləşmə prosesi, dünya müharibələri, əksər dünya ölkələrində olduğu kimi, Azərbaycanda da qadınların arxa cəhbədə kişiləri əvəz etmələrinə və beləliklə onların cəmiyyətdə fəallaşmasına şərait yaratdı. Keçən əsrin 50-60-cı illərdən sonra Bakı şəhərində yaranan beynəlmiləlçilik əhval-ruhiyyəsi ənənəvi gender stereotiplərini zəiflətdi. XX əsrin əvvəllərində çarşabsız qadının təsadüf hesab olunduğu Azərbaycanda XX əsrin ortalarında çarşablı qadın təsadüfə çevrildi. Bu hal cəmiyyətin ictimai şüurunda yeni gender norması halına gəldi.

XX əsrin 90-cı illərindən başlayaraq Sovet İttifaqının süqutu ilə postsovet məkanında dini dəyərlər yenidən aktuallıq kəsb etməyə başladı. Lakin sərhədlərin açılması və əhalinin dini savadsızlığı kənardan ölkəyə qeyri-ənənəvi dinlərin, radikal İslamçı hərəkatların daxil olmasına və onların əhali arasında öz tərəfdarlarını yaratmasına səbəb oldu. Buna görə də, Azərbaycanda monoton sovet cəmiyyətini müxtəlif mədəniyyət və dinləri (həmçinin dini-ideoloji cərəyanları) öz geyim, davranış və baxışları ilə təmsil edən fərqli sosial qruplar əvəz etdi (bu proses davam

edir). Biz Azərbaycanda sərbəst geyim və davranışları ilə seçilən Qərbyönümlü gənclərlə yanaşı, hicab geyinən qadınları da müşahidə edirik. Hətta dindar qadınlar arasında da geyim, davranış və baxışlarına görə fərqlənənlər vardır. Biz Azərbaycanda yaranan sosial mühit şəraitində həm Qərbin mütərəqqi ideyalarını, həm də İslam düşüncəsini öz həyat tərzində birləşdirən insanlara da çox təsadüf edirik. Məsələn, biznes, idarəetmə sahəsində fəal çalışan və şəxsi avtomobili olan hicablı qadınların sayı az deyildir. Bunlar göstərir ki, İslam dini əxlaq və imana zidd olmayan bütün dəyişiklərə daim açıq olan və özü-özünü yeniləyən dinamik dindir.

Lakin İslamı dərketmədə və ona yanaşmada müxtəlif dini cərəyanların fərqliliyi öz əksini həmin qrupları təmsil edənlərin davranışlarında biruzə verir. Yəni radikal və fundamentalist yönümlü İslam cərəyanları hər cür yenilik və inkişafa qarşı olduqları üçün, qadınların da hüquqlarını hərtərəfli şəkildə pozurlar. Son dövrdə Azərbaycanda azyaşlı qızların nikahsız ərə verilməsi, onların məktəbdən yayındırılması, qeyri-qanuni şəkildə poliqam ailələrin meydana çıxması, qadınlara qarşı fiziki və psixoloji zorakılıq halları bunu təsdiq edir. Bu cür hallar cəmiyyətdə İslama rəğbət deyil, ikrah hissinin formalaşmasına xidmət edir. Cəmiyyətdə İslam maarifçiliyinin aşağı səviyyədə olması, bir çox insanların radikal İslamçıların təsir dairəsinə düşməsinə şərait yaradır. Biz bunu dünyada terror məqsədilə istifadə olunan gənc qız və oğlanların şüursuz davranışlarında müşahidə edirik.

Azərbaycanda dindar qadınlar arasında öz hüquq və azadlıqlarını araşdıran ziyalı qadınlar da çoxluq təşkil edirlər. Çünki sovet dönəmində cəmiyyətin dindar təbəqəsi, xüsusilə müsəlman qadınlar sanki cəmiyyətdən təcrid olunan bir fenomen kimi dəyərləndirilmişlər. Buna görə də onlar özlərini təsdiq etmək üçün adətən internetdən istifadə edərək müsəlman qadınların hüquqlarını və onlar üzərinə düşən vəzifələri qadınlarla bölüşürlər. Çünki cəmiyyətdə ateist düşüncəli liberal feminizm ideyaları dindar qadınların əks müqavimətinə şərait yaradır. Bu qarşıdurma tədricən regional müstəvidən çıxaraq qlobal müstəvidə gedən liberalizm və antiliberalizm qarşıdurmasında əks olunur. Buna görə də Azərbaycanda qadınlar internet, beynəlxalq tədbirlər vasitəsilə beynəlxalq sekulyar feminizm və İslam feminizmi

hərəkatlarına qoşulurlar. Bu artıq informasiya texnologiyaları vasitəsilə müxtəlif sivilizasiyalarda qloballaşan müasir dünyanın gerçəkliyidir.

Bu gün dünyada 1970-ci illərdən meydana çıxan İslam feminizmi kimi tanınan bir hərəkat mövcud olsa da, onun nəzəri-metodoloji əsasları yoxdur. Lakin onlar feminizm və gender nəzəriyyələrinin nəzəri əsasları və metodlarından yararlanırlar. Onlara Əminə Vadud, Fatma Mernissi, Asma Barlas, Fatimə Nasef, Əzizə əl-Hibri kimi feministləri aid etmək olar. Onların əksəriyyəti ABŞ və Avropa Universitetlərinin din və fəlsəfə bölümlərində tədqiqat işləri aparan alimlərdir. Malaziyada olan Sisters in İslam (SIS) İslam feministləri liberal feministlərdən fərqli olaraq ailəni qadın istismarının səbəbi olan sosial institutu kimi qiymətləndirmirlər. Onlar əllərindən alınan İslami hüquqların bərpa olunmasını tələb edirlər. Onlar Məhəmməd Peyğəmbərin yaşadığı dövrdə gender bərabərliyinin mövcudluğunu, lakin sonralar bu bərabərliyin ortadan qalxdığını irəli sürürlər. Bu məsələdə onlar da patriarxal sistemi ittiham edirlər. Onlar qadın hüquqlarının pozulmasını həmçinin Quranın yanlız kişilər tərəfindən və ya onların ağlı ilə təfsir olunmasında görürlər. Onlara görə İslamda qadın hüquqlarına aid olan əksər məsələlər İslamda dövr və şəraitinə görə daim yenilənən sosial problemlər kateqoriyasına aiddirlər. İslam hüququnda bu kateqoriyaya aid olan məsələlər daima dəyişdiyi kimi, qadınlara aid olan miras, şahidlik, kişilərin çoxarvadlılıq məsələləri də həmin məntiqə uyğun olaraq yenidən dəyərləndirilməlidir [62,s. 44-45].

İslam feministləri bütün sahələrdə qadın və kişilərin bərabərliyini tələb edir və dini lider məsələsində qadınların məscidlərdə imamlıq məsələsinin məqbul sayılmasını tələb edirlər. Onlar müasir gender metodlarından istifadə edərək İslam tarixini tənqid edir və onun yenidən yazılmasını iddia edirlər [173].

Lakin İslam feministlərinin fikirləri dolayı yolla liberal feministlərin sekulyar ideyalarını təkrar edir. Yəni İslam feministləri İslam dininin təməl prinsiplərini şübhə altına almaqla, dolayı olaraq ona qarşı çıxırlar. Onların bəzi məsələlərə münasibəti qeyri-obyektiv xarakter daşıyır. Bu hərəkatın İslami feminizm kimi tanınması diqqəti yayındırmağa yönəlmişdir. Buna görə də Azərbaycanda İslamda gender məsələləri ətrafında müstəqil və obyektiv tədqiqiatların aparılması daha məqsədəuyğundur.

İslam dinində feminizm və gender nəzəriyyələrindən fərqli olan özünəməxsus gender meyarları mövcuddur. Onlar bəzi məqamlarda kəsişsə də, bəzi məqamlarda toqquşurlar.

Gender nəzəriyyələrində cinslərin sosial fərqlərinin bioloji deyil, sosiomədəni mənşədən irəli gəldiyi bildirilir. Yəni burada feministlərin "Qadın doğulmurlar, qadın olurlar" prinsipi cinslərin bütün sahələrdə bərabər təmsil olunmasını tələb edir.

Lakin Qurani-Kərimdə "oğlanın qız kimi olmadığı" vurğulanır: "Onu (bətnindəkini) doğduğu zaman: "Ey Rəbbim! Mən qız doğdum", - söylədi. Halbuki, Allah onun nə doğduğunu və oğlanın qız kimi olmadığını yaxşı bilirdi. (Hənnə:) "Mən onun adını Məryəm qoydum, onu və onun nəslini məlun (daşqalaq olunmuş) Şeytandan (Şeytanın şərindən) Sənə tapşırıram" (dedi)" (Ali İmran 36).

Bu ayə oğlanla qızın yanlız bioloji deyil, həm də digər xüsusiyyətlərə görə fərqli olduğunu göstərir. Bunu cinslər arasında aparılan sosial-psixoloji eksperimentlər də sübut edir. Məhz fiziki-psixoloji fərqlilik onların sosial gender rollarının müəyyənləşməsində, vəzifə və məsuliyyətlərin bölüşdürülməsində də özünəməxsus rol oynayırlar. Lakin bu bütün gender rollarının bu təmələ əsaslandığını göstərmir. Çünki sosial-mədəni mühitin də buna xüsusi təsiri vardır. Məhz bu məqamda gender nəzəriyyələri ilə İslam dininin baxışları arasında orta yanaşma mövcuddur. Lakin onlar bütün sosial fərqlərin ortaya çıxmasını yanlız mədəni mühitlə əlaqələndirmək məsələsində toqquşurlar.

İslam dini cinslərin sosiobioloji fərqlərini ortaya qoymaqla onların birini digərindən üstün tutmur. Çünki üstünlük cinsi, irqi, sinfi mənsubiyyətin fövqündə olan yüksək mənəviyyat ilə ölçülür. Cəmiyyətdə isə üstünlük daima güclü-gücsüz arasında gedən mübarizələrin nəticəsidir. Yüksək mənəviyyatın və ədalətin olduğu cəmiyyətdə heç bir ayrıseçkilik forması mövcud ola bilməz. Ayrıseçkilik mənəviyyatın və sosial ədalətsizliyin tərənnümüdür. Bu baxımdan İslam dinində gender ədalətinin təmin olunması yolu yüksək mənəviyyatın, əxlaqın tətbiqinə bağlıdır. Gender tədqiqiatlarında isə dini əxlaq normaları patriarxal istismar vasitəsi hesab olunurlar.

İslam dinində ailə institutu qadının səadət məkanı, analıq isə onun yüksək sosial statusu hesab olunursa, feminist nəzəriyyələrdə ailə qadının bədbəxtlik məkanı, analıq isə onun ən dəyərsiz statusudur. Bu məsələdə böyük bir ziddiyyət vardır. Çünki cəmiyyətin institutları ailə institutu üzərində formalaşdığı kimi, cəmiyyətdə də şəxsiyyətin yetişdirilməsi məsələsi analıq statusunun varlığı hesabına ortaya çıxır. Qadının ailə və analıqdan imtinası onun özünün və bütün cəmiyyətin məhv olmasına səbəb olar. Lakin gender meyarları bu sahədə cinslərin rolunu bərabər şəkildə bölüşdürülməsini təklif edir. Bu baxımdan gender meyarları ilə İslamın gender baxışları arasında uzlaşma mövcuddur. Yəni İslamda qadının əmək bölgüsündə ev işləri ilə məşğul olması barədə bir göstəriş yoxdur. Sadəcə ailədə və cəmiyyətdə cinslər müəyyən vəzifə və məsiliyyətləri öz fiziopsixoloji xüsusiyyətləri çərçivəsində və qarşılıqlı razılaşma şəraitində sərbəst bölüşdürə bilərlər. Bu baxımdan qadın sosial fəaliyyətində də kişilərlə bərabər geniş imkanlara malikdir.

Lakin feministlər İslam dininin bir çox məsələlərində gender bərabərliyinin pozulduğunu iddia edirlər. Bu iki qadının məhkəmədə şahidliyinin bir kişi şahidə bərabər tutulması, miras məsələsində qadının kişidən iki dəfə az mirasa sahib olması, qadının imamlıqdan (rəhbər olmaqdan) məhrum edilməsi məsələsidir.

Görkəmli ilahiyyatçı prof. Haydar Baş “İslamda qadın hüquqları” əsərində İslam hüququnda bir kişi şahidə iki qadın şahidin qəbul olunmasını belə izah edir: “Bunun hikmətini yenə də qadının yaradılışında hakim olan mərhəmət, həssaslıq, şəfqət hisslərində axtarmaq yerinə düşər. Bu, qadının iradə və ya ağlının əksikliyi ilə deyil, onda üstünlük təşkil edən mərhəmət hissinin böyüklüyü ilə əlaqədardır. Hər hansı bir məsələdə şahidlik edəndə, ruhundakı mərhəmət hissiylə məsələyə yanaşan qadın cinayətkara mərhəmət göstərə bilər və ya onun alacağı cəzanı qismən yüngülləşdirmək üçün şahid olduğu hadisəni yumşaq bir ifadə ilə desək, yüngülləşdirici səbəblər axtarmağa çalışaraq danışa bilər. Ancaq ikinci qadının varlığı ilə bu ehtimal ortadan qalxır. Qurani-Kərim bu məsələyə işarətlə «Qadınlardan biri unudarsa, digəri ona xatırladar», buyurur. Burada «unutmaq» sözü, «yanılmaq, səhv etmək, doğru yoldan azmaq» mənasında işlənən «dəlalət» sözündəndir. Burada əsas olan ədaləti maksimum şəkildə təmin etmək və cinayətkara nə çox, nə də az, tam

layiq olduğu cəzanı verməkdir. İslam dini bu məsələdə çox həssas hökmlər gətirmişdir. Qadının şahidliyi məsələsini də, bu geniş perspektiv çərçivəsində araşdırmaq lazımdır. Lakin «iki qadın ancaq bir kişiyə bərabərdir» kimi mənasız nəticələrə gəlmək və məsələnin əslini bilmədən hökm çıxarmaq, İslamın ruhunu bilməməkdən irəli gəlir."[28, s. 51-52].

Yaxud feministlərin qadınların qardaşlarına nisbətən mirasdan daha az pay almasını gender bərabərsizliyi kimi şərh edirlər. Lakin professor Haydar Baş bu məsələyə də aydınlıq gətirir: "Əvvəl bəhs etdiyimiz kimi, İslamda maddi ehtiyaclarını təmin etmək qadının vəzifəsi deyildir. Bu vəzifə onun atası, oğlu, əri və ya qardaşının üzərinə düşür. Kişi ailəsinin maddi ehtiyaclarını təmin etməlidir. Bu vəzifəni daşımayan qadınla, ona məsuliyyətli olan kişinin arasında mirasın bərabər bölüşdürülməsi, kişinin hüquqlarının pozulması deməkdir. Çünki kişinin çiyinlərində yalnız özünün deyil, himayə etdiyi insanların da məsuliyyəti vardır. Burada bir həqiqəti vurğulamaq istərdik. İslamda qadının can, mal, namus əmanətini qorumaq vəzifəsi də kişiyə aiddir. Qadın yalnız öz nəfsində namusunu qorumaqla mükəlləfdir. Başqalarının can, mal, namus və s. əmanətini qorumaq onun vəzifəsi deyildir. Bu cəhətdən cihad da qadına deyil, kişiyə fərz qılınmışdır. Miras məsələsinə də bu baxımdan nəzər yetirilməlidir. Çünki qadın nəinki başqalarının, heç özünün də maddi ehtiyaclarını təmin etməyə borclu deyildir." [28, s. 56-57].

Azərbaycan cəmiyyətində İslam maarifçiliyinin aşağı səviyyədə olması və gender problemlərinin elmi şəkildə deyil, bir dəb şəklində yayılması cəmiyyətdə müəyyən sosial-mədəni problemlərin ortaya çıxmasına şərait yaratmışdır. Son dövrdə Azərbaycan və Türkiyə ictimaiyyətində, KİV-də dindar qadınların hicab məsələsi tez-tez müzakirə obyektinə çıxarılır və qadınların hicabla məktəblərə, universitetlərə və bəzən bir çox idarələrə daxil olmasına maneələr yaradılır. Bu ölkələrin dövlət modelləri sekulyar olsa da, onların konstitusiyalarında hər kəsin fərdi seçiminə hörmətlə yanaşmağı tələb edən təbii "vicdan azadlığı" qanunu vardır. Bu qanunun pozulması insan hüquqlarının pozulmasına şərait yaradır. Lakin buna baxmayaraq, cəmiyyətdə hicablı qadınların hüquqları yerlərdə bürokrat məmurlar tərəfindən bu və ya digər şəkildə pozulur. Bu ən çox pasport və şəxsiyyət vəsiqəsi üçün başıaçıq

şəklin tələb olunmasında, məktəbdə, bəzən universitetlərdə təhsil almasında yaranan problemlərdə özünü göstərir. Bu hallar dindar qadınları dilemma qarşısında seçim etmək zərurəti ilə üz-üzə qoyur. Nəticədə, dini hökmlərə sadiq qalanlar təhsildən, ölkədaxili və ölkədənkənar səyahətlərdən (viza almaqla əlaqədar) məhrum olunurlar. Bu cəmiyyətdə qadına qarşı ayrıseçkiliyə və gender bərabərsizliyinə şərait yaradır.

Azərbaycanda son dövrlərdə erkən nikahlarla bağlı bir çox problemlər meydana çıxmışdır. Respublikada 10 mindən çox erkən nigah qeydiyyata alınmışdır [195]. Bu cür nikahlar daha çox cənub bölgələrində (ən çox Cəlilabad və Masallıda) 12-16 yaşarası və yanlız ibtidai təhsili olan qızlar arasında təsadüf olunur [196]. Lakin aparılan araşdırmalar göstərir ki, Azərbaycan əhalisinin onların yaxınlarının erkən nigaha girməsinə qarşı olanlar 86,5 %, laqeyd olanlar 8,3%, müdafiə edənlər 7,9% (əsasən cənub bölgəsinin kənd sakinləri) təşkil etmişdir [38,s.27-28].

Cəmiyyətdə bu nikahları adətən dini nikahlarla eyniləşdirirlər. Halbuki dini nikah anlayışının özü İslamda yoxdur. İslam hüququ ilə idarə olunan dövlətin qadının mülkiyyət hüququnu təmin etmək üçün ümumi nikah qanunu vardır. Bu hüquq tərəflər arasında məsuliyyətləri müəyyənləşdirən sekulyar dövlət nikahı ilə də tənzimlənə bilər. Bu baxımdan onun dini və sekulyar olması əhəmiyyət kəsb etmir. Yaxud bu gün Azərbaycanda bağlanan “dini nikahların” hüquqi statusu olmadığı üçün, o nikah hesab oluna bilməz. Çünki sabah ərindən boşanan qadın həmin nikah əsasında öz hüquqlarını təmin edə bilməz. Bu nikaha müqəddəslik statusunun qazandırılması İslamdan daha çox xristianlıqda kilsə kəbin mərasimindən gələn bir adətdir. İslam dinində bu nikah dini-etiqadi deyil, hüquqi baxımdan dəyərləndirilir. Araşdırmalar göstərir ki, respondentlərin 17,2 % qadın və 5,2 % kişi olmaqla “dini kəbin” anlayışının İslamdan gəldiyini düşünürlər. Azərbaycanda bu nikahın “dini nikah” kimi dəyərləndirilməsi adət-ənənədən, həm də sosial-iqtisadi problemlərdən irəli gəlir. Son dövrlərdə regionlarda işsizlik problemləri, savadsızlıq, kişilərin kütləvi şəkildə əmək miqrasiyasında olması və digər sosial-iqtisadi problemlər ailələrdə qızların tez ərə verilməsinə, təhsildən yayınmasına şərait yaradır [38.s.28-29]. Təbii ki, belə bir şəraitdə gender bərabərliyinin təmin olunması mümkün deyildir. Deməli, problemin həll olunması üçün, bölgələrdə sosial-iqtisadi problemlərin həlli vacibdir.

Çünki gender problemlərinin kökündə sosiomədəni stereotiplər dayansa da, onların fəallaşmasına şərait yaradan əsas amil sosial-iqtisadi problemlərdir.

Azərbaycanda son dövrlərdə çoxarvadlılıqla, yəni kişilərin poliqamiyası və ya siğə ilə bağlı məsələlər üzə çıxmışdır. Bu ənənə Azərbaycana kənardan radikal İslamçılar vasitəsilə gətirilmişdir. Çünki son yüz ildə belə bir hal Azərbaycanda müşahidə olunmamışdır. Kişilərin poliqamiyası dünyada geniş yayılmış bir haldır. ABŞ-da mormonlar arasında da bu kimi hallar geniş yayılmışdır. Hətta dünyada qadınların poliqamiyasının olduğu cəmiyyətlər də vardır. Lakin buna çox az təsadüf olunur. Feministlər bunun qadın hüquqlarına zidd olduğunu, lakin bir çoxları bunun kişilərin poliqam təbiəti ilə əlaqədar ortaya çıxdığını bildirirlər [197].

Bu gün bəzi İslamçılar bunu İslamda olan vacib bir məsələ kimi qələmə verməyə çalışır və qeyri-rəsmi şəkildə bu kimi nikahları tətbiq edirlər. Halbuki, Quranda bu nikah müsəlmanlar üçün məsləhət bilinmir: "Əgər ədalətlə dolanmağa əmin deyilsinizsə, o halda təkcə bir nəfər qadın və ya sahib olduğunuz kənizlə evlənin! Bu, ədalətli olmağa daha yaxındır" (Nisə 3). "Siz hər nə qədər cəhd göstərsəniz də, heç vaxt arvadlar arasında ədalətlə rəftar etməyi bacarmazsınız. Barı, (birisinə) tamamilə meyl göstərib, digərini asılı vəziyyətdə (nə ərli kimi ərli, nə də boşanmış kimi boşanmış) qoymayın. Əgər özünüzü islah edib belə hərəkətlərdən çəkinsəniz, (Allah sizi bağışlar). Həqiqətən, Allah bağışlayan və rəhm edəndir!" (Nisə 129)

Bu gün dünya müsəlmanlarının 3%-i bu nikahla yaşayır. Bu halın geniş yayılmaması bir daha bu nikahın müsəlmanlar arasında az tətbiq olunduğunu göstərir. Bu nikahın tətbiqinin bir çox səbəbləri vardır. Onlardan ən başlıcası qadınlarda sonsuzluq və digər tibbi problemlərdir. Müsəlman cəmiyyətində boşanma hallarının azalması üçün bu nikahdan istifadə olunur. Poliqamiya nikahında olan 3% əhali arasında bu və ya digər problemləri olanlar çoxluq təşkil edirlər [194]. Lakin bu nikah növü ədaləti qorumaq şərti ilə (gerçəkləşməsi çox müşkül olan) İslamda məqbul sayılmışdır. Lakin Azərbaycanda son yüz ildə formalaşan ənənə bu tip nikahın tətbiqinə imkan vermir. Xüsusilə, son dövrlərdə cəmiyyətdə geniş təbliğ olunan feminizm ideyaları və gender maarifçiliyi siyasəti bu kimi halların tətbiqinin qarşısını alır.

Araşdırmalar göstərir ki, Azərbaycanda İslam dini və gender təlimləri arasında kəsişən və toqquşan məqamlar mövcuddur. Lakin cəmiyyətdə sosial din fenomeni ilə gender ideyalarının təbliği arasında uzlaşma müşahidə olunmur. Çünki cəmiyyət həm İslam, həm də gender maarifçiliyi sahəsində axsayır. Hər iki istiqamətdə aparılan maarifçilik işləri onlar arasında müəyyən kəsişən məqamların ortaya çıxmasına və bəzi problemlərin həll olunmasına şərait yaradar. Bu həm Azərbaycanın milli-mənəvi birliyini, həm də cəmiyyətin müasir dünyaya inteqrasiyasını artırar.

# NƏTİCƏ

Tarixə nəzər salsaq , Azərbaycan cəmiyyətinin inkişafının bütün mərhələlərində Manna, Atropatena dövlətlərində, Səlcuqlar dövründə, Səfəvilər dövlətində belə qadınların kişilərlə bərabər dövlət quruculuğunda, siyasi qərarların verilməsində fəal iştirak etmələrini açıq-aydın görmək olar.Xüsusi ilə milli qadın siyasəti tariximizin şanlı səhifəsi olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət statusu almışdır. Bununla da nəinki Şərqdə, hətta demokratiyanın beşiyi sayılan bir sıra Avropa ölkələrindən və ABŞ-dan əvvəl qadına cəmiyyət həyatında siyasi proseslərə qoşulmaq hüququ verilmişdir. Cümhuriyyət dövründə hüquqi təməli qoyulmuş gender bərabərliyi prinsipi sovet dövrü ərzində həm hüquqi, həm də real baxımdan əksər hallarda həyata keçirilib. Qadının kişilərlə bərabər azadlığı, hüququ, imkanı, qadın təhsili problemi də həllini tapmışdır. Məlumdur ki, sovet hakimiyyətinin 70 ili ərzində Azərbaycanın iqtisadi-siyasi, elmi- mədəni və ictimai həyatında qadınların yüksək intellektual zümrəsi formalaşmışdır. Amma o dövrün ideologiyası istər-istəməz qadınların tam olaraq potensialının üzə çıxmasına mane olurdu. 20-ci əsrin 90-cı illərindən başlayaraq Sovet İttifaqının süqutu ilə sosial, mədəni, iqtisadi və siyasi sahələrdə böhranla üzləşən postsovet cəmiyyətləri o cümlədən , Azərbaycan yerli ənənəvi sosial-mədəni institutların və Qərb ölkələrindən gələn qeyri-ənənəvi liberal düşüncələrin münaqişə meydanına çevrilmişdirlər. Sovet dövlətinin süqutu ilə meydana çıxan müstəqil dövlətlərin daxili qanunauyğunları və üzləşdikləri problemlər arasında oxşar və fərqli cəhətlər olduğu üçün, yaranan gender problemləri arasında da oxşar və fərqli cəhətlər meydana çıxırdı. Gender tendensiyası müxtəlif ölkələrdə özünü müxtəlif cür büruzə verib. Bütün sahələrdə, xüsusilə də idarəçilikdə, qərarqəbulunda gender bərabərliyinə nail olmaq üçün inkişaf etmiş Avropa dövlətlərində belə bir sıra qanunlar qəbul edilib, müəyyən addımlar atılmışdır. Amma hələ də dünya üçün gender bərabərliyinin təminatı aktual problem olaraq qalır. Azərbaycan müstəqillik qazandıqdan sonra , xüsusilə də 1994-cü ildən başlayaraq ölkədə sabitliyin bərqərar olması qadınların da ictimai-siyasi həyatda fəaliyyətinin artırmasına yol açdı.

Müstəqilliyinin ilk illərində Azərbaycan Respublikasının qarşısında yeni tarixi mərhələ: dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlət qurulması, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi, Dağlıq Qarabağ probleminin milli maraqlara uyğun həlli, əhalinin təhlükəsizliyinin və rifahının təmin edilməsi kimi taleyüklü, mühüm tarixi vəzifələr məqsədə çevrilmişdir. Qeyd olunan məsələlərin ardıcıl, məqsədyönlü, düşünülmüş daxili və xarici siyasət kursunun hazırlanıb həyata keçirilməsini və bu məqsədlə ölkənin intellektual və sosial-iqtisadi potensialından, ictimai-siyasi qüvvələrindən səmərəli istifadə olunmasını zəruri etmişdir ki, heç şübhəsiz, bu vəzifələrin həyata keçirilməsi prosesində dövlətin yeni gender siyasətinə olan ehtiyac da özünü aşkar büruzə verirdi. Lakin aktual və maraqlı olduğu qədər də mürəkkəb bir fenomen olan gender sahəsi tək dövlətin nəzarət etməsi ilə məhdudlaşmırdı. Burada nəzarətdən çox bu məsələyə qayğı göstərmək prioritet təşkil edirdi. Respublikada milli və bəşəri dəyərlərin sintezini, bu sahədə dünya təcrübəsi yönündə həyata keçirilən islahatlar dünyanın sosial, mədəni, iqtisadi cəhətdən inkişaf etmiş dövlətləri səviyyəsinə çatmasına şərait yaradır. Sosial, mədəni, iqtisadi tərəqqiyə xidmət edən bu prosesdə qarşıya çıxan problemlər isə bilavasitə gender siyasətinin inkişafında bəşər tarixinin, dünyanın inkişaf təcrübəsinin öyrənilməsini, kompleks əlaqələrinin genişləndirilməsini zərurətə çevirir ki, bütün bunlara da yalnız yüksək maarifləndirmə sayəsində nail olmaq mümkündür.

Ümummilli lider Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində respublikamıza rəhbərliyi dövründə Azərbaycan qadınlarının problemlərinin həllinə, onların ölkənin siyasi, sosial, iqtisadi və mədəni həyatında rolunun artırılması məsələlərinə böyük diqqət ayırmışdır. Ulu öndərin qurucusu olduğu müasir Azərbaycanın inkişafında qadınların rolu əhəmiyyətli dərəcədə artmışdır. Bu prosesdə onların rolunun artırılmasını təmin etmək üçün dövlət səviyyəsində çox mühüm tədbirlər həyata keçirilmişdir və keçirilməkdə davam edir. Yəni ölkəmizdə insan hüquq və azadlıqlarının, onların tərkib hissəsi kimi gender bərabərliyinin təmin edilməsi daim Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olmuşdur.

Dissertasiya mövzusunun tədqiqi nəticəsində müəllif gender siyasətinin təhlili ilə bağlı bir sıra vacib məqamlara əsasən feminizm və gender tədqiqatlarına, həmçinin gender dilçiliyi məsələlərinə toxunaraq, postneoklassik feminizm və gender nəzəriyyələrinin inkişaf dinamikasını və müxtəlif istiqamətləri araşdıraraq belə bir nəticəyə gəlmişdir ki, bu sahədə bir-biri ilə uzlaşmayan və ziddiyyətli məqamlar çoxdur. Buna görə də bu sahədə alternativ ideyaların varlığına və onlara elmi-tənqidi yanaşmağa ehtiyac vardır. Biz də tədqiqat prosesində gender kateqoriya və terminlərinə birmənalı şəkildə deyil, skeptik şəkildə yanaşmağa çalışmışıq.

Tədqiqat prosesində müəllif Azərbaycanın sosial-mədəni həyatını tədqiq edərkən gender metodlarından və feminist yanaşmalardan istifadə etməyin mümkün olduğunu müəyyənləşdirmişdir. Çünki bu metod və yanaşmalar univelsal əhəmiyyətlidir. Onların vasitəsilə istənilən mədəniyyətin sosial-fəlsəfi mahiyyətini üzə çıxarmaq mümkündür. Xüsusilə, mədəniyyətin rəmzi strukturunu təşkil edən dil fenomeni gender metodları vasitəsilə dekonstruksiya olur. Bununla da gender linqivistikası metodları ilə Azərbaycan dilini tədqiq edərək belə bir nəticəyə gəlmişdir ki, gender bərabərsizliyi dilimizin qrammatik strukturunda deyil, əsasən, onun semantikasında əks olunmuşdur. Başqa dillərdən fərqli olaraq türk dillərində gender stereotipləri dilin qrammatik quruluşunu dəyişdirməmişdir. Bu da Azərbaycan-türk xalqlarında gender stereotiplərinin dinamik və dəyişkən xarakterli olması ilə bağlıdır.

Eyni zamanda cəmiyyətin sosiallaşma prosesinə, sosial fəaliyyət sahələrinə və ailə institutunun sosial dinamikasına gender aspektindən yanaşaraq, gender sosiallaşması sahəsində aparılan eksperimentlərin nəticələrini təhlil edərək müəyyənləşdirmişdir ki, cinslərin gender fərqləri sosial konstruksiya xarakteri daşısa da, onları bir-birindən fərqləndirən müəyyən fiziopsixoloji xüsusiyyətləri də mövcuddur. Bu xüsusiyyətlər cinslərin gender fərqlərinin formalaşmasına öz təsirini göstərir. Lakin gender fərqləri, əsasən, mədəniyyətdən və mədəni ənənələrdən qaynaqlanır. Bu mədəni stereotipləri qoruyub saxlayan, əsasən, ailə və təhsil institutudur. Buna görə də sosiallaşmada gender təhsili məsələsinə diqqət yetirdik. Lakin təhsildə cinsi identikliyin ortadan tamamilə qaldırılması sosiallaşmada digər problemlərin yaranmasına şərait yarada bilər. Digər tərəfdən təhsildə ənənəvi

patriarxal sistemin qorunub saxlanılması gender bərabərsizliyi problemini daha da dərinləşdirər. Buna görə də biz müasir gender təhsili metodları ilə ənənəvi təhsil metodları arasında sinkretik formaların axtarılmasını və alternativ varianların ortaya qoyulmasını məqsədəuyğun hesab edirik.

Statistik göstəricilər əsasında müəyyənləşdirdik ki, cəmiyyətin əksər sosial-mədəni, sosial-iqtisadi sahələrində gender bərabərliyi ciddi şəkildə pozulmuşdur. Hətta qadınların sayca üstünlük təşkil etdikləri sahələrin (təhsil, səhiyyə) idarəetmə orqanlarında kişilər böyük üstünlük təşkil edirlər. Qadınların kişilərlə icra etdikləri eyni işə görə verilən məvacib arasında gender bərabərsiziyi özünü göstərir. Yəni qadınlar daima ucuz işçi qüvvəsi kimi fəaliyyət göstərir və onların əksəriyyət təşkil etdiyi iş yerləri cəmiyyətdə aşağı statusa malik olur. Çünki qadınlar tarixi-mədəni inkişaf prosesində daima cəmiyyətdə aşağı statusa malik olan cins kimi tanınmışlar. Bu vəziyyət həm sosial-iqtisadi problemlər, savadsızlıq, işsizliklə, həm də dərin kökləri olan stereotiplərlə bağlıdır. Araşdırmalar göstərir ki, əksər qadınların ərə gedərək karyeradan əl çəkməsi, hamilə olan, analıq məzuniyyətinə çıxan və övlad böyüdən qadınların işə cəlb olunmaması, bir qrup ali təhsilli qadınların işləməməsi, qadınların öz hüquqlarından kifayət qədər xəbərdar olmamaları və bir qrup qadınların hüquq bərabərliyinə can atmaması, qadınların texniki və idarəetmə bacarıqlarının aşağı olması, qadınların yüksək gəlirli və məsuliyyətli sahələrdə fəaliyyətinə inamsızlıq aşılayan (bu kişi peşəsidir) milli stereotiplərin mövcudluğu, qadınların, bəzən, işlədiyi sahələrdə cinsi istismara məruz qalması, ailə qayğıları ilə yüklənən qadınların peşəkarlıq səviyyəsində kişilərdən geridə qalması, qadınların bəzi əmək sahələrində işləməsini təmin edən sosial-psixoloji mühitin olmaması, qadınların bütün yaş dövrlərində ev işlərində və övlad yetişdirməkdə məsul tutulması, bir qrup qadınların zorla evə təhkim olunması, əksər qadınların "ev xanımı" və ya "ana" statusu ilə razılaşaraq işləmək istəməməsi, işləyən qadının ailədə münaqişəyə səbəb olması, qadınların, əsasən, az gəlirli sahələrdə daha çox təmsil olunması, qadınların harada və necə işləməsindən asılı olmayaraq əsasən ucuz işçi qüvvəsi kimi dəyərləndirilməsi, qadınların cəmiyyətdə "zərif cins" kimi səciyyələndirilməsi, qadınların mülkiyyət sahibliyinin aşağı olması, qadınların ilkin kapitalının olmaması,

məşğulluq və biznes imkanları haqqında məlumatsızlıq, kredit və maliyyə bazarlarından istifadə olunmasında çətinliklər, qadınlarda özünə inamın aşağı olması və başqa stereotiplər cəmiyyətdə gender bərabərliyinin təmin olunmasına maneçilik törədir.

Müəllif Azərbaycanda ailə institutunu müasir feminizm və gender nəzəriyyələri baxımından tədqiq edərək belə bir nəticəyə gəlmişdir ki, son dövrlərdə artan boşanma, zorakılıq, hüquq pozuntuları hallarını doğuran səbəblər cəmiyyətdə sürətlə davam edən sosial-mədəni dəyişiklərlə bağlıdır. Yəni bir tərəfdən qadınlar cəmiyyət həyatında fəallaşır və cəmiyyətdə gender bərabərliyi artan xətt üzrə inkişaf edir, digər tərəfdən onlarla ənənəvi gender meyarlarından qurtula bilməyən insanlar arasında münaqişələr yaranır. Bu münaqişələr ənənə ilə müasirlik, konservatizm ilə liberalizm arasında gedən münaqişələrdir ki, onlar tədricən ailələrə və onların psixoloji durumuna sirayət edir. Bu, dövlətin, əvvəllər olduğu kimi, patriarxal sistemini himayə etməməsi və beynəlxalq təşkilatların təkidi ilə gender bərabərliyi siyasətini həyata keçirməsi ilə bağlıdır. Nəticədə, ailədə, cəmiyyətdə ənənəvi gender identikliyini ortadan qaldıran patriarxal sistemin dekonstruksiyası prosesi gedir. Təbii ki, bu psixoloji proses özü ilə ənənəvi düşüncənin aqressiyasını şüuraltı səviyyədən sosial müstəviyə qaldırır. Nəticədə, bundan ailələr, uşaqlar, qadınlar əzab çəkirlər. Bu problemlərin dərinləşməməsi üçün, dövlət gender bərabərliyini dəstəkləyən və cinslərin sosial statusunu qoruyan müəyyən tədbirlər həyata keçirməlidir. Biz bununla bağlı ailələrdə qadının sosial statusunun qaldırılması, yəni onun reproduktiv fəaliyyətinin dövlət maaşı ilə produktiv iş kimi dəyərləndirilməsini təklif etmişik. Bu həm kişilərin, həm də qadınların sosial statusunun bərabərləşməsinə və münaqişəsiz gender bərabərliyinin təmin olunmasına şərait yaradar.

Azərbaycan cəmiyyətinin mədəni inkişafına təsir göstərən elm , təhsil, KİV və din kimi məsələlərin gender təhlilini aparmışdır. Statistik göstəricilər əsasında müəyyənləşdirmişdir ki, qadınların təhsil alması sahəsində müəyyən problemlər mövcuddur. Buna təsir edən amillər həm bölgələrdə təhsilin maddi-texniki bazasının və kadr potensialının aşağı olması, həm də pullu təhsil sisteminin tədricən genişlənməsidir. Buna görə də valideynlər təhsil məsələsində qızlardan daha çox

oğlanlara üstünlük verirlər. Buna da səbəb olan bir çox stereotiplər vardır. Məsələn, bir çox bölgələrdə bəzi valideynlər “qız ev və ailə işi ilə məşğul olsun” deyə məktəbə buraxmır, oğlanları isə “ailənin gələcək çörək qazananı olacaq” deyə ali təhsilinə xərc çəkirlər. Yaxud, uşaqları təhsildən yayındıraraq qeyri-qanuni əməyə cəlb edir, “qadın peşəsi" adı altında qızların az gəlirli və ailə işlərinə sərf edilməli olan bol vaxtlı iş sahələrinə, ixtisaslara yönləndirirlər, “ailə büdcəsinə yük” kimi dəyərləndirilən qız uşaqlarını vaxtından əvvəl ərə verirlər və s.

